# AZƏRBAYCAN TARİXİ




METODİK VƏSAİT

9

ELNUR HÜSEYNOV
NİYAMƏDDİN QULİYEV
PƏRVİZ AĞALAROV
SEVİL BƏHRƏMOVA

*Ümumi təhsil müəssisələrinin* 9*-cu sinifləri üçün*

# AZƏRBAYCAN TARİXİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# Mündəricat


AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ ........ 4

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ ............ 14

9-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI ..... 21

9-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ STANDARTLARIN İNTEQRASİYA İMKANLARI ........ 23

TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR ........ 26

DƏRSLƏRIN İLLİK PLANLAŞDIRILMASI ........ 30

**MÖVZU 1.** Şimali Azərbaycanda müstəmləkə rejiminin yaradılması və möhkəmləndirilməsi (birinci saat) ........ 33

**MÖVZU 1.** Şimali Azərbaycanda müstəmləkə rejiminin yaradılması və möhkəmləndirilməsi (ikinci saat) ........ 37

**MÖVZU 1.** Şimali Azərbaycanda müstəmləkə rejiminin yaradılması və möhkəmləndirilməsi (üçüncü saat) ........ 40

**MÖVZU 2.** Burjua islahatları (birinci saat) ........ 43

**MÖVZU 2.** Burjua islahatları (ikinci saat) ........ 46

**MÖVZU 3.** Dünyanın neft mərkəzi – Bakı ........ 33

**MÖVZU 4.** Sənayenin digər sahələri. Kənd təsərrüfatı ........ 49

**MÖVZU 5.** Millətin formalaşması ........ 52

**MÖVZU 6.** Xalq hərəkatı ........ 55

**MÖVZU 7.** Cənubi Azərbaycan ........ 58

**MÖVZU 8.** Mədəniyyət (birinci saat) ........ 64

**MÖVZU 8.** Mədəniyyət (ikinci saat) ........ 68

**MÖVZU 9.** Sənayenin vəziyyəti. Kənd təsərrüfatı ........ 71

**MÖVZU 10.** Milli-demokratik hərəkat (birinci saat) ........ 74

**MÖVZU 10.** Milli-demokratik hərəkat (ikinci saat) ........ 77

**MÖVZU 11.** Çarizmin milli qırğın siyasəti ........ 77

**MÖVZU 12.** Cənubi Azərbaycanda Məşrutə inqilabı ........ 85

**MÖVZU 13.** Azərbaycan Birinci dünya müharibəsi illərində ........ 72

**MÖVZU 14.** Şimali Azərbaycan Fevral inqilabından sonra ........ 88

**MÖVZU 15.** Mədəniyyət ..... 92
**MÖVZU 16.** Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti ..... 95
**MÖVZU 17.** Azərbaycan Xalq Cümhuriyyəti (birinci saat) ..... 99
**MÖVZU 17.** Azərbaycan Xalq Cümhuriyyəti (ikinci saat) ..... 102
**MÖVZU 17.** Azərbaycan Xalq Cümhuriyyəti (üçüncü saat) ..... 105
**MÖVZU 17.** Azərbaycan Xalq Cümhuriyyəti (dördüncü saat) ..... 108
**MÖVZU 17.** Azərbaycan Xalq Cümhuriyyəti (beşinci saat) ..... 111
**MÖVZU 18.** Cənubi Azərbaycanda milli azadlıq hərəkatı ..... 113
**MÖVZU 19.** Azərbaycan SSR-in yaradılması ..... 116
**MÖVZU 20.** “Müstəqil Sovet Azərbaycanı” şüarının iflası ..... 119
**MÖVZU 21.** Azərbaycan SSR-də həyata keçirilən iqtisadi, siyasi və mədəni tədbirlər (birinci saat) ..... 122
**MÖVZU 21.** Azərbaycan SSR-də həyata keçirilən iqtisadi, siyasi və mədəni tədbirlər (ikinci saat) ..... 125
**MÖVZU 22.** Azərbaycan SSR İkinci dünya müharibəsi illərində (birinci saat) ..... 127
**MÖVZU 22.** Azərbaycan SSR İkinci dünya müharibəsi illərində (ikinci saat) ..... 130
**MÖVZU 23.** Cənubi Azərbaycanda milli azadlıq hərəkatı ..... 131
**MÖVZU 24.** Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə ..... 135
**MÖVZU 25.** Azərbaycan SSR 1970–80-ci illərdə ..... 139
**MÖVZU 26.** Yenidənqurma siyasəti. Qarabağ münaqişəsinin başlanması ..... 142
**MÖVZU 27.** İran İslam inqilabı və Cənubi Azərbaycan ..... 146
**MÖVZU 28.** Mədəniyyət ..... 150
**MÖVZU 29.** Dövlət müstəqilliyinin bərpası ..... 153
**MÖVZU 30.** Birinci Qarabağ müharibəsi (birinci saat) ..... 156
**MÖVZU 30.** Birinci Qarabağ müharibəsi (ikinci saat) ..... 159
**MÖVZU 31.** Qurtuluş hərəkatı ..... 163
**MÖVZU 32.** Dövlət quruculuğu tədbirləri. Sosial-iqtisadi islahatlar ..... 167
**MÖVZU 33.** Azərbaycan Respublikasının xarici siyasəti ..... 170
**MÖVZU 34.** Azərbaycan Respublikası yeni inkişaf yolunda ..... 174
**MÖVZU 35.** Cəbhə xəttində toqquşmalar. Dörd günlük müharibə ..... 178
**MÖVZU 36.** Xarici siyasətdə uğurlar ..... 181
**MÖVZU 37.** Vətən müharibəsi (birinci saat) ..... 184
**MÖVZU 37.** Vətən müharibəsi (ikinci saat) ..... 187
**MÖVZU 37.** Vətən müharibəsi (üçüncü saat) ..... 188
**MÖVZU 38.** Qarabağda quruculuq. Böyük qayıdışın ilk addımları ..... 190
**MÖVZU 39.** Mədəniyyət ..... 193

Xəritələr ..... 195

# AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ

## 9-CU SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN KONSEPSİYASI

### Ümumi müddəalar

Hazırda bəşəriyyət dördüncü sənaye çevrilişi hesab edilən yeni bir mərhələyə qədəm qoymuşdur. Texnologiyaların sürətli inkişafı, əldə edilən nailiyyətlər, insan faktorunun daha da önə çəkilməsi təhsil sahəsində də yeni çağırışları zəruri edir. Müasir dövrün gerçəklikləri ilə ayaqlaşan, müvafiq bacarıqlara və vərdişlərə malik şəxsiyyətin, nəslin yetişdirilməsi təhsil sisteminin qarşısında duran əsas vəzifələrdəndir.

Yeni çağırışlar, dövrün tələbləri Azərbaycan tarixi fənninin tədrisində də nəzərə alınmalıdır. Tarix hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də bu fənnin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu istiqamətdə ən vacib amillərdən biri də tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımından təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olmasına nail olmaqdır. Bu modelin əsasında tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayış və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə gələcəkdə istifadə edə biləcəyi müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir:

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqələrini təsbit etmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimatlar hazırlamaq.

**Azərbaycan tarixi fənninin tədrisinin ümumi məqsədləri:**

Azərbaycan tarixi ölkəmizin ərazisində uzaq və yaxın keçmişdə yaşamış insanların həyatını, onların həyatında baş verən hadisələri və dəyişiklikləri səbəb-nəticə əlaqəsində öyrənən elmdir. Onun bir fənn kimi ümumi təhsil müəssisələrində öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Bu fənnin ümumi təhsil müəssisələrində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrinə, milli-mənəvi

dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir.

Azərbaycan tarixi fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasında mühüm rol oynayır.

Bu fənnin tədrisi şagirdlərdə xalqımızın dövlət qurma bacarığını dəyərləndirməyə, müstəqil dövlətə malik olmanın əhəmiyyətini anlamağa daha geniş imkanlar yaradır. Şagirdlər tariximizi öyrəndikcə Azərbaycanın dünyadakı mövqeyini, yerləşdiyimiz coğrafiyanın özünəməxsus xüsusiyyətlərini, geosiyasi reallıqları, dövlətlərimizin və tarixi şəxsiyyətlərimizin Azərbaycanda və regionumuzdakı rolunu, həmçinin xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi töhfələri olduğu kimi dəyərləndirmə bacarığına yiyələnir.

Azərbaycan tarixi fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi **nəticə yönümlülük**:

1. Şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir;
2. Şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir, təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.
3. Ümumi təhsil müəssisələrində Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir. Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir:
   - tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;
   - milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
   - dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;
   - vətənin tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;

- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımından inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

Deyilənləri nəzərə alaraq, tarixçi düşüncəsinin necə olduğuna, qavrama prosesində hansı dəyişikliklərin olmasına dair, tarixin tədrisi zamanı əsas bacarıq və fəaliyyət sahələrini özündə əks etdirən interaktiv sxemi sizə təqdim edirik.




**9-cu siniflər üçün Azərbaycan tarixi dərsliyinin yenidən tərtib edilməsində başlıca məqsədlər:**

- Dərsliyin yeni təhsil proqramının (kurikulum) standartlarına uyğunlaşdırılması;
- Tariximizə ümumi baxış formalaşdırıb inkişaf etdirilməsi;
- Şagirdlərin yaş səviyyəsinə uyğun olmayan faktoloji materialların azaldılması, dərsliyin sadələşdirilməsi, şagirdlər üçün daha maraqlı və oxunaqlı vəziyyətə gətirilməsi;
- Dərsliyin həcminin optimallaşdırılması, aktual olmayan mövzuların çıxarılması;
- Şəkillər, illüstrasiyalar əsasında sadə tədqiqat imkanı yaradılması;
- Mövzularla bağlı tarixi xəritələrdən istifadənin öyrədilməsi;
- Tarixi hadisələrin xronoloji əsasda təsvir edilib qiymətləndirilməsi;
- Tarixi məkana görə sivilizasiyaların formalaşmasında, dünya mədəniyyəti və incəsənətinin inkişafında Azərbaycanın mövqeyini şərh edib, nəticələrinin təqdim edilməsi;
- Şagirdlərdə azərbaycançılıq anlayışının formalaşdırılması və inkişaf etdirilməsi, ölkənin multikultural ənənələrinin öyrədilməsi;

- Azərbaycanda dövlətçilik ənənələrinin yaranması və inkişafı xüsusiyyətlərinin qiymətləndirilməsi;
- Azərbaycanın dünyadakı mövqeyi və rolunu və dünyanın ölkəmizə baxışını dəyərləndirməyə imkan verən mövzulara yer verilməsi;
- Tarixi şəxsiyyətlərin dövr baxımından qiymətləndirilməsi;
- Mənbələri araşdırmaqla Azərbaycan dövlətləri, görkəmli şəxsiyyətlərinə dair materiallar toplayıb təqdim edilməsi;
- Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparıb, nəticələrinin təqdim edilməsi.

Yuxarıda göstərilən şərtlər əsasında şagirdlərə Azərbaycan tarixini yaş səviyyəsinə uyğun şəkildə öyrənməyə imkan verən bir dərslik tərtib etmək qarşıya qoyulan başlıca məqsəddir.

**Təlim prosesində oxunun rolu**

Şagirdlərin oxu bacarıqlarını necə yüksəltmək olar? Məlumdur ki, bunun yolu uşaqları ardıcıl şəkildə oxu ilə məşğul edib məktəbin digər fəaliyyətlərindən təcrid etməkdə deyil. Nə də şagirdləri kitabxanaya göndərməklə buna nail olmaq mümkün olmur. Müəllimlər bir məsələni qəbul etməlidir ki, şagirdlərə oxumağı öyrətmək yalnız Azərbaycan dili müəllimlərinin vəzifəsi hesab edilə bilməz. Hər bir fənn müəllimi öz fənni üzrə mətnlərin oxu texnikasını uşaqlara mənimsətməli və onları inandırmalıdır ki, strategiyalı oxu yalnız fənnin daha yaxşı təliminə xidmət göstərməyəcək, həm də yaşadıqları bu mürəkkəb həyatda uğura nail olmasını təmin edəcək.

Təlimi oxudan kənarda təsəvvür etmək qeyri-mümkündür. Odur ki müvafiq strategiyalardan, metod və üsullardan istifadə etmək və mətnin oxusunun düzgün təşkilinə nail olmaqla şagird fəaliyyətinin məhsuldarlığının artırılmasına və oxu üzrə təlim nəticələrinin yüksəldilməsinə geniş imkanlar yaradılır. Şagirdlərin strategiyalı oxusu anlayaraq, dərk edərək təşkil edilmiş oxuya cəlb olunmasıdır.

Strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi mütəxəssislər hesab edirlər ki, strategiyalı oxu – düşünərək oxudur. Bəziləri isə strategiyalı oxunun şagirdə daha məharətlə düşünməyi öyrətdiyini güman edirlər. Üçüncülər isə hesab edirlər ki, strategiyalı oxu təhsilin məqsədidir, yəni oxu təlimə, tətbiqə və təhlilə aparan əsas yoldur. Bununla oxucu çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və onlardan həyati problemlərin həllində bəhrələnmək kimi bacarıqlara yiyələnir. Bütün bunlardan çıxış edərək mütəxəssislər strategiyalı oxunu üç mərhələdə təsnif etmişlər:

- Strategiyalı oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Yəni onlar oxu üçün təqdim olunan mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problemi həlletmə forması kimi dəyərləndirir, məqsədə nail olmaq üçün fəaliyyətini düşünülmüş şəkildə təşkil edir. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagirdlər gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür etsinlər. Onlar dəqiq bilirlər:

  – Hansı suallar cavablandırılmalıdı?
  
  – Hansı plana əsasən oxu təşkil edilməlidir?

– Bu haqda artıq nələri bilirlər?
– Uğura nail olmaq üçün nələr etmək lazımdır?

- Strategiyalı oxu şagirdlərə müstəqil olaraq öz oxu nəticəsini yoxlama imkanı verir. Şagirdlər oxu zamanı gəldiyi qənaətlər barədə düşünürlər. Bu onlarda mühüm idraki bacarıqları inkişaf etdirir: əsas məsələnin aşkar olunması, oxudan əvvəl mövcud biliklərlə əlaqələndirilməsi, digər mətn materialları ilə müqayisə aparılması, mətnin ssenarisinə uyğun xəyalların qurulması… Bu, təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə atılan ilk addım kimi dəyərləndirilə bilər. Bu zaman şagirdlər yalnız mətndəki mənanı dərk etmir, həm də mənanın dərk edilməsi prosesini şüurlu şəkildə qavrayırlar.
- Strategiyalı oxu materialları əsasında oxunun təşkili, idarə edilməsi və nəticənin qiymətləndirilməsi mərhələsindən sonra məzmundan əldə edilən qənaətlərin müxtəlif həyati problem və tapşırıqların həllində istifadə edilməsində və şagirdin dünyagörüşünün zənginləşdirilməsinə xidmət edən vasitə kimi dəyərləndirilə bilər.

Yuxarıda göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, strategiyalı oxu “oxu qaydaları”nın praktik tətbiqi ilə düşünmə mühitinin yaradılması deməkdir.

**Şagirdyönümlü sinfin yaradılması.** Təhsildə şagirdyönümlülük strategiyalı oxuların inkşafında xüsusilə əhəmiyyətli məsələdir. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər zehnlərindən ilkin düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Hər fənn üzrə oxunun özünəməxsus cəhətləri olduğundan şagirdlərə öncə fənlər üzrə materialları oxumağın yolları mənimsədilməlidir. Müəllimlər uşaqlara, sadəcə, “Kitablarınızı açın və mətni oxuyun!” deməməli, onları oxudan əvvəl, oxu zamanı və oxudan sonra mühüm təlim strategiyalarının tətbiqinə istiqamətləndirməlidir.

Şagirdyönümlü sinifdə təlimin səmərəliliyinə nail olunmasında öyrənənlərin mətnlə, başqa şagirdlərlə, müəllimlə qarşılıqlı fəaliyyəti böyük əhəmiyyət daşıyır. Təlimin təşkilində müəllimin vəzifəsi yeni prizmadan təqdim edilir. Müəllim şagirdin əvəzinə mətnin məzmununu başa düşə bilməz. Şagird bunu özü etməlidir. Tədqiqatlar göstərir ki, şagirdyönümlü sinifdə müəllim mühüm səkkiz prinsipə əsaslanmaqla təlimi təşkil edirsə, bu zaman təlim üçün məsuliyyətli şagirdlərin öz üzərinə götürməsinə şərait yaratmış və onları mühüm vəsaitlərlə təmin etmiş olur.

Tədqiqatçılar strategiyalı oxunun səkkiz prinsipini müəyyənləşdirmişlər. Belə ki strategiyalı öyrənən:

1) idraki və yüksək idraki bacarıqları əlaqələndirir;
2) məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür;
3) yeni məlumatları mövcud bilikləri ilə əlaqələndirir;
4) mətnin mənasının dərk edilməsində fəal iştirak edir;
5) təşkilati işarələrdən istifadə edir;
6) fərdi oxu üslubunu faydalı hesab edir;
7) təlim zamanı özgələri ilə əməkdaşlıq edir;
8) düşünmənin üç mərhələsinə cəlb edilir.

**1. Strategiyalı oxucu idraki (koqnitiv) və yüksək idraki (metakoqnitiv) bacarıqları əlaqələndirir.**

Yüksək idraki bacarıqlara malik olan şəxs bu bacarıqları nəzarətdə saxlayır. Strategiyalı oxucu avtomatik olaraq təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra baş verən idraki bacarıqları bir-biri ilə əlaqələndirir. Şagird əvvəl mövcud bilikləri üzərində düşünür, sonra bilik və bacarıqlarını genişləndirir. Strategiyalı öyrənən təlim zamanı problemi görür və strategiyalardan istifadə edərək onları aradan qaldırır.

Strategiyalı oxucu oxu zamanı strategiyalardan düşünərək istifadə edir. Mətnin hər hansı hissəsini dərk edə bilməyən şagird bələd olduğu oxu strategiyalarını tətbiq edərək həmin hissənin mənimsənilməsinə nail olur. Məsələn, “Ucadan düşünmək” strategiyası mürəkkəb mətnlərin məzmununun dərk olunması üçün çox faydalıdır. Şagirdlərin “Oxudan əvvəl mülahizələr yürütdüm”, “Oxu zamanı özümə suallar verdim”, “Mətnin hissələri arasında əlaqələr yaratdım” kimi fikirləri onların yüksək idraki bacarıqlarından istifadə etdiklərindən xəbər verir. Ümumiləşdirmək, sual vermək, mətndən nəticə çıxarmaq və yekunlaşdırmaq kimi bacarıqlar metokoqnitiv bacarıqlardır. Şagirdlər metakoqnitiv bacarıqları nə qədər çox istifadə edirlərsə, təlim materiallarını o qədər tez mənimsəyirlər.

**2. Strategiyalı oxucu məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür.**

Strategiyalı öyrədənlər məqsədlərini müəyyənləşdirməyi bacarırlar və öz təlimlərini idarə edirlər. Onlar bilirlər ki, məqsədini müəyyənləşdirən öyrənənlər həyatda daha çox müvəffəqiyyət qazananlardır. Məqsədlərini dəqiq müəyyənləşdirən insanın həmin tapşırığı yerinə yetirmək ehtimalı yüksəkdir, yəni məqsədlər nə qədər dəqiq olarsa, tapşırıqlarında keyfiyyət o qədər yüksək alınar.

Məqsədin müəyyənləşməsində seçmək bacarığı mühüm amildir. Şagirdlər dəqiq biləndə ki, əsas fikri nəyə yönəltməlidirlər, tapşırıqların icrasını daha maraqla və ruh yüksəkliyi ilə həyata keçirir, sərf olunan səyləri ilə nəticələr arasında əlaqəni görürlər. Məqsədlərə o zaman nail olunur ki, strategiyalı öyrənənlər öz inkişafları üzərində ardıcıl şəkildə işləyir, lazım gəldikdə müvafiq düzəlişlər edirlər.

Strategiyalı oxucular məqsədi müəyyənləşdirdikdən sonra oxu fəaliyyətinə başlayır, nəyin necə oxunmasının səmərəli olduğunu aydınlaşdırırlar. Bu zaman BİBÖ və digər məqsədləri müəyyənləşdirmə strategiyaları intensiv şəkildə istifadə edilir. Kollektiv sinif əməkdaşlıq şəraitində oxuya şərait yaradır. Şagirdlər təlim qrupunun üzvü olduqda onların təlim prosesində iştitrakı daha da fəallaşır.

**3. Strategiyalı oxucu yeni məlumatları mövcud biliklərlə əlaqələndirir.**

İstənilən yeni təlim ilkin biliklərə əsaslanır. İlkin biliklər öyrənənin mövzu baxımından bildiyi və tətbiq etdiyi bütün məsələlərlə əlaqələndirilir.

Strategiyalı oxucular avtomatik olaraq mövcud biliklərini oxu materialı ilə bağlayırlar. Onlar bilirlər ki, oxunun əsasını hansı ilkin təcrübələr təşkil edir. Bilmək oxunun məqsədi olub, oxu müddətində diqqəti istiqamətləndirir. İlkin bilikləri qiymətləndirmək oxucunun diqqətinin ən mühüm məsələlərə yönəldilməsində mühüm rol oynayır. İlkin biliklərin oxunan mətnin başa düşülməsində böyük rolu olduğundan şagirdlər

mövcud biliklərini qiymətləndirməyin yollarına da bələd olmalıdırlar. Bunun üçün bir çox strategiyalar mövcuddur. Bunlardan "Anlayışları müəyyənləşdirmək üçün xəritə tərtib etmək" strategiyası diqqəti cəlb edir. Bu strategiya yeni sözlərin mənasını öyrənməkdə çox yararlıdır.

Məsələn,




Əgər oxucu öz ehtiyacına cavab verən strategiyanı düzgün seçib tətbiq edirsə, deməli, o, strategiyalı oxucudur.

**4. Strategiyalı oxucu mətnin mənasının dərk edilməsində fəal iştirak edir.**

Məna müəllimin yazılı izahı və ya mətn kimi başa düşülməməlidir. Məna dinlənilən və ya oxunulan məlumatlarla qarşılıqlı fəaliyyət əsasında yaranır. Əhəmiyyətsiz məlumat tezliklə unudulur.

Mənanı dərk etməyə yönəldən nədir? Şagird təlim materialının öyrənilməsində maraqlı olanda və ya hər hansı məlumatı almağa ehtiyac duyanda mənanı dərk edir. Oxucu mənanı dərk etmək üçün məzmunu əlaqələndirməli, nəticə çıxarmalı və məzmunla bağlı şərhlər verməlidir. Strategiyalı oxucular bilirlər ki, suallar tərtib etmək, məsələ haqqında digərləri ilə söhbət etmək və düşündürücü yazılar yazmaq mənanı dərk etməyin yollarıdır. Oxu – mətn vasitəsilə düşünmək deməkdir. Oxucu mətnlə qarşılıqlı fəaliyyət nəticəsində mənanı dərk edir. Bu, əlb əttə ki, yazılmış işarələrin üzərinə göz gəzdirmək deyil. Hər bir oxucu oxuduğu materialdan anladığı mənanı yazıçının yazdığı və ya nəzərdə tutduğu məna ilə müqayisə edir. Bu zaman mənanın dərk edilməsi üçün ilkin biliklər cəlb olunur və müvafiq strategiyalardan istifadə edilir. Strategiyalı oxucu intensiv olaraq bacarıq və strategiyaların köməyi ilə mənanı başa düşür. Məsələn strategiyalı oxucu oxudan əvvəl bütün ilkin biliklərini səfərbər edir. Məlumatlarla rastlaşdıqca bu haqda fikirlərini başqaları ilə müzakirəyə çıxarır. Aydın olmayan və sual doğuran fikirlərlə bağlı kitaba bənd etdikləri vərəqlərdə qeydlər aparır.

**5. Strategiyalı oxucu mətnin təşkili quruluşundan istifadə edir.**

Strategiyalı oxucu bilir ki, düşünmək və öyrənmək üçün məlumatların təşkil edilməsi mühüm şərtdir. O, təşkilati quruluşdan istifadə edərək fikirlərini həm konsepsiyalar, həm də yazılmış mətn şəklində formalaşdırmağın yollarını öyrənir. Məsələn, strategiyalı oxucu, Venn diaqramında verildiyi kimi, oxşarlıqları və fərqləri müəyyən edə bilər.

Şagirdlərə quruluşdan, strukturdan düzgün istifadənin yolları öyrədiləndə məlumatların yaddaşda mühafizəsinin təşkilinin keyfiyyəti də yüksəlir. Müəllim müxtəlif təşkilati işarələrdən düzgün istifadə etməyi nümunələr əsasında ardıcıl olaraq göstərəndə şagirdlər onu məqsədyönlü düşünmək, məlumatları qiymətləndirmək, yadda saxlamaq, fərqli şəraitlərdə istifadə etmək sistemi kimi qavrayırlar.

Oxu zamanı mətnin quruluşunu müəyyən etmək çox faydalıdır. Məlumatlandırıcı və hekayə xarakterli mətnlərin quruluşu fərqli olduğu kimi, bu, fərqli düşünmə tərzi də tələb edir. Hekayə xarakterli mətnləri oxuyarkən oxucu hekayənin başlanğıc, əsas hissə və nəticəsi kimi hissələri ilə bağlı məlumatlar alır. Məlumatlandırıcı mətn isə əsasən:

- səbəb
- müqayisə etmək
- anlamaq
- məqsəd
- problem
- sübut etmək
- ardıcıllıq

tələb edir.

Hər təşkilati strukturun unikal xüsusiyyəti var və düşünməni də fərqli yollarla təşkil edir. Bu strukturlarla tanışlıq yeni anlayışların öyrənilməsini maksimum dərəcədə yüksəldir. Bəzən mətnlər struktur baxımından zəif və qeyri-mütəşəkkil olduğundan oxucuların onu anlaması çətinləşir. Belə mətnlərin oxusu və dərk edilməsi üçün şagirdlər həmin materialların təşkili strukturunu müəyyən etməyin və məzmunu aydınlaşdırmağın yollarını bilməlidirlər. Strategiyalardan istifadə etməklə, oxucular, hətta ən zəif təşkil olunmuş mətnin strukturunu belə müəyyənləşdirə bilirlər.

**6. Strategiyalı oxucu fərdi oxu üslubunu faydalı hesab edir.**

Öyrənmə arzusu və bacarığı yaranışdan insanların xislətində olan xüsusiyyətlərdir. Lakin oxucuların öyrənmə üslubları fərqlidir. Bəzi şagirdlər mənzərəni dəqiqliklə təsəvvür edərək məsələni bütövlükdə, digərləri isə problemi kiçik hissələrə ayıraraq dərk edirlər.

Hovard Qardner dərketmənin müxtəlif növlərini tədrisin təşkilində əhəmiyyətli hesab edir. O inanır ki, hər bir şagird müəyyən qabiliyyətlərə malikdir və müəllim həmin qabiliyyəti aşkarlayaraq təlimi müvafiq şəkildə təşkil etməlidir. Bəzi şagirdlər Tədqiqatların nəticələri haqqında yazmağa, digərləri isə şifahi təqdimatlar etməyə üstünlük verirlər. Eləələri də var ki, problemlə bağlı şeir yazmağı, mahnı bəstələmyi və ya film çəkməyi xoşlayır. Təlim zamanı dərketmənin bütün imkanlarının nəzərə alınması öyrənənlərin müvəffəqiyyəti ilə nəticələnir. İnsanlar müxtəlif olduğu kimi, onların öyrənmə tərzi, öyrənmənin təşkili və bilikləri nümayiş etdirmə yolları da fərqlidir.

Hər kəs bu haqda düşünə bilər: “Mən necə oxuyacam?”, “Mən hansı şəraitdə oxumağı sevirəm?”, “Mən hansı vərdişlərə sahibəm?”. Siz söz, fikir və obrazlar haqqında götür-qoy edərək oxuyursunuz, ya oxuduğunuzu bir film kimi təsəvvür edirsiniz? Bəlkə də, sürətlə oxuyursunuz, fikirləri çevik müəyyənləşdirərək irəliləyirsiniz?

Kinestik oxucular aramla və mətni emosional şəkildə əlaqələndirməklə oxuyurlar. Onlar oxu zamanı bədənlərini hərəkətə gətirir və barmaqları ilə izləməyi xoşlayırlar. Sətiraltı əsas fikirlərə böyük əhəmiyyət vermək və yapışqanlı qeyd vərəqlərindən istifadə etmək kinestik oxucuların əsas göstəricisidir.

Vizual intellekti yüksək olan oxucular oxuduqlarını film kimi yadda saxlayırlar və ya mövcud biliklərindən istifadə edərkən xəyallarındakı filmləri sözlərlə ifadə edirlər. Bu oxucular oxuduqlarını sxem və ya qrafiklər şəklində də yaddaşlarında mühafizə edirlər.

Dinləmə intellekti yüksək olan oxucular, əsasən, sürətli oxucular kimi səciyyələnirlər və materialları ucadan təkrar-təkrar oxumağı sevirlər. Onlar məlumatları tez fəhm edir və suallara çevik cavab verirlər.

Bütün bunlar yalnız şagirdlərin öyrənmə üslubu haqqında məlumatlı olması deyil, həm də oxu zamanı onlara köməyin təşkil edilməsi üçün yararlıdır. Müxtəlif oxu üslublarının modelləşdirilməsi, şagirdlərə oxu zamanı boyalardan istifadə etməyə şəraitin yaradılması strategiyalı oxucuların formalaşması istiqamətində görülən mühüm işlərdir. Boyalardan istifadə etməyin yolunu, qrafiklər hazırlamağı, təlim materiallarını ucadan oxumağı şagirdlərə öyrətmək onların oxu bacarıqlarını yüksəldir. Mürəkkəb mətnlərin oxusu zamanı anlamaq məqsədinə nail olmaq üçün müxtəlif strategiyalardan istifadə etməklə şagirdlər daha da təkmilləşirlər.

**7. Strategiyalı oxucu öyrənmək üçün başqaları ilə əməkdaşlıq edir.**

Təlim ictimai baxımdan fəaliyyətdir və şagirdlər öyrənmək məqsədilə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olmağa ehtiyac duyurlar. Qrup fəaliyyətləri təlimin təşkilində böyük əhəmiyyət daşıyır. Həyatda da insanların birlikdə fəaliyyət göstərməsinə tez-tez ehtiyac duyulur. Birlikdə çalışan şagirdlər bu cür fəaliyyətdən necə faydalanırlar?

- Mövzu ilə bağlı düşünməyin müxtəlif yollarını aşkar edirlər;
- Mürəkkəb tapşırıqların yerinə yetirilməsində bir-birinə kömək göstərirlər;
- Başqa şagirdləri hörmətlə dinləməyi öyrənir və eşitdikləri fikirlərdən yararlanırlar;
- Qarşılıqlı şəkildə faydalanmağın yollarını aşkar edirlər;
- Məsələ ilə bağlı rəylərini dəlillərlə müdafiə, eləcə də müxtəlif baxışları təsdiq etməyi öyrənirlər.

Əməkdaşlıq təlimini əhatə edən siniflərdə şagirdlər öyrənən icmaların üzvünə çevrilirlər. Bir yerdə işləyərkən onlar bir-birinin fikrinə hörmətlə yanaşmağı və qarşılıqlı şəkildə bəhrələnməyi mənimsəyirlər. Strategiyalı öyrənənlər mətnin kəsb etdiyi məzmunu fərdi və qrup şəklində müəyyənləşdirirlər. Onlar bir-biri ilə əməkdaşlıq edərkən müəllifin fikirlərini anlamaqla yanaşı, dünyagörüşlərinin də formalaşmasına nail olurlar.

Şagirdlərə qruplarda təlimi öyrətmək çox əhəmiyyətlidir. Onlar digərlərinin təlimində iştirak edəndə öz təlimləri üçün də böyük məsuliyyət daşımağa başlayırlar. Çünki hər hansı bir məsələni kiməsə öyrədəndən sonra insanın özünə daha aydın olur. Strategiya, əsasən, şagirdlərdən biri ucadan oxuyur, digəri isə onu dinləyir və oxunanları ümumiləşdirir. Mətnin oxusu başa çatdıqdan sonra cütlər vəzifələrini dəyişirlər. Digər "Kitab müzakirələri" strategiyalarına əsasən isə şagirdlər qruplarda oxuduqları kiçik və ya böyük mətnləri, eləcə də kitabları müzakirə edirlər. Müzakirə zamanı onlar məzmunu daha yaxşı anlayır, biliklərini digər şagirdlərin bilikləri ilə müqayisə edir, qiymətləndirirlər.

**8. Strategiyalı oxu şagirdi üç mərhələyə cəlb edir.**

Uğurlu təlim düşünmənin üç mərhələsində baş verir: təlimdən əvvəl, təlim prosesi zamanı və təlimdən sonra.

I – "Planlaşdırma mərhələsi" beyni təlimə hazırlayır.

II – "Qarşılıqlı fəaliyyət mərhələsi" təlim zamanı düşünərək yadda saxlamağı təmin edir.

III – "Düşünmə mərhələsi" təlimdən sonra inteqrasiya edir, əlaqələndirir və fikirləri tətbiq edir.

Planlaşdırma mərhələsi təlimin ilk addımı olduğundan ən məsuliyyətli mərhələdir. Öyrənən tapşırığı təhlil edib təlimin daha səmərəli təşkili üçün planlaşma aparır. İlkin hazırlıq nə qədər keyfiyyətli olarsa, şagirdin uğuru da o qədər yüksək olar.

"Təlim prosesi" mərhələsi şagirdlərin düşünməsini və təliminin nəticələrinin qiymətləndirməsini təmin edən metokoqnitiv (yüksək idraki) strategiyaların tətbiqini tələb edir. Şagird təlim zamanı düşünməni təmin edən qrafiklər tərtib edir və ya icmal hazırlayır. Bu vaxt müəllim nümayiş etdirilən filmi, aparılan təcrübəni saxlamaqla şagirdlərin diqqətini xüsusi məqamlara yönəldə bilər. İnformasiyalardan birini və ən mühümünü vurğulamaq üçün təlim prosesində şagirdləri saxlamaq, yoxlamaq, bilikləri möhkəmləndirmək və ümumiləşdirmək çox əhəmiyyətlidir.

"Təlimdən sonra" mərhələsində tətbiq edilən strategiyalar təlimdən sonra şagirdin düşünməsinin təşkilinə yönəldilir. Bu mərhələdə nail olunan nəticələrin təhlil və müqayisəsi, məsələ ilə bağlı şagirdlərin daha əhatəli düşünməsi, qənaətlərin ümumiləşdirilməsi əsas məqsəd kimi dəyərləndirilir.

Strategiyalı oxucular təlimin bu üç mərhələsi ilə yalnız tanış olmur, həm də onları oxu zamanı tətbiq edirlər. Onlar bilməlidirlər ki, oxu materialı oxudan əvvəl lazımi fəaliyyətlər yerinə yetiriləndə daha yaxşı dərk edilir. Təlim o zaman başlayır ki, oxucu məqsədi müəyyənləşdirsin, ilkin biliklərini təşkil etsin və təlimlə bağlı proqnozlaşdırma aparsın.

Strategiyalı oxucular bilirlər ki, oxunun interaktiv mərhələsi şagirdlərin oxu materialı ilə bağlı fikirlərinin yoxlanması və nizamlanması deməkdir və bu, dərketmənin yüksəldilməsinə xidmət edir. Əgər hər hansı parça anlaşıqlı deyilsə, şagirdlər oxunu saxlayır, həmin hissəni yenidən, aramla və ya ucadan oxuyur, kənarda sadə qələmlə qeydlər edirlər.

Şagirdləri oxuduqları materiallarla bağlı suallar verməyə istiqamətləndirmək təlim prosesinin nizamlanmasında onlara kömək edir. Oxu zamanı yeni öyrənilmiş məsələləri artıq bilinən və ya proqnozlaşdırılan məsələlərlə müqayisə etmək imkanları yaranır. Strategiyalı oxucu təlim prosesinin əngəlləndiyi məqamı hiss edir və problemi aradan qaldırmağın yollarını bilir.

Amerika pedaqoqu Con Dyui demişdir: "Biz gördüyümüz işlər haqqında düşünən zaman öyrənirik". Strategiyalı oxucular oxuduqları materiallar üzərində düşünür, məqsədə çatıb-çatmadıqları haqqında qərarlar qəbul edir, tapşırığı yerinə yetirir, əldə edilmiş yeni bilikləri mövcud biliklərlə əlaqələndirir.

Oxu prosesinin istiqamətləndirilməsi üçün təlimin göstərilən səkkiz prinsipinin düşünülmüş şəkildə əlaqələndirilməsindən şagirdlər əhəmiyyətli dərəcədə faydalana və strategiyalı oxuculara çevrilə bilərlər.

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı vasitədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmazdır. Bu sistem hüquqi cəhətdən "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (*məktəbdaxili qiymətləndirmənin*) aparılması Qaydası ilə tənzimlənmişdir.

Qiymətləndirmənin ən əhəmiyyətli növü məktəbdaxili qiymətləndirmədir. Məktəbdaxili qiymətləndirmə məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

**Qiymətləndirmənin planlaşdırılması**

Qiymətləndirmənin planlaşdırılması müxtəlif amillər üzrə həyata keçirilə bilər. Məsələn:

1. Təlim nəticələrinə görə (formativ qiymətləndirmə);
2. Sərf olunacaq zamana görə (formativ qiymətləndirmə);
3. Hazırlanan alətin xüsusiyyətinə görə (formativ qiymətləndirmə);
4. Qiymətləndiriləcək şagirdin sayına görə (formativ qiymətləndirmə);
5. Nəticələr qeyd olunacaq, yoxsa yox (formativ qiymətləndirmə) və s.

Məktəbdaxili qiymətləndirməni başlayarkən müəllim, ilk növbədə, onu nə məqsədlə həyata keçirməsini aydınlaşdırmalıdır.

- *Şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək;*
- *Şagirdlərin təlim ehtiyaclarını öyrənmək;*
- *Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat toplamaq;*
- *Şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqlara nail olması üçün onun fəaliyyətini izləmək və irəliləyişini müəyyən etmək;*
- *Şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişiklikləri aparmaq;*
- *Tədris prosesini düzgün istiqamətləndirmək və səmərəliliyini təmin etmək;*

- *Şagirdin ayrı-ayrı mövzu və bəhslərin mənimsənilməsi ilə bağlı fəaliyyəti barədə məlumat toplamaq;*
- *Şagirdin kurikulum standartlarına nail olmasının səviyyəsini müəyyənləşdirmək;*
- *Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək.*

Məqsədlərin müəyyənləşdirilməsi nəticəsində hansı növ qiymətləndirmənin aparılması məsələsi üzrə qərarın çıxarılması mümkün olur: diaqnostik, formativ və ya summativ qiymətləndirmə. Sonra tələb olunan qiymətləndirmənin növünü nəzərə alaraq aşağıda təqdim edilən yanaşmada əks olunan məsələlərin planlaşdırılmasına başlanılır.

Məktəbdaxili qiymətləndirmə, əsasən, 3 planlaşdırma məsələlərini (aspektləri) özündə cəmləşdirən prosesdir:

**A.** Qiymətləndirmənin məzmun aspekti:
1. Nəyi qiymətləndiririk (standartlar, təlim nəticələri, qiymətləndirmə standartları)?
2. Nəyin əsasında (meyar və göstəricilər)?

**B.** Qiymətləndirmənin fəaliyyət aspekti:
1. Hansı tapşırıqlar əsasında (Blum taksonomiyasını nəzərə alaraq)?
2. Hansı alətlərlə (metod/texnikalar və vasitələr) və hansı formada (fərdi, cütlərdə, kiçik qrupda, bütün sinifdə)?
3. Kim tərəfindən (müəllim, rəhbərlik və ya şagirdlər tərəfindən qiymətləndirmə, şagirdin özünüqiymətləndirməsi daxil olmaqla)?

**C.** Qiymətləndirmənin təşkili aspekti:
1. Nə zaman (məsələn, tədris vahidinin əvvəlində, dərs zamanı, bəhs və ya bölmə, yarımilin sonunda)?
2. Nəticələr harada və necə qeyd olunacaq (şagirdin portfoliosunda (faylda) şagird kitabçasında, dəftərində, sinif jurnalında və s. sözlərlə (rəy), rəqəmlərlə (qiymət, səviyyə)?
3. Qiymətləndirmənin nəticələri necə istifadə olunacaq, nəyə təsir edəcək? (hansı müəllim və ya şagird fəaliyyətinin seçilməsinə təsir edəcək, şagirdin hansı nailiyyətinə təsir göstərəcək, kimə çatdırılacaq (şagirdə, valideynə, rəhbərliyə), hansı sənədlərin tərkibində istifadə olunacaq).

Bu aspektlər aşağıdakı bölmələrdə daha ətraflı əks olunacaq və hər bir aspektin təsviri addım-addım bu prosesin gedişatını izah edəcəkdir. Bunu sadələşdirmək üçün müəllimin bu sahədə bacarığını formalaşdırmaq məqsədilə hər bir aspektə müvafiq olan alətlər (çərçivələr) təklif olunacaq. Bu çərçivələr, sadəcə, öyrədici xarakter daşıyır, heç bir rəsmi sənəd statusu yoxdur. Gözlənilir ki, onların əsasında müəllim məktəbdaxili qiymətləndirmə prosesini daha aydın təsvir edərək və həyata keçirmə bacarıqları qazanaraq onu daha səmərəli və obyektiv təşkil edə bilər.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:**

- Təlim nəticələrinin standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdin güclü və zəif cəhətlərini müəyyən etmək;

- Şagird nailiyyətini dəyərləndirmək;
- Şagirdin nəyə nail olduğuna əmin olmaq;
- Şagirdin gələcək uğurlarını maksimallaşdırmaq.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növü üzrə həyata keçirilir:

- diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi);
- formativ (irəliləmə və geriləmələrin izlənməsi);
- summativ (yekun).

**Diaqnostik qiymətləndirmə**

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirməklə müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. O, öyrədənin təlim strategiyasının müəyyənləşdirməsində əvəzolunmaz rola malikdir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə köçürüldükdə, yəni sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır. İlkin səviyyənin dəyərləndirilməsi zamanı müəllim aşağıda təqdim olunan konkret məzmunlu suala cavab tapmağı qarşısına məqsəd kimi qoymalıdır:

▶ Şagirdlər müəyyən dərəcədə əsas bilik və bacarıqlara yiyələnibmi?

İlin əvvəlində həyata keçirilən qiymətləndirmə tamam başqa məzmun kəsb edir. Diaqnostik qiymətləndirmə şagirdlərlə iş zamanı müəllimə pedaqoji fəaliyyətini tənzimləməyə, planlaşdırmağa yardım edir. Prosesin reallaşdırılmasında üsul və vasitələrin seçimi birbaşa müəllimdən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, siniflər üzrə onlardan istifadə eynilik təşkil edə bilməz. Təlimə başlamazdan əvvəl aparılan səviyyə müəyyənetmə ilə sonradan yeri gəldikcə aparılan diaqnostik qiymətləndirmə məzmunca fərqlənir. Məhz bu səbəbdən həmin üsul və vasitələrin seçimi müəllimdən xüsusi diqqət və yaradıcılıq tələb edir.

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır. O, formativ və summativ qiymətləndirmələr üçün bazis, zəmin rolunu oynayır.

Düzgün diaqnoz nəticəsində sonrakı fəaliyyətin aspektləri konkret olaraq müəyyənləşir.

**Formativ qiymətləndirmə**

Qiymətləndirməyə yeni yanaşmanın əsas mahiyyətini formativ qiymətləndirmə (FQ) təşkil edir və şagirdlərin təlim fəaliyyətini izləmək, qarşıya çıxan problemləri aşkar etməklə aradan qaldırmaq məqsədinə xidmət edir.

Pedaqoji termin olaraq "formativ qiymətləndirmə" şagirdlərin öyrənmə fəaliyyətinin izlənməsi kimi şərh olunur və onların təlim nəticələrinə, summativ qiymətləndirmədəki nailiyyətlərinə əhəmiyyətli təsiri qeyd edilir. Belə ki fənni tədris edən müəllim dərs ili ərzində müntəzəm olaraq şagirdlərin öyrənmə fəaliyyətini meyarlar üzrə izləyir, şagirdin təlim ehtiyaclarını öyrənir, təlim fəaliyyətinə təsir göstərən səbəbləri müəyyənləşdirir, maneələri aradan qaldırmaq, həmçinin fəaliyyəti stimullaşdırmaq üçün tədbirlər görür.

FQ qeyri-formal xarakter daşıyır və onun meyarları fəaliyyətyönümlü olur. Həmçinin formativ qiymətləndirmə üsulları da təlim nəticəsinin deyil, təlim fəaliyyətinin izlənilməsi üçün nəzərdə tutulur. FQ həmçinin şagirdin fəaliyyətində maraqlı tərəfləri təlim zamanı və təlim haqqında məlumatlandırmağa xidmət edir. Həmin məlumatlar müşahidə, özünüqiymətləndirmə, cütlərin və ya qrupların bir-birini qiymətləndirməsi, portfolio və digər bu kimi vasitələrlə toplanılır.

FQ növbəti addımların müəyyənləşdirilməsində müəllimlərin bələdçisidir. Əgər müəllim bütün müşahidələri vaxtında, düzgün aparmasına baxmayaraq, ondan öz işini qurmaq üçün istifadə etməzsə və zəif şagirdi elə zəif olduğuna görə diqqətdən kənarda saxlayarsa, formativ qiymətləndirmənin aparılmasından söhbət gedə bilməz.

Formativ qiymətləndirmə məlumatları aşağıdakı suallara cavab verməyə kömək edir:

- Şagird nələri öyrənmişdir?
- Daha nələri öyrənməlidir?
- İnkişaf üçün hansı addımları atmalıdır?

FQ müxtəlif vasitələrlə aparılır. Hansı vasitənin istifadə edilməsindən asılı olmayaraq, toplanan məlumatdan istifadə edərək növbəti fəaliyyətləri şagirdlərin ehtiyacına uyğunlaşdırmaq vacibdir. Əks halda bu, formativ qiymətləndirmə deyil.

Formativ rəsmi qiymətləndirmə olmadığından nəticələr məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və ya simvollardan, "mənimsəyir", "mənimsəmir", "bilir", "bilmir", "yaxşı", "orta", "zəif" və sair bu kimi ifadələrdən istifadə edilmir. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin FQ dəftəri"ndəki qeydlər əsasında təhsil alanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsil alanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıdakıları bilməsi məqsədəuyğundur:**

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.

- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini zəif, orta, yüksək olmaqla qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır. Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.

**Formativ qiymətləndirmə metodlarının seçilməsi prinsipləri**

Formativ qiymətləndirməni həyata keçirmək üçün müəllim əsas FQ strategiyaları, metod və texnikaları bilməlidir. Formativ qiymətləndirmənin strategiyası formativ qiymətləndirmənin məqsədlərinə nail olmaq üçün ümumi yanaşmanı əks etdirir. Ədəbiyyatda Dilan Vilyamın 5 FQ strategiyası ən tanınmış strategiyadır.

1. Müvəffəqiyyət üçün şagirdlərin öyrənmə niyyətlərini və müəllimin qiymətləndirmə meyarlarını müəyyənləşdirin, onlarla bölüşün və aydınlaşdırın – dərsin əvvəlində şagirdlər təlim fəaliyyətinin nədən ibarət olacağını başa düşməli və onların fəaliyyətinin necə qiymətləndiriləcəyini (*hansı meyar və "uğur göstəriciləri" əsasında*) bilməlidirlər. Bununla şagirdin təlim fəaliyyəti istiqamətləndirilir (*"Mən bilirəm, mən nəyi öyrənməliyəm"*).
2. Təlim məqsədlərinin əsasında müvəffəqiyyətin ölçülməsinə imkan verən səmərəli təlim metodları (müzakirələr, suallar, tapşırıqlar və s.) seçin və onların vasitəsilə formativ qiymətləndirməni həyata keçirin.
3. Öyrənmə prosesində yaranan problemləri və onların həlli yollarını daha yaxşı başa düşmək üçün şagirdlərə lazımi əks-əlaqəni verin və onlar bir-biri üçün öyrənmə resursu kimi çıxış etsin. Bununla da öyrənmə prosesinin inkişafı təmin olunacaqdır.
4. Müzakirələrdə və iş qruplarında iştirakı zamanı şagirdləri bir-birinə əks-əlaqə verməyə cəlb edin.
5. Şagirdləri öyrənmə prosesinin sahibləri kimi aktivləşdirin – öyrənmə prosesinin onun özü tərəfindən tənzimlənməsi şagirdin işini yaxşılaşdırmağa gətirib çıxarır. Onlar öz fəaliyyətinin refleksiyasını apararaq daha səmərəli öyrənir və məsuliyyətli olurlar.

Formativ qiymətləndirmənin kim tərəfindən həyata keçirilməsini nəzərə alaraq (müəllim, cütlər, şagird) beş strategiyadan istifadə aşağıdakı kimi fərqlənir:

| Kim aparır? | 1-ci addım | 2-ci addım | 3-cü addım |
|---|---|---|---|
| Müəllim | Şagirdlərin öyrənmə niyyətlərini və müəllimin qiymətləndirmə meyarlarını müəyyənləşdirin və bölüşün (1-ci strategiya). | Səmərli təlim metodları (müzakirələr, suallar, tapşırıqlar və s.) seçin və formativ qiymətləndirməni həyata keçirin (2-ci strategiya). | Şagirdlərə lazımi əks-əlaqəni verin. |

| | | |
|---|---|---|
| Cütlər | Şagirdlərin öyrənmə niyyətini müəyyənləşdirin və bölüşdürün (1-ci strategiya). | Şagirdlər əks-əlaqəni verir və bir-biri üçün öyrənmə resursu kimi çıxış edir (3-cü və 4-cü strategiya). |
| Şagird | Şagirdlərin öyrənmə niyyətini müəyyənləşdirin (1-ci strategiya). | Şagirdləri öyrənmə prosesinin sahibləri kimi aktivləşdirin (5-ci strategiya). |

Formativ qiymətləndirmənin metodu FQ strategiyalarını həyata keçirmək üçün istifadə oluna bilən müxtəlif yolları əks etdirir. Formativ qiymətləndirmənin texnikaları müəyyən FQ metodunun ümumi cəhətlərini saxlamaqla müxtəlif üsullarını əks etdirir.

Aşağıdakı cədvəldə FQ əsas metod və texnikalarının təsnifatının bir nümunəsi göstərilir.

| **Nº** | **Metod** | **Texnikalar** |
|---|---|---|
| 1. | Sual vermə | Açıq sualların verilməsi, testin hazırlanması, BİBÖ, Blits-turnir, yanlış tapmaca, 5 “Niyə?” və s. |
| 2. | Sual-cavab (şifahi, yazılı) | Sorğu, proqres testi, cavab kartı, imla, inşa, siyahı yarat, cümləni davam et və s. |
| 3. | Müşahidə | Meyar cədvəli, qeydiyyat vərəqi, təsvir və s. |
| 4. | Proyektor və təqdimatlar | Eksperimentlər, təcrübələr, layihələr, multimedia təqdimatları, referatlar, səhnələr, pantomimalar və s. |
| 5. | Fəaliyyətlər | Tapşırıqlar, diskussiya, debat, dialoqlar, “karusel”, “düşün – cütdə müzakirə et – paylaş” (Think – Pair – Share), “Dostunu öyrət”, “Auksion”, “4 künc”, “Blits-turnir” və s. |
| 6. | Qeyri-verbal və kinestetik | Fərdi ağ lövhə ya jestlər (barmaqlar yuxarı-aşağı, 1-2-3-4-5-), kodlar, işarələr “+; =”, səslər, fiziki hərəkətlər, rəqs və s. |
| 7. | Qeydiyyat üsulları | Rubriklər, meyar cədvəli, portfolio, qeyd kartları (“Giriş/çıxış kartları” və ya “İndeks kart”), Öyrənmə jurnalı (nə öyrəndim, qalan suallar) və s. |
| 8. | Vizual üsullar | Qrafik orqanayzerlər (sxemlər, diaqramlar, cədvəllər, qrafiklər və s.), şəkillər, kodlar, simvollar, “Arzu ağacı”, “Fikirlər xəritəsi” və s. |
| 9. | Yaradıcı işlər | Təkmilləşmiş məhsullar (əşyalar, proseslər, qaydalar və s.), proqnozlar, yeni əsərlər, modellər, maketlər, sinkveyn, esse, akrostik poema və s. |
| 10. | Ümumiləşdirmə və refleksiya | Əqli hücum, 3-2-1, panel, şifahi reaksiya, refleksiya jurnalı, qeyd jurnalı/dəftəri/kartları, SWOT analiz |

Formativ qiymətləndirmə metodlarının digər təsnifatları da mövcuddur. Məsələn:

1. Ümumiləşdirmə və refleksiya üsulları, əsasən, xüsusi fasilitasiya sualları və ya jurnallar və sorğular əsasında məlumatı təhlil edir.
2. Siyahılar, diaqramlar və qrafik orqanayzerlər. Şagirdlər müxtəlif qrafik orqanayzerlər vasitəsilə məlumatı təşkil edir, əlaqələr qurur və əlaqələri izləyir.
3. Məlumatın vizual təqdimatı. Şagirdlər məlumatı sözlərlə və ya şəkillərlə kodlaşdırır.
4. Əməkdaşlıq əsasında fəaliyyətlər. Şagirdlər müxtəlif birgə fəaliyyətlərdə öz bilik və bacarıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə metod və texnikaların seçilməsi meyarları**

1. Məqsədi. Nəyi qiymətləndirir?
2. Vaxt. Nə qədər vaxt sərf olunacaq?
3. Şagird sayı. Neçə şagirdi əhatə edə bilər?
4. Keçirilmə zamanı. Təlim tapşırığının tərkibindədir va ya ayrıca aparılmalıdır?
5. Dəqiqlik. Nə dərəcədə dəqiqdir?
6. Əhatəlilik. Şagirdlərin qiymətləndiriləcək bacarıqlarını əhatə edirmi? Birini və ya bir neçəsini?

Formativ qiymətləndirmənin səmərəli həyata keçirilməsi üçün müəllim, ilk növbədə, onun fəlsəfəsinə ("öyrənmək üçün qiymətləndirmə") uyğun olaraq onun əsas mexanizmləri və strategiyalarını tətbiq etməlidir. Dərsin təlim nəticələrinə uyğun olaraq meyarları və göstəriciləri hazırlamaq və onlarla şagirdləri tanış etməklə formativ qiymətləndirmənin səmərəliliyinin artırılmasını təmin etmək mümkündür. Təlim prosesində müvafiq FQ fəaliyyətləri həyata keçirmək üçün meyar və göstəricilərə əsasən tapşırıqların planlaşdırılması və müvafiq metod və texnikaların seçilməsi də çox vacibdir.

# 9-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

## 9-cu sinif

**9-cu sinfin sonunda şagird:**
- tarixi inkişaf zaman baxımından qiymətləndirir və xronoloji cədvəllər hazırlayır;
- yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir, təqdimatlar hazırlayır;
- Azərbaycanda insanların həyat tərzində baş vermiş dəyişiklikləri dövr və sivilizasiyalarla əlaqələndirir;
- Azərbaycanın ictimai-iqtisadi, siyasi inkişafı ilə onun coğrafi mövqeyi və təbii şəraiti arasındakı əlaqələri dəyərləndirir;
- müstəmləkə rejimi və müstəqillik şəraitində Azərbaycanın daxili və xarici siyasətini dəyərləndirir;
- dövlətçiliyin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dövr baxımından dəyərləndirir;
- Azərbaycan və dünya mədəniyyətlərini xarakterik əlamətlərinə görə müqayisə edir, təqdimatlar hazırlayır.

**Məzmun xətləri üzrə əsas və standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.

1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**2. Tarixi məkan**

**Şagird:**

2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**3. Dövlət**

**Şagird:**

3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

**4. Şəxsiyyət**

**Şagird:**

4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (*Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.*) rolunu dəyərləndirir.

4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**5. Mədəniyyət**

**Şagird:**

5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.

5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

# IX SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| TARİXİ ZAMAN | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir. | Ümumi tarix (Ü.t.) 1.1.1.<br>Azərbaycan dili (Az.d.) 1.2.4.<br>Xarici dil (X.d.) 2.1.3.<br>Texnologiya (Tex.) 1.3.3. |
| 1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (Az.d.) 1.1.1.<br>İnformatika (İnf.) 3.3.4.<br>Xarici dil (X.d.) 4.1.2. |
| 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (Az.d.) 1.1.1., 1.2.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır. | Azərbaycan dili (Az.d.) 1.2.2., 3.1.4.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>İnformatika (İnf.) 3.2.2., 3.3.3. |
| 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir. | Azərbaycan dili (Az.d.) 1.2.2.<br>Xarici dil (X.d.) 2.1.3.<br>Coğrafiya (Coğ.) 3.1.1.<br>Həyat bilgisi (H.b.) 2.1.1. |
| **TARİXİ MƏKAN** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir. | Ümumi tarix (Ü.t.) 2.1.1.<br>Azərbaycan dili (Az.d.) 1.2.1.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Coğrafiya (Coğ.) 3.2.3.<br>Həyat bilgisi (H.b.) 2.1.1., 2.3.1.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir. | Ümumi tarix (Ü.t.) 2.1.2.<br>Azərbaycan dili (Az.d.) 1.1.1.<br>Coğrafiya (Coğ.) 3.1.2., 3.2.2.<br>Texnologiya (Tex.) 1.3.3. |
| **DÖVLƏT** | |

| Standartlar | Digər fənlərlə inteqrasiya |
|---|---|
| 3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir. | Ümumi tarix (Ü.t.) 3.1.1.<br>Azərbaycan dili (Az.d.) 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Coğrafiya (Coğ.) 3.2.3.<br>Həyat bilgisi (H.b.) 2.1.1., 2.3.1.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir. | Ümumi tarix (Ü.t.) 3.1.2.<br>Azərbaycan dili (Az.d.) 2.2.3.<br>Texnologiya (Tex.) 1.3.3.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir. | Ümumi tarix (Ü.t.) 3.1.2.<br>Azərbaycan dili (Az.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>Həyat bilgisi (H.b.) 2.3.1.<br>İnformatika (İnf.) 3.2.2., 3.3.3.<br>Xarici dil (X.d.) 2.1.3. |
| **ŞƏXSİYYƏT** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (*Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.*) rolunu dəyərləndirir. | Ümumi tarix (Ü.t.) 4.1.1.<br>Azərbaycan dili (Az.d.) 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir. | Ümumi tarix (Ü.t.) 4.1.2.<br>Azərbaycan dili (Az.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>İnformatika (İnf.) 3.2.2., 3.3.3. |
| **MƏDƏNİYYƏT** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir. | Ümumi tarix (Ü.t.) 5.1.1.<br>Azərbaycan dili (Az.d.) 1.1.1., 3.1.2.<br>Ədəbiyyat (Əd.) 2.1.3.<br>Həyat bilgisi (H.b.) 3.1.1., 3.2.1.<br>Texnologiya (Tex.) 1.3.3.<br>Xarici dil (X.d.) 2.1.3. |

| | |
|---|---|
| 5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir. | Ümumi tarix (Ü.t.) 5.1.1., 5.1.2.<br>Azərbaycan dili (Az.d.) 3.1.2.<br>Ədəbiyyat (Əd.) 2.1.1.<br>Həyat bilgisi (H.b.) 3.1.1., 3.2.1.<br>Musiqi (Mus.) 1.1.1., 2.2.1. |
| 5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir. | Ümumi tarix (Ü.t.) 5.1.3.<br>Azərbaycan dili (Az.d.) 1.2.4., 3.1.2.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>İnformatika (İnf.) 3.2.2., 3.3.3.<br>Həyat bilgisi (H.b.) 3.1.1., 3.2.1.<br>Musiqi (Mus.) 1.1.1., 2.2.1.<br>Təsviri incəsənət (T.i.) 1.1.1., 1.3.1. |

# TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);
- Məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);
- hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçülə bilən olması;
- təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri qruplaşdıran zaman sadədən mürəkkəbə prinsipi nəzərə alınmalıdır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| **Bilmə** | **Şagird** |
|---|---|
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | istifadə olunan terminləri bilir;<br>konkret faktları bilir;<br>proseduru və metodları bilir;<br>əsas anlayışları bilir;<br>prinsipləri və qaydaları bilir. |

| **Anlama** | **Şagird** |
|---|---|
| Bu kateqoriya öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə şəkildə yadda saxlanılmasından üstündür. | prinsipləri, qaydaları və faktları başa düşür;<br>materialı öz sözləri ilə izah edir;<br>sxemləri, diaqramları izah edir;<br>materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>əldə edilmiş biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |
| **Tətbiqetmə** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhliletmə** | **Şagird** |
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsiplərinin başa düşülməsidir. Bu zaman tədrisin nəticələri, sadəcə, başa düşmə və tətbiq etmək deyil, daha yüksək intellektual səviyyəyə uyğun olur. | gizli, gözlə görünməyən təsəvvürləri açıqlayır;<br>məntiqi izahatda səhvləri və yaddan çıxanları görür;<br>faktlar və nəticələr arasında fərqi üzə çıxarır;<br>dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | Şagird |
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq, yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | kiçik yaradıcı xarakterli inşa yazır;<br>eksperimentin həyata keçirilmə planını təklif edir;<br>müəyyən problemin həlli üçün plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Dəyərləndirmə** | Şagird |
| Bu kateqoriya bu və ya digər materialın əhəmiyyətini qiymətləndirmə, əsaslandırma və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyənləşə bilər. | materialın məntiqi quruluşunu qiymətləndirir:<br>nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

| İdraki bacarıqlar | Təfəkkürün inkişaf mərhələləri |
|---|---|
| **BİLMƏ** | xatırlamaq, tanımaq, göstərmək, sadalamaq, adlandırmaq |
| **ANLAMA** | izah etmək, nümunə göstərmək, öz sözləri ilə təsvir etmək, fərqləndirmək |
| **TƏTBİQETMƏ** | həll etmək, istifadə etmək, cümlə qurmaq |
| **TƏHLİLETMƏ** | hissələrə ayırmaq, struktur müəyyənləşdirmək, müqayisə etmək |
| **SİNTEZ** | yaratmaq, plan tutmaq, tərtib etmək |
| **DƏYƏRLƏNDİRMƏ** | münasibət bildirmək, qərar qəbul etmək |

Praktika onu göstərir ki, indiyə qədər müəllimlər formativ qiymətləndirmə aparan zaman çox vaxt şagirdləri səviyyələr üzrə necə qiymətləndirməli olduqları məsələsində çətinlik çəkirlər. Deyilənləri nəzərə alaraq taksonomiya nəzərə alınmaqla, şagirdlərin dərs prosesində səviyyələr üzrə qiymətləndirilməsi üçün aşağıdakı formada bir neçə nümunə təklif edirik. Onu da deyək ki, mövcud olan standartlar heç də həmişə aşağıdakı nümunə formasında şagirdləri qiymətləndirməyə imkan vermir. Bununla belə, ümidvarıq ki, dərs prosesində şagirdləri formativ qiymətləndirən zaman təqdim etdiyimiz nümunə yararlı olacaqdır.

**9-cu sinif Azərbaycan tarixi fənninin 1.2.2. standartına aid nümunə:**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələri ***sadalayır.*** | Müxtəlif mənbələrdəki məlumatları ***təsvir edir.*** | Müxtəlif mənbələrdəki məlumatları ***müqayisə edir.*** | Müxtəlif mənbələr əsasında ***təqdimatlar hazırlayır.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 1.2.2. standartından çıxış edən nümunə vermişik. IV səviyyə taksonomiyanın SİNTEZ səviyyəsini özündə əks etdirir. Belə olan halda taksonomiyaya əsaslanaraq şagirdləri TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirmək məqsədəmüvafiq hesab edilmişdir.

**9-cu sinif Azərbaycan tarixi fənninin 2.1.1. standartına aid nümunə:**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında **əlaqələri öz sözləri ilə təsvir edir**. | Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında **əlaqələri sadə şəkildə izah edir**. | Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında **əlaqələri müqayisə edir**. | Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında **əlaqələri dəyərləndirir**. |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 2.1.1. standartına uyğun nümunə vermişik. Bu nümunədə də şagirdləri taksonomiyanın ANLAMA (I səviyyə), TƏTBİQETMƏ (II səviyyə), TƏHLİLETMƏ (III səviyyə) və DƏYƏRLƏNDİRMƏ səviyyəsinə uyğun qiymətləndirmək məqsədəmüvafiqdir.

**9-cu sinif Azərbaycan tarixi fənninin 5.1.2. standartına aid nümunə:**

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini, dünya sivilizasiyası və mədəniyyətlərinin ***xarakterik*** əlamətlərini sadalayır. | Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin ***xarakterik*** əlamətlərindən fərqləndirir. | Azərbaycan sivilizasiyası və mədəniyyətinin, dünya sivilizasiyası və mədəniyyətinin ***xarakterik əlamətlərin***i təqdim edir. | Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin ***xarakterik*** əlamətləri ilə müqayisə edir. |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 5.1.2. standartını olduğu kimi nümunə olaraq vermişik. Əslində, bu yerdə keçilən dərs üçün standarta söykənən məqsəd olmalıdır. IV səviyyə taksonomiyanın TƏHLİLETMƏ səviyyəsini özündə əks etdirir. Belə olan halda taksonomiyaya əsaslanaraq şagirdləri TƏTBİQETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirmək tövsiyə olunur.

# DƏRSLƏRİN İLLİK PLANLAŞDIRILMASI

| S/N° | Standart | Mövzu | Saat | Qiymət-ləndirmə | Tarix |
|---|---|---|---|---|---|
| | **Diaqnostik qiymətləndirmə** | | 1 | | |
| | **I bölmə. Azərbaycan XIX–XX yüzilliyin əvvəlləri** | | | | |
| | **I fəsil: Azərbaycan XIX yüzillikdə** | | | | |
| 1. | 1.1.2., 1.3.1., 2.1.1., 3.1.1., 3.1.2. | Şimali Azərbaycanda müstəmləkə rejiminin yaradılması və möhkəmləndirilməsi | 3 | Formativ | |
| 2. | 1.2.1., 1.2.2., 1.3.1., 3.1.1. | Burjua islahatları | 2 | Formativ | |
| 3. | 1.1.1., 3.1.2. | Dünyanın neft mərkəzi – Bakı | 1 | Formativ | |
| 4. | 2.1.1., 2.1.2. | Sənayenin digər sahələri. Kənd təsərrüfatı | 1 | Formativ | |
| 5. | 1.1.1. | Millətin formalaşması | 1 | Formativ | |
| 6. | 1.1.1., 1.2.2. | Xalq hərəkatı | 1 | Formativ | |
| 7. | 1.1.2., 3.1.2. | Cənubi Azərbaycan | 1 | Formativ | |
| 8. | 5.1.1., 5.1.2., 5.1.3. | Mədəniyyət | 2 | Formativ | |
| | **Təkrar** | | **1** | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |
| | **II fəsil: Azərbaycan XX yüzilliyin əvvəllərində** | | | | |
| 9. | 3.1.1. | Sənayenin vəziyyəti. Kənd təsərrüfatı | 1 | Formativ | |
| 10. | 1.1.1., 1.1.2., 1.2.1., 1.2.2. | Milli demokratik hərəkat | 2 | Formativ | |
| 11. | 1.1.1., 2.1.2. | Çarizmin milli qırğın siyasəti | 1 | Formativ | |
| 12. | 3.1.1., 3.1.2., 3.1.3. | Cənubi Azərbaycanda Məşrutə inqilabı | 1 | Formativ | |
| 13. | 1.1.2., 2.1.1. | Azərbaycan Birinci dünya müharibəsi illərində | 1 | Formativ | |
| 14. | 1.1.1.,3.1.1. | Şimali Azərbaycan Fevral inqilabından sonra | 1 | Formativ | |
| 15. | 5.1.1., 5.1.2. | Mədəniyyət | 1 | Formativ | |
| | **Təkrar** | | **1** | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **II bölmə. Azərbaycan 1918–1920-ci illərdə. Birinci respublika** | | | | |
| | **III fəsil: Azərbaycan Xalq Cümhuriyyəti** | | | | |
| 16. | 1.1.1., 1.2.1., 2.1.2. | Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti | 1 | Formativ | |
| 17. | 1.1.1., 1.2.1., 1.3.1., 3.1.1., 3.1.2., 3.1.3., 4.1.1., 4.1.2., 5.1.3. | Azərbaycan Xalq Cümhuriyyəti | 5 | Formativ | |
| 18. | 1.1.1., 4.1.1., 4.1.2. | Cənubi Azərbaycanda milli azadlıq hərəkatı | 1 | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |
| | **Böyük Summativ Qiymətləndirmə** | | **1** | | |
| | **III bölmə. Azərbaycan 1920–80-ci illərdə. İkinci respublika** | | | | |
| | **IV fəsil: Azərbaycan 1920–40-cı illərdə** | | | | |
| 19. | 1.2.2., 3.1.1. | Azərbaycan SSR-in yaradılması | 1 | Formativ | |
| 20. | 1.1.2., 3.1.2. | “Müstəqil sovet Azərbaycanı” şüarının iflası | 1 | Formativ | |
| 21. | 1.3.1., 5.1.1., 5.1.3. | Azərbaycan SSR-də həyata keçirilən iqtisadi, siyasi və mədəni tədbirlər | 2 | Formativ | |
| 22. | 1.1.1., 4.1.2. | Azərbaycan SSR İkinci dünya müharibəsi illərində | 2 | Formativ | |
| 23. | 1.3.1., 3.1.1. | Cənubi Azərbaycanda milli azadlıq hərəkatı | 1 | Formativ | |
| | **Təkrar** | | **1** | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |
| | **V fəsil: Azərbaycan İkinci dünya müraribəsindən sonrakı dövrdə** | | | | |
| 24. | 1.3.1., 2.1.1., 3.1.1. | Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə | 1 | Formativ | |
| 25. | 1.1.1., 4.1.1. | Azərbaycan SSR 1970–80-ci illərdə | 1 | Formativ | |
| 26. | 1.1.2., 3.1.1. | Yenidənqurma siyasəti. Qarabağ münaqişəsinin başlanması | 1 | Formativ | |
| 27. | 1.2.2. | İran İslam inqilabı və Cənubi Azərbaycan | 1 | Formativ | |
| 28. | 5.1.1. | Mədəniyyət (1940–1980-ci illər) | 1 | Formativ | |
| | **Təkrar** | | 1 | Formativ | |
| | **IV bölmə. Azərbaycan müstəqillik dövründə. Üçüncü respublika** | | | | |
| | **VI fəsil: Azərbaycan Respublikası 1990-cı illərdə** | | | | |
| 29. | 1.1.1., 1.3.1., 3.1.1. | Dövlət müstəqilliyinin bərpası | 1 | Formativ | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 30. | 1.1.2., 1.2.1., 1.2.2., 2.1.2. | Birinci Qarabağ müharibəsi | 2 | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |
| 31. | 1.1.1., 4.1.1. | Qurtuluş hərəkatı | 1 | Formativ | |
| 32. | 1.1.2., 2.1.1., 3.1.1. | Dövlət quruculuğu tədbirləri. Sosial-iqtisadi islahatlar | 1 | Formativ | |
| 33. | 3.1.2. | Azərbaycan Respublikasının xarici siyasəti | 1 | Formativ | |
| | **Təkrar** | | **1** | Formativ | |
| | **VII fəsil. Azərbaycan yeni minillikdə** | | | | |
| 34. | 1.3.1., 3.1.3., 4.1.1. | Azərbaycan Respublikası yeni inkişaf yolunda | 1 | Formativ | |
| 35. | 1.1.1., 1.2.2. | Cəbhə xəttində toqquşmalar. Dördgünlük müharibə | 1 | Formativ | |
| 36. | 1.1.2., 3.1.2. | Xarici siyasətdə uğurlar | 1 | Formativ | |
| 37. | 1.2.2. | Vətən müharibəsi | 3 | Formativ | |
| 38. | 1.1.1., 1.3.1. | Qarabağda quruculuq. Böyük Qayıdışın ilk addımları | 1 | Formativ | |
| 39. | 5.1.2., 5.1.3. | Mədəniyyət | 1 | Formativ | |
| | **Təkrar** | | **1** | Formativ | |
| | **Kiçik Summativ Qiymətləndirmə** | | **1** | | |
| | **Böyük Summativ Qiymətləndirmə** | | **1** | | |
| **CƏMİ** | | | **68** | | |

# MÖVZU 1. ŞİMALİ AZƏRBAYCANDA MÜSTƏMLƏKƏ REJİMİNİN YARADILMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ
## (BİRİNCİ SAAT)

**QEYD:** Bu paraqrafın tədrisinə 3 saat vaxt ayrılmışdır. Bunun üçün dərs müxtəlif forma və üsullarla keçilə bilər. Dərsin bir saatını cütlərlə iş, digər saatlarını isə fərdi, böyük və ya kiçik qruplarla iş formasında keçmək tövsiyə olunur. Bununla belə, müəllim istədiyi standartları seçməli, onlardan dərsə uyğun məqsəd çıxarmalı, məqsədi reallaşdırmaq üçün iş forması və üsulunu ayırd etməli, dərsin motivasiyasını quraraq ardıcıllıqla dərsin mərhələlərini bir-bir həyata keçirməlidir. Dərsin sonu üçün əvvəlcədən müəyyənləşdirilən dərs məqsədlərinə uyğun olaraq qiymətləndirmə meyarlarını və onlara müvafiq olaraq qiymətləndirmə səviyyələrini hazırlamaq lazımdır. Mövcud paraqrafın tədrisi dərslikdəki materiala uyğun olaraq aşağıdakı formada bölünmüşdür. Müəllim bu bölgünü dəyişməkdə və yeni bölgü forması yaratmaqda tam sərbəstdir.

Birinci dərs 8-ci səhifədən başlayıb 12-ci səhifədəki “Şəhər həyatı” yarımbaşlığınadək olan məlumatları özündə əks etdirir.

İkinci dərs 12-ci səhifədəki “Şəhər həyatı” yarımbaşlığından 15-ci səhifənin sonuna qədərki məlumatları əhatə edir.

Üçüncü dərs paraqrafın 15-16-cı səhifələri əsasında keçilməsi nəzərdə tutulmuşdur.

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Şimali Azərbaycanda müstəmləkə rejimi yaradılandan sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
2. Şimali Azərbaycanda müstəmləkə rejimi şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük qruplarla və cütlərlə iş
***Təlim üsulları:*** beyin həmləsi, iş vərəqləri

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərin diqqətini əvvəlki illərdə aldıqları informasiyalara – üsyanlara yönləndirmək, sonra isə mövzu ilə bağlı suallarla onlara müraciət etmək olar. Bunun üçün əvvəlcədən: “Xürrəmilər”, “Sarısarıqlılar”, “Məzdəkilər”, “Qırmızıqaşlılar” sözləri səsləndirilir. Sonra:

– “Bu sözlər sizə nə deyir?” – sualına cavab istənilir. Alınan cavabdan sonra:
– “Sizcə, adətən, üsyanların başlanmasına səbəb nə olur?” – sualı ilə müraciət edilir.

Şagirdlər fərziyyələrini bildirirlər, fikirləri lazımi məcraya yönəldib dərsin motivasiyası reallaşdırılır. Bunun ardınca tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Şimali Azərbaycanda qurulan müstəmləkə rejiminin hansı təsirləri oldu?**

**Tədqiqatın aparılması.**

Tədqiqatın cütlərlə iş formasında aparılması tövsiyə edilir. Bu zaman fəal təlimin iş vərəqləri ilə iş üsulundan istifadə edilərsə, daha yaxşı olar. Cütlərə aşağıdakı tədqiqat sualları və tapşırıqlar verilir:

**I cüt**

Şimali Azərbaycanda müstəmləkə rejimi şəraitində inzibati həyatda baş verən dəyişiklikləri təhlil edin.

______________________________________________

______________________________________________

**II cüt**

Şimali Azərbaycanda müstəmləkə rejimi şəraitində sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edin.

______________________________________________

______________________________________________

**III cüt**

Komendant idarə üsulunun yaradılmasını Azərbaycan dövlətçiliyinə zərbə kimi dəyərləndirin.

______________________________________________

______________________________________________

**IV cüt**

Şimali Azərbaycanda müstəmləkə rejimi yaradılandan sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri şərh edin.

______________________________________________

______________________________________________

**V cüt**

Şimali Azərbaycanda müstəmləkə rejimi yaradılandan sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

______________________________________________

______________________________________________

**VI cüt**

Çarizmin köçürmə siyasətini dəyərləndirin.

**VII cüt**

Azərbaycanda alman və rus məskənlərinin yaradılmasının hansı dəyişikliklərə səbəb olduğunu təhlil edin.

**VIII cüt**

Şimali Azərbaycanda qurulan müstəmləkə rejiminin kənd təsərrüfatına təsirini təhlil edin.

**IX cüt**

Ermənilərin Şimali Azərbaycana köçürülməsini gələcəkdə Azərbaycan ərazisində baş verən siyasi hadisələrlə əlaqələndirin.

**X cüt**

Rusiyanın Şimali Azərbaycandakı iqtisadi siyasətini təhlil edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cütlərlə işə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi başlayır. Bu mərhələdə müəyyən olunmuş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur, dağınıq faktlar arasında əlaqə qurulur, əlavələr edilir və fikirlər lazımi məcraya yönəldilir. Müzakirələr zamanı sinfin bütün şagirdlərinin fəallığının təmin olunması müəllimdən asılıdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı nəticələrin alınmasına yardım edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə onlar Şimali Azərbaycanda müstəmləkə rejimi yaradılandan sonra ölkə ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirə, Şimali Azərbaycanda müstəmləkə rejimi şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edə və Şimali Azərbaycanda qurulan müstəmləkə rejiminin hansı nəticələri olduğunu müəyyənləşdirə bilərlər. Bu da öz növbəsində, tədqiqat

sualına cavab tapmağa kömək edəcək. Bununla belə, tədqiqat sualının tam cavabını almaq üçün aşağıdakı sual və tapşırıqlardan da istifadə edilə bilər:

- İşğal rejimi nə deməkdir?
- Komendantların hansı səlahiyyətləri var idi?
- Rusların köçürülməsində əsas məqsəd nə idi?
- Rusiya imperiyasında yarımköçəri əhaliyə qarşı ayrı-seçkilik siyasətinin mahiyyətini izah edin.
- Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi siyasətinin əsasını kim qoymuşdu?
- Alman koloniyalarının yaradılmasının mənfi və müsbət cəhətlərini izah edin.

**Yaradıcı tətbiqetmə.** Doqquzuncu səhifədəki xəritə əsasında cədvəli tamamlamalarını tapşırmaq olar.

| Əyalətlər | Dairələr | Distansiyalar |
|---|---|---|
| | | |
| | | |

**Ev tapşırığı.** Azərbaycan torpaqlarında almanların yerləşdirilməsinin bugünkü Azərbaycan-Almaniya əlaqələrinə təsirini araşdırmaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, təhliletmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək olar. Şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin sonunda cütlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

### CÜTLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**QEYD:** Fəaliyyətinizi 5 ballıq şkala ilə qiymətləndirin.

| Meyarlar | Şagirdlərin adı və soyadı | |
|---|---|---|
| | 1. | 2. |
| Fəallıq səviyyəsi | | |
| Əməkdaşlıq | | |
| Qaydalara əməl olunması | | |
| Tapşırığın icrası zamanı müzakirə etmə | | |
| Ümumi rəyə gəlmə | | |
| Təqdimat etmə | | |

# MÖVZU 1. ŞİMALİ AZƏRBAYCANDA MÜSTƏMLƏKƏ REJİMİNİN YARADILMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ
## (İKİNCİ SAAT)

**Standartlar:**

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Müstəmləkə rejimi şəraitində Şimali Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.
2. Müstəmləkə rejimi şəraitində sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, müzakirə

**Dərsin gedişi**

**Tədqiqat sualı: Şimali Azərbaycanda qurulan müstəmləkə rejiminin hansı nəticələri oldu?**

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasında aparılması tövsiyə edilir. Bu zaman fəal təlimin müzakirə üsulundan istifadə edilsə, daha yaxşı olardı. Bu zaman qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**
Müstəmləkə rejimi şəraitində şəhər həyatını təhlil edin.

**II qrup**
Müstəmləkə rejimi şəraitində neft və digər sənaye sahələrini təhlil edin.

**III qrup**
Car-Balakən və Lənkəran üsyanlarını qiymətləndirin.

**IV qrup**
Quba və Şəki üsyanlarını dəyərləndirin.

---

---

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra əvvəlcədən müəyyən edilən meyarlar əsasında qruplar qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qruplar öz təqdimatlarını etdikdən sonra dərsin yekunlaşdırılması və tədqiqat sualının cavabının tapılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlar verilə bilər:

- Rəhdarın ləğv edilməsinin əhəmiyyətini izah edin.
- Neft istehsalına mane olan amillər hansılar idi?
- Car-Balakənin coğrafi mövqeyinin Rusiya üçün əhəmiyyəti nədən ibarət idi?
- Sizcə, nə üçün lənkəranlılar üsyana rəhbərlik etmək üçün Mirhəsən xanı dəvət etmişdilər?
- Quba üsyanını digər üsyanlardan fərqləndirən cəhətləri müəyyən edin.
- Müstəmləkə rejimi şəraitində Şimali Azərbaycanda müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafını ölkənin coğrafi mövqeyi və təbii amilləri ilə necə əlaqələndirmək olar?
- Müstəmləkə rejimi şəraitində sosial-iqtisadi həyatda hansı dəyişikliklər baş verdi?
- Şimali Azərbaycanda qurulan müstəmləkə rejiminin hansı nəticələri oldu?

**Yaradıcı tətbiqetmə.** 14-cü səhifədəki mənbə əsasında əhalinin dini zülmə məruz qaldığını əsaslandırmaq tapşırıla bilər.

**Ev tapşırığı.** XIX yüzilliyin 30-cu illərində baş verimiş üsyanlarla bağlı cədvəli doldurmaq tapşırılır.

| Baş verdiyi il | Baş verdiyi yer | Rəhbəri | Başvermə səbəbləri | Məğlubolma səbəbləri |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təhliletmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab

verdiyi dəqiqləşdirilə bilər. Şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Vaxt qalarsa, dərsin sonunda aşağıdakı cədvəli paylayıb şagirdlərə oradakı meyarlara uyğun cədvəlin doldurulması təklif edilir.

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına maraq | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşmaq | | | | |

# MÖVZU 1. ŞİMALİ AZƏRBAYCANDA MÜSTƏMLƏKƏ REJİMİNİN YARADILMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ
## (ÜÇÜNCÜ SAAT)

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Rusiya imperiyasının strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** mətnə əsasən cədvəlin doldurulması, afişaların hazırlanması

**Dərsin gedişi**

**Motivasiya.** Qurulan dərsdən və əvvəlki dərslərin gedişatından asılı olaraq müəllim istədiyi vasitələrdən (şəkil, bədii film, sənədli film və s.) istifadə edə bilər.

**Tədqiqat sualı: Azərbaycanda müstəmləkə rejimi necə möhkəmləndirildi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və *mətnə əsasən cədvəlin doldurulması* üsulundan istifadə edilməklə qurulması məqsədəmüvafiqdir. Qurulan cədvəllər mətnin əsas ideyasını aşkar etməyə imkan verər. Mətnlə işləyən zaman bir neçə növ cədvəldən istifadə oluna bilər: sadalanan obyektlərin, anlayışların, təriflərin cədvəlin müvafiq sütunlarına yerləşdirilməsi, müqayisə olunan obyektlərdə (qruplarda) müəyyən əlamətlərin olub-olmaması, göstərilən alqoritmlə qismən doldurulmuş cədvəli bitirmək və s. Bu və ya digər proseslər haqqında məlumatlar olan mətnlə işlədikdə işin gedişi boyunca “Nə? Harada? Nə zaman? Hansı səbəbdən?” cədvəlini doldurmaq olar.

Adından göründüyü kimi, bu üsuldan istifadə zamanı şagirdlər onlara təqdim edilən mətnə əsasən cədvəli tamamlamalıdırlar. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar:

**I qrup**

Mətnə əsasən cədvəli doldurun. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**II qrup**
17-ci səhifədə verilmiş xəritələrə əsasən cədvəli doldurun.

| Qəza | Tabe olduğu üst qurum (1840-cı il) | Tabe olduğu üst qurum (1850-ci il) | Qeyd |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**III qrup**
16-cı səhifədəki mətnə əsasən yeni inzibati bölgü ilə bağlı cədvəli doldurun.

| Nə? | Nə zaman? | Tabeçilikdəki ərazilər | Nəticə |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**IV qrup**
1847-ci il "Kəndli Əsasnamələri"nə əsasən cədvəli doldurun.

| Nə? | Nə zaman? | Hansı məqsəddən? | Nəticəsi |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

- Sizcə, quberniya-qəza-sahə inzibati bölgüsü gələcəkdə hansı problemlərə yol aça bilərdi?
- Sizcə, azərbaycanlıların məhkəmə sisteminə inamsızlığı nəyə səbəb ola bilərdi?
- Sosial dayağın etnik dayaqdan fərqi nədir?
- Rusiya imperiyasının strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini necə dəyərləndirərdiniz?
- Keçirilən islahatlarla Rusiya Azərbaycanda müstəmləkə rejimini necə möhkəmləndirdi? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** “Müstəmləkə rejiminə yox” başlıqlı afişa hazırlanmasını tapşırıq kimi vermək olar.

**Qiymətləndirmə:** xronoloji cədvəllər hazırlama, dəyərləndirmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən nəzərdə tutulmuş şagirdlər dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirilə bilər.

Vaxt qalarsa, şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verilə bilər.

**Qrupun adı** ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparılır. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-biri ilə bölüşür. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |

***Şərhlər:***

____________________

____________________

# MÖVZU 2. BURJUA İSLAHATLARI
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölünmüşdür:

- Birinci dərs dərslikdə olan materialların tədqiq edilməsinə hesablanmışdır.
- İkinci saat müəllimin müstəqil yanaşmasına hesablanaraq bir 45 dəqiqə ərzində reallaşdırılması çətin olan standartlardan hər hansı birinin (və ya ikisinin) reallaşdırılması üçün nəzərdə tutulmuşdur.

Bu bölgü mütləq deyil. Müəllimin təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişdirilə və yeni bölgü forması yaradıla bilər.

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Burjua islahatlarından sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
2. Azərbaycanda aparılan burjua islahatlarından sonra sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, problemli vəziyyət

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını şagirdlərin əvvəlki dərsdə qazandığı bilgilər üzərindən qurmaq olar. Bunun üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- 1846-cı il reskripti nədən bəhs edirdi?
- 1847-ci il "Kəndli Əsasnamələri" haqqında nə bilirsiniz?
- Bu islahatlarda hansı oxşar cəhətləri sezmək olar?

Cavablar ümumiləşdirilir, şagirdlər bu islahatların inkişaf üçün yetərli olmadığı və yeni islahatların vacib olduğu qənaətinə gəldikdən sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Burjua islahatlarından sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzində hansı dəyişikliklər baş verdi?**

**Tədqiqatın aparılması.**

Bu mövzunun tədrisi zamanı **problemli vəziyyət** üsulundan istifadə etmək olar. Bu üsulun tətbiqi Azərbaycan tarixi fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və

ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyət əks olunmuş iş vərəqləri bağlı şəkildə şagirdlərə paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır. Problemli vəziyyət şagirdlərin düşünüb qərarlar qəbul etməsinə təsir edən üsullardan biridir.

Bu üsulla yanaşı, digər üsullardan istifadə etməklə də şagirdlərə qrup işləri verib tədqiqata cəlb etmək olar.

**I qrup**

1870-ci il kəndli islahatı haqqında qəbul edilmiş Əsasnaməni dövrün xüsusiyyətləri ilə əlaqələndirin.

______________________________

______________________________

**II qrup**

1870-ci il kəndli islahatı haqqında Əsasnamənin qəbul edilmə səbəblərini, nəticələrini, vergi və mükəlləfiyyət məsələlərini təhlil edin.

______________________________

______________________________

**III qrup**

Şimali Azərbaycanda keçirilən məhkəmə islahatını dövrün xüsusiyyətləri ilə əlaqələndirin.

______________________________

______________________________

**IV qrup**

Şəhər islahatını təhlil edin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə mərhələsi üçün vaxt elan edilir. Çünki şagirdlərin təqdimatına məhdudiyyət qoyulmasa, digər işlərə vaxt çatmaz. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetirilməsi | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Tədqiqat sualına cavab axtaran şagirdlər Azərbaycanda aparılan burjua islahatlarının səbəb və nəticələrini, islahatdan sonra sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil etməyi, insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirməyi, "sahibkar kəndli", "müvəqqəti mükəlləfiyyətli" ifadələrinin nə demək olduğunu və s. bilikləri əldə edir, bu biliklər əsasında burjua islahatlarından sonra Azərbaycan ərazisində yaşamış insanların həyat tərzində dəyişikliklərin necə baş verdiyini tədqiqat nəticəsi kimi əldə etmiş olurlar. Əldə edilən bilik və bacarıqları daha da möhkəmləndirməkdən ötrü şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- İslahatları zəruri edən amilləri müəyyən edin.
- Şimali Azərbaycanda sahibkar kəndlilərinin Rusiyanın mülkədar kəndlilərindən fərqli cəhətləri nə idi?
- Nə üçün çar hökuməti Şimali Azərbaycanda kəndlilərin öz pay torpaqlarını almasına yardım göstərmirdi?
- "Müvəqqəti mükəlləfiyyətli" ifadəsini nə ilə əvəz edərdiniz? Fikrinizi əsaslandırın.
- Məhkəmə islahatının hansı müsbət tərəfləri var idi?
- Məhkəmə islahatının məhdud cəhətlərinin nəticəsi nə oldu? və s.

**Yaradıcı tətbiqetmə.** Cədvəli tamamlamaq tapşırılır.

| 1847-ci il Kəndli Əsasnaməsi | 1870-ci il Kəndli Əsasnaməsi | |
|---|---|---|
| **Fərqli cəhət** | **Oxşar cəhət** | **Fərqli cəhət** |
| | | |
| | | |

**Ev tapşırığı**. 1878-ci ildə Bakıda keçirilən şəhər islahatına aid cədvəli tamamlamaq tapşırıla bilər.

| Müsbət cəhətləri | Mənfi cəhətləri |
|---|---|
| | |
| | |

**Qiymətləndirmə meyarları**: əlaqələndirmə, təhliletmə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə yuxarıdakı meyarlar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirmək olar.

# MÖVZU 2. BURJUA İSLAHATLARI
## (İKİNCİ SAAT)

Paraqrafın ikinci saatı 1.2.1. (Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.) və 1.2.2. (Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.) standartlarını reallaşdırmağa hesablanmışdır. Bu məqsədlə dərsi keçmək üçün standartların tələbinə uyğun olaraq əvvəlcədən eyni hadisəyə aid (bu 1870-ci il Kəndli Əsasnaməsi, 1866-cı il məhkəmə və ya 1878-ci il şəhər islahatına aid) müxtəlif səpkili materiallar hazırlanmalı və dərs zamanı şagirdlərə paylanmalıdır. Bu materiallarda fərqli yanaşmaların olması vacibdir. Şagirdlər materiallarla tanış olduqdan sonra onlara verilən tapşırıq əsasında təqdimat hazırlamaq tapşırıla bilər. Təqdimatı şagirdlərə cütlərlə və ya kiçik qruplarla iş formasında tapşırmaq olar.

# MÖVZU 3. DÜNYANIN NEFT MƏRKƏZİ – BAKI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. XIX yüzilliyin ikinci yarısında neft sənayesinin inkişafını zaman baxımından qiymətləndirir.
2. Azərbaycanda neft sənayesinin inkişafı ilə bağlı xarici dövlətlərin strateji maraqlarını dəyərləndirir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, karusel

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya üçün lövhədə açar söz kimi *Hacı Zeynalabdin Tağıyev, neftayırma zavodu, neft daşları, tanker, neft kəməri* sözləri yazıla bilər. Bundan sonra şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Bu sözlər sizə nə deyir?
– Mövcud açar sözlərin bir-biri ilə hansı əlaqəsi var?
– Bu sözləri hansı vahid ad altında birləşdirmək olar?

Aldığınız cavabları ümumiləşdirib şagirdlərdə dərsə maraq yaratmaq və beləliklə də, dərsin yeni mərhələsinə keçid etmək olar.

İmkan varsa, şagirdlərə neft sənayesi ilə bağlı elektron formada, slaydlarla şəkillər (şəkilləri kağız formatda lövhədən də asmaq olar) göstərmək yaxşı olardı.

**Tədqiqat sualı: XIX yüzilliyin ikinci yarısında Azərbaycanda neft sənayesinin inkişafı necə baş verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında karusel təlim üsulundan istifadə etməklə dərsi qurmaq olar. Bunun üçün şagirdlərə bu üsul haqqında qısa məlumat verilsə, yaxşı olar. Bu dərs üsulunun bir qədər çox vaxt apardığını nəzərə alıb şagirdlərə nisbətən az vaxt aparan sual və tapşırıqlar verilməlidir. Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar və ya müəllimin məsləhət bildiyi digər tapşırıqlar verilə bilər.

**I qrup**
Çarizmin Azərbaycandakı neft siyasətini dəyərləndirin.

______________________________

______________________________

**II qrup**
XIX yüzilliyin ikinci yarısında neft sənayesinin yüksəlişini qiymətləndirin.

______________________________

______________________________

**III qrup**
Neft sənayesinə kapital axınını dəyərləndirin.

______________________________

______________________________

**IV qrup**
Cədvəli doldurun.

| NEFT SƏNAYESİ | | | |
|---|---|---|---|
| İnkişafa səbəb olan amillər | İnkişafı ləngidən amillər | Yaradılan zavodlar | Nəqliyyat |
| | | | |
| | | | |
| | | | |

Karusel dərs üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra, əslində, dərsin yeni mərhələsinə – **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçilir. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və “rəqiblərinin” yazdıqlarına münasibət bildirmək imkanına malik olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində etmək olar. Lakin bu zaman da ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verilir. Bu sualların əvvəlcədən hazırlanması məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı sual və tapşırıqlarla da müraciət edilə bilər:

- Nə üçün neft sənayesində baş verən yeniliklərin çoxu Azərbaycanla bağlıdır?
- Neft sənayesində emaledici müəssisələrin yaranması nə ilə bağlı idi?
- “Nobel qardaşları” şirkətinin fəaliyyətini qiymətləndirin.
- Neft sənayesinin inhisarlaşması nə ilə bağlı idi?
- Xarici kapitalın neft sənayesinə daxil olmasının hansı müsbət və mənfi cəhətləri vardır?

**Ev tapşırığı.** Şagirdlərə H.Z.Tağıyev barədə araşdırma aparıb təqdimat hazırlamaq tapşırıla bilər. Vaxt itkisinin qarşısını almaq üçün tapşırığı əvvəlcədən lövhədə yazıb şagirdləri bununla tanış etmək məqsədəmüvafiq olardı.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Bu zaman yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə şagirdləri qiymətləndirmək olar.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi** vərəqi ilə qiymətləndirmək olar. Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

## QRUP TƏQDİMATININ QİYMƏTLƏNDİRİLMƏSİ VƏRƏQİ

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetirildimi? | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Digər qruplarda səhv tapıblarmı? | | | | |
| Digər qrupun yazdıqlarına əlavə edilibmi? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |

# MÖVZU 4. SƏNAYENİN DİGƏR SAHƏLƏRİ. KƏND TƏSƏRRÜFATI

**Standartlar:**

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**Təlim məqsədləri:**

1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif sənaye sahələri və kənd təsərrüfatının inkişafı arasında əlaqələri dəyərləndirir.
2. Kənd təsərrüfatının müxtəlif sahələri üzrə ixtisaslaşmış bölgələri kontur xəritələrdə təsvir edir.

***Təlim formaları:*** kollektiv, fərdi
***Təlim üsulları:*** beyin həmləsi, mikrofon

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdləri mövcud dərsə motivə etmək elə də çətin olmayacaq. Çünki onlar əvvəlki dərsdə XIX yüzilliyin ikinci yarısında Azərbaycanda neft sənayesinin inkişafı haqqında kifayət qədər məlumat alıblar. Motivasiyanı əvvəlki dərs üzərində qurmaq olar. Bunun üçün bir neçə ümumiləşdirici cümlə ilə Azərbaycanda neft sənayesinin necə inkişaf etdiyi şagirdlərə xatırladılır, onların diqqəti sənayenin digər sahələrinə və kənd təsərrüfatına yönəldilir.

**Tədqiqat sualı: Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri müxtəlif sənaye sahələri və kənd təsərrüfatının inkişafını necə şərtləndirdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün “mikrofon” üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir. Sonra onlara bu dərs üsulunun qaydaları qısaca xatırladılır: Uşaqlara bir sual verilir. Kim ki bu haqda 0,5–1 dəqiqə danışa bilərsə, əlini qaldırır və “mikrofon” ona verilir. Onlara şərti mikrofon kimi təsəvvür edilən hansısa əşya (qələm, karandaş və s.) təklif edilir. Şagirdlərə aşağıdakı sual və tapşırıqları vermək məqsədəmüvafiq olardı:

- Azərbaycanın Rusiya imperiyasının inkişaf etməkdə olan sənayesinin xammal mənbəyinə və satış bazarına çevrilməsini əsaslandırın.
- XIX yüzilliyin ikinci yarısında Azərbaycanda metallurgiyanın inkişafını dəyərləndirin.
- “Simens qardaşları” şirkətinin Azərbaycandakı fəaliyyətini şərh edin.
- Azərbaycanda ipək emalı sənayesi necə inkişaf edirdi?
- XIX yüzilliyin ikinci yarısında Azərbaycanda pambıq istehsalının artmasını necə qiymətləndirmək olar?
- Yüngül sənayenin inkişafında H.Z.Tağıyevin rolunu dəyərləndirin.

– Azərbaycanda nəqliyyat və rabitə sisteminin inkişafını şərh edin.
– XIX yüzilliyin ikinci yarısında kənd təsərrüfatında kapitalizm əlamətlərinin yaranmasını əsaslandırın.
– XIX yüzilliyin ikinci yarısında Azərbaycanda taxılçılığın, çəltikçiliyin və biyan kökü istehsalının necə artdığını izah edin.
– XIX yüzilliyin ikinci yarısında Azərbaycanda baramaçılığın və pambıqçılığın inkişafını dəyərləndirin.
– XIX yüzilliyin ikinci yarısında Azərbaycanda sosial münasibətlər necə inkişaf edirdi?

İlk tapşırığa hazır olanlardan birinə "mikrofon" verilir. Dərs prosesində "mikrofon"un növbə ilə bir şagirddən digər şagirdə keçməsinə nəzarət edilir. Yalnız şərti mikrofonu alana söz verilir. Dərsin bu mərhələsində cavablar şərh olunmur və şagirdlər qiymətləndirilmir. Çünki bu, şagirdlərdə səhv etmək, səhv danışmaq qorxusu yarada bilər ki, bu da dərsdə onların fəallığını aşağı salar.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi bitəndən, şagirdlərin çıxışları yekunlaşandan sonra müəllim fikirlərini ifadə edib dərsin növbəti mərhələsinə keçid edə bilər. Bu zaman şagirdlərin fikirləri dinlənilir, onların da müzakirədə iştirakına şərait yaradılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Ümumiləşdirmələr apararaq dərsi yekunlaşdırmaq üçün aşağıdakı sual və tapşırıqlarla şagirdlərə müraciət edilə bilər:

– İqtisadi sahədə müstəmləkəçi siyasətin mahiyyəti nədir?
– Sizcə, nə üçün Azərbaycanda hazır məhsul istehsal edən müəssisənin açılmasına imkan verilmirdi?
– Dünya tarixində baş verən siyasi-iqtisadi hadisələrin Azərbaycana təsirini müasir dövrlə necə əlaqələndirmək olar?
– Kənd təsərrüfatının inkişafına təsir edən amilləri sadalayın.
– Nəqliyyat və rabitənin inkişafını sənayenin inkişafı ilə əlaqələndirin.
– Sənayenin və kənd təsərrüfatının inkişafının qarşılıqlı təsirini şərh edin.
– XIX yüzilliyin ikinci yarısında kənd təsərrüfatında hansı yeniliklər baş verdi?

**Yaradıcı tətbiqetmə.** Müxtəlif rəngli karandaşlardan istifadə etməklə taxılçılığın, çəltikçiliyin, bağçılığın və baramaçılığın inkişaf etdiyi bölgələri kontur xəritələrdə təsvir etmək tapşırılır.

**Ev tapşırığı.** Əlvan metallurgiya və neft sənayesinin inkişafını müqayisə edərək cədvəli tamamlamaq tapşırıla bilər.

| Neft sənayesi | | Əlvan metallurgiya |
|---|---|---|
| Fərqli cəhət | Oxşar cəhət | Fərqli cəhət |
| | | |
| | | |

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təsvir etmə

Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun **qarşılıqlı qiymətləndirmə** vərəqi verilə bilər.

## QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etmək məqsədəmüvafiqdir.

| **Meyarlar** | **1. Dostunun adı, soyadı** ______ ______ | **2. Dostunun adı, soyadı** ______ ______ | **3. Dostunun adı, soyadı** ______ ______ |
|---|---|---|---|
| Verilən suala düzgün cavab verdimi? | | | |
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb və fikrini izah etdimi? | | | |
| Nəticə çıxarılıbmı? | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | |
| Başqa fikirlərə maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# MÖVZU 5. MİLLƏTİN FORMALAŞMASI

**Standart:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

**Təlim məqsədi:**

Millətin formalaşmasını zaman baxımından qiymətləndirir.

***Təlim forması:*** böyük qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, fasiləli oxu

**Dərsin gedişi**

**Motivasiya.** Lövhədə aşağıdakı sözlər yazılır. Yaxud əvvəlcədən hazırlanmış ağ plakatda aşağıdakı açar sözləri yazıb lövhədən asmaq olar.

| |
|---|
| Çeçen, türk, rus, fars, ləzgi, avar, gürcü, talış, özbək, qazax, tat, azərbaycanlı və s. |

Şagirdlər açar sözlərlə tanış olandan sonra onlara “Bu sözləri necə qruplaşdırmaq olar?” sualı verilir. Şagirdlər öz fərziyyələrini bildirdikdən sonra onların diqqəti Azərbaycana, ölkəmizdə yaşayan xalqlara və azərbaycanlı sözünə cəlb edilir. Bu barədə şagirdlərlə kiçik müzakirə təşkil edib dərsin motivasiyası qurula bilər.

**Tədqiqat sualı: Azərbaycanda millətin formalaşması necə baş verdi?**

**Tədqiqatın aparılması.**

Bu mərhələni həyata keçirmək üçün **fasiləli oxu** üsulundan istifadə etmək olar. Onlara növbə ilə mövzunu oxutdurub müəyyən hissələrdə fasilələrə yol verilir. Şagirdlərin səviyyəsindən asılı olaraq, bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək olar.

– Azərbaycanda burjuaziya və fəhlə təbəqələrinin çoxmillətli olmasının səbəbi nə idi?
– Millətlə xalqın oxşar və fərqli cəhətləri nələrdir?
– Azərbaycanda millətin formalaşmasının ilkin şərtləri hansılardı?
– Azərbaycanda millətin formalaşması prosesinin hansı özünəməxsus xüsusiyyətləri vardı?
– Milli mətbuatın yaranmasının ədəbi dilin inkişafına hansı təsiri oldu?

Dərslikdə öz əksini tapmış bu kimi suallar şagirdlərlə müzakirə edilir. Onların düşüncələrinə hörmətlə yanaşılır. Çünki bu yaş dövründə uşaqlar söylədikləri fikrin rədd olunması ilə barışmaya bilər və bu da onların həvəsdən düşməsinə səbəb olar. Verilən suallar əvvəllər əldə olunmuş biliklərin üzə çıxmasına şərait yaradacaq. Şagirdlər həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə

faktlar söyləyəcəklər. Təqdim edilən izah onların əlaqələndirmə bacarığının formalaşmasına istiqamət verəcəkdir.

Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin dəyərləndirilməsi həyata keçirilir. Onlar öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamlar lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd edilir. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə edilməsi zamanı lazım olacaq. Fasiləli oxu müddətində təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalar, xüsusilə də mənbələr diqqət mərkəzində saxlanılmalıdır.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edilə bilər. Əlavə olaraq şagirdlərə XIX əsrin ikinci yarısında Azərbaycanda ilk milli mətbuatın yaranması, vətənpərvər ziyalılarımızın milli şüurun inkişafına verdiyi töhfələr barədə sual və tapşırıqlar vermək olar. Alınan cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da dərsin bu mərhələsini yekunlaşdırmaq olar. Yaddan çıxarmaq lazım deyil ki, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş sualları əvvəlcədən hazırlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Yekun olaraq şagirdlər “XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda yeni sosial təbəqələrin meydana gəlməsi, ali təhsilli ziyalıların sayının artması, vətənpərvər ziyalılar tərəfindən azərbaycançılıq ideyasının təbliğ olunması milli azadlıq hərəkatının başlanmasına təkan verdi” qənaətinə gələ bilərlər.

Müzakirə zamanı aşağıdakı sual və tapşırıqları səsləndirməklə nəticələrin çıxarılmasına istiqamət vermək olar:

- XIX əsrin II yarısında Azərbaycanda sosial münasibətlərdə hansı dəyişikliklər meydana gəldi?
- Azərbaycanda millətin formalaşması necə baş verdi?
- XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin səbəbi nə idi?
- Azərbaycan millətinin formalaşması xüsusiyyətlərini təhlil edin.
- XIX əsrin ikinci yarısında Azərbaycanda yaranan yeni təbəqələr hansılardır?
- Azərbaycanda millətin formalaşması prosesini zaman baxımından dəyərləndirin.

**Yaradıcı tətbiqetmə.** Şimali Azərbaycanda rus müstəmləkə əsarətinə qarşı milli azadlıq hərəkatının birinci mərhələsinə aid cədvəli tamamlamaq tapşırılır.

| Əhatə etdiyi dövr | Xüsusiyyətləri |
|---|---|
| | |
| | |

**Qiymətləndirmə meyarı:** dəyərləndirmə

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Bu zaman qiymətləndirmə qaydalarına uyğun olaraq şagirdləri bilik və bacarıqlarına uyğun 4 səviyyə üzrə qiymətləndirmək olar. Bu səviyyələr meyarlara uyğun həyata keçirilməli və ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişməlidir.

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Adı və soyadı** ______________________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| QABİLİYYƏTLƏR | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

8. Bu dərsdə nələri öyrəndim?

______________________________

______________________________

9. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

______________________________

______________________________

***Şərhlər:***

______________________________

______________________________

# MÖVZU 6. XALQ HƏRƏKATI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. XIX yüzilliyin ikinci yarısında Azərbaycandakı xalq hərəkatlarını zaman baxımından qiymətləndirir.
2. Müxtəlif mənbələr əsasında Azərbaycandakı xalq hərəkatlarına dair təqdimatlar hazırlayır.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, ziqzaq

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanın yaradılması üçün şagirdlərə bu suallarla müraciət edilir:

- Hər hansı haqsızlığa qarşı etirazınızı necə bildirirsiniz?
- Hansı etiraz formalarını tanıyırsınız?
- Kəndli öz etirazlarını necə bildirə bilər?
- Sizcə, fəhlə etirazları necə ola bilər?
- Nə üçün cəmiyyətdə sosial etirazlar baş verir?

Bu sualların cavablandırılması müzakirə şəklində təşkil edilir. Motivasiya vasitəsilə şagirdləri araşdırılacaq problemə sövq edərək araşdırma meyillərini formalaşdırmaq lazımdır.

**Tədqiqat sualı: XIX yüzillikdə baş verən xalq hərəkatları nə ilə nəticələndi?**

**Tədqiqatın aparılması.** Tədqiqatı ziqzaq üsulu ilə həyata keçirmək tövsiyə olunur. Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bunun üçün şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünüb ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı və məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni qrup yoldaşlarına danışmalıdır. Bunun ardınca qruplara aşağıdakı formada tapşırıqlar verilə bilər.

**I qrup**

Zaqatala üsyanını zaman baxımından qiymətləndirin.

**II qrup**
Kəndli hərəkatlarını zaman baxımından qiymətləndirin.

______________________________________________________________

______________________________________________________________

**III qrup**
Fəhlə hərəkatlarını zaman baxımından qiymətləndirin.

______________________________________________________________

______________________________________________________________

**IV qrup**
Cədvəli doldurun.

| Xalq hərəkatları | Tarix | Səbəb | Nəticə |
|---|---|---|---|
| Zaqatala üsyanı | | | |
| Kəndli hərəkatı | | | |
| Fəhlə tətilləri | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Bu zaman təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayrılmalıdır. Təqdimatlar edilərkən şagirdlərin yarımçıq işlədikləri tapşırıqların tamamlanması üçün digər qruplardan kömək istəmək olar. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək, suallar vermək lazım gələcək. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsi təmin edilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Məlumatın mübadiləsi və müzakirəsi mərhələsi qrup təqdimatları ilə bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- Zaqatala üsyançılarının Osmanlı dövləti ilə əlaqə saxlamaqda hansı məqsədləri var idi?
- Müridizm hərəkatı ilə Zaqatala üsyanının hansı oxşar cəhətləri var idi?
- XIX yüzilliyin sonlarında Azərbaycanda kəndlilərin vəziyyətini ağırlaşdıran səbəblər hansılar idi?
- Nə üçün şifahi xalq ədəbiyyatında qaçaq hərəkatı müsbət xarakterizə edilir və tanınmış qaçaqlara dastanlar qoşulurdu?
- Necə düşünürsünüz, Azərbaycanda baş vermiş fəhlə hərəkatı nəyi sübut edə bildi?

**Yaradıcı tətbiqetmə.** XIX yüzilliyin 30-cu illərində baş vermiş üsyanlarla Zaqatala üsyanını müqayisə etmək tapşırıla bilər.

**Ev tapşırığı.** Şagirdlərə müxtəlif mənbələr əsasında "müstəmləkə zülmünə qarşı mübarizədə qaçaq hərəkatının əhəmiyyəti" adlı təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təqdimat hazırlama

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün birinci meyar nəzərə alınmalıdır. Bu məqsədlə qiymətləndiriləcək şagirdlər dərs boyu diqqətdə saxlanmalı və fəaliyyətləri izlənməlidir. Dərsin sonunda şagirdlər yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmək olar. Şagirdlərin ikinci meyar üzrə qiymətləndirilməsi onlara verilən ev tapşırığının yerinə yetirilməsindən sonra mümkün olacaqdır.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi** vərəqi ilə qiymətləndirmək olar. Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etmək məqsədəmüvafiqdir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# MÖVZU 7. CƏNUBİ AZƏRBAYCAN

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Cənubi Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Cənubi Azərbaycanın mövqeyini dəyərləndirir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, mətn üzərində iş, krosvord qurma

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyası kimi şagirdlərin diqqətini Gülüstan və Türkmənçay sülh müqavilələrinə yönəltmək, bu müqavilələrin şərtlərini xatırlamalarını istəmək olar. Bu zaman verilən suallarla onların diqqətini Cənubi Azərbaycana yönəltmək vacibdir. Yaddan çıxartmaq olmaz ki, şagirdlərə ünvanlanan suallar tədqiqat sualını almağa kömək etməlidir. Suallar aşağıdakı formada ola bilər:

– Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycan ifadəsi ilə yanaşı, hansı ifadə yarandı?
– Məlum olduğu kimi, Şimali Azərbaycan Rusiya imperiyasının tərkibində idi. Bəs Cənubi Azərbaycan?
– Sizcə, XIX yüzillikdə Qacarlar dövləti tərkibində olan Cənubi Azərbaycan siyasi cəhətdən hansı vəziyyətdə idi?

**Tədqiqat sualı: Xarici dövlətlərin strateji maraqlarında olan Cənubi Azərbaycanda siyasi və iqtisadi inkişaf necə gedirdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında mətn üzərində iş üsulu ilə dərsi qurmaq məqsədəmüvafiq olardı. Adından göründüyü kimi, bu zaman şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar və ya müəllimin məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup**

**I tapşırıq:**
1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Qacarlar ________________ hissəsi məhz Cənubi Azərbaycandan toplanan qüvvələrdən ibarət idi. Maku, Urmiya kimi xanlıqlar istisna edilməklə qalanları tədricən ləğv olunaraq vilayətlərə çevrildi. Əyalətdə ______________________________________________ hər kəs mərkəzdən göndərildiyi üçün yerli feodallar Qacarlardan narazı qalırdılar. Xalq kütlələrinin də narazılığı artmaqda davam edirdi. Çünki vəzifəli şəxslər vəzifələrinə gəlir mənbəyi kimi baxaraq xalqı soyurdular. XIX yüzilliyin sonlarında Cənubi Azərbaycanın təsərrüfat həyatında yeniliklər nəzərə çarpmağa başladı. ________________ sürətli axını Cənubi Azərbaycanda təsərrüfatın inkişafına müəyyən təsir göstərirdi. Burada iqtisadiyyat müstəmləkə və asılı ölkələrə xas bir sıra xüsusiyyətlər kəsb edirdi. Qacarlar dövləti və onun bir hissəsi olan Azərbaycan İngiltərə və Rusiyanın sənaye mallarının ________________________________________ bazasına çevrilmişdi. Xarici bazarda, o cümlədən ________________ pambıq, boyaq maddələri, yun, gön-dəri kimi məhsullara, həmçinin ayrı-ayrı sənətkarlıq mallarına tələbatın artması qeyd edilən sahələrin inkişafına təkan verdi. Qadın azadlığı ilə bağlı tələblər üsyanda qadınların da iştirakına səbəb olmuşdu. Üsyan başçılarından biri ________________ idi. Xalq arasında onu Tahirə də adlandırırdılar. Zəncanı mühasirəyə alan şah qoşunu və feodal dəstələri hər tərəfdən hücuma keçdi. Üsyançıların çoxu həlak oldu. Zəncan üsyanı yatırıldı. Babilər hərəkatı yatırıldı.

**II tapşırıq:**
Cənubi Azərbaycanda baş verən mühüm hadisələrə dair xronoloji cədvəl hazırlayın.

**II qrup**

**I tapşırıq:**
1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Fətəli şahın (1797–1834) vaxtından Cənubi Azərbaycan şahın ________________ mülkü hesab edilmişdi. Təbriz isə şahın vəliəhdinin iqamətgahı idi. Bu da Azərbaycanın, xüsusilə Təbriz şəhərinin siyasi əhəmiyyətini göstərirdi. Vəliəhd burada oturduğu və Təbriz, bir növ, ikinci paytaxt olduğu üçün ____________________________________ iqamətgahları da burada yerləşirdi. Əsas sənətkarlıq sahəsi xalçaçılıq idi. Xalça istehsalı sənayedə

kapitalist münasibətlərinin inkişaf etdiyi əsas sahə idi. Təbrizdə, Marağada, Xalxalda və bəzi şəhərlərdə istehsal edilən yun və ipək yaylıqlar, şal, yun, ipək, pambıq parçalar həm Qacarlar dövlətinin ________________________ olunurdu. XIX yüzilliyin sonlarında Cənubi Azərbaycanda əhalinin çox hissəsini təşkil edən kəndlilərin çox hissəsi torpaqsız idi. Onlar ağır şərtlərlə ________________ yardarlara çevrilirdilər. Şəhərlərdə sayı artan tacirlər varlandıqca mülklər alaraq özlərini mülkədarlara bənzədirdi. Feodal zülmündən və yoxsulluqdan təngə gələn əhali doğma yurdlarını tərk edərək qonşu dövlətlərə, əsasən də ____________ işləməyə – kəsbkarlığa gedirdi. 1891-ci ilin martında Nəsirəddin şah Qacar bütün ölkə ərazisində ____________ ________________ ingilislərlə müqavilə imzaladı. Şirkət bunun müqabilində əldə edəcəyi qazancdan Qacarlar hökumətinə ildə az bir məbləğ ödəməyi öhdəsinə götürdü. Buna cavab olaraq, Təbriz əhalisinin böyük əksəriyyətinin imzası ilə şaha göndərilən tələbnamədə tütün və tənbəki inhisarının ləğv edilməsi tələb olundu. Tehranda əhali inhisarın ləğv edilməsi tələbi ilə 1892-ci ildə şah sarayına hücum etdi. Bütün bunlar şahı məcbur etdi ki, şirkətin başçısı Talbotla bağlanmış müqaviləni ləğv etsin.

**II tapşırıq:**
Cədvəli doldurun.

| Torpaq mülkiyyəti formaları | |
|---|---|
| | Dövlətə məxsus torpaqlar |
| **Mülk** | |
| | Dini idarələrə, mədrəsələrə, ruhanilərə bağışlanan torpaqlar |
| | Hərbi və ya mülki xidmət müqabilində verilən şərti torpaqlar |
| **İlati** | |
| **Xırdamalik** | |

**III qrup**

**I tapşırıq:**
1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

XIX yüzilliyin ortalarında Cənubi Azərbaycan əhalisinin əsas məşğuliyyəti kənd təsərrüfatı ________________ idi. Cənubi Azərbaycan İranın ən məhsuldar ərazisi və əsas "taxılçılıq və heyvandarlıq bazası" idi. Bu əyalətdə təbii, qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və meyvə-tərəvəz becərilirdi. Bununla yanaşı, texniki bitkilər,

o cümlədən pambıq, tütün əkilir və barama yetişdirilirdi. Becərilən məhsullar, xüsusən də taxıl, pambıq və quru meyvə ____________________ olunurdu. XIX yüzillikdə Cənubi Azərbaycanda xalisə, mülk, tiyul, vəqf, ilati kimi əsas torpaq mülkiyyət formaları var idi. Dövlətə məxsus torpaqlar olan xalisə icarəyə verilir və ya məmurlar tərəfindən idarə edilirdi. Bu torpaqların idarə edilməsi yarıtmaz halda olduğundan ______________________ haqqında fərman verildi. Bütün Qacarlar dövlətində əkinəyararlı torpaqların əksəriyyətini mülk təşkil edirdi. Bununla yanaşı, xırdamalik adlanan torpaq mülkiyyəti formaları da var idi. Kəndlilərin və ya kiçik mülkədarların əlində olan bu cüzi torpaq payları, əsasən, ____________________ ________________. Bu dövrdə Cənubi Azərbaycanda mövcud olan ən əsas problemlərdən biri də, ____________________________________________ taxıl möhtəkirliyi ilə məşğul olması idi. Onlar süni taxıl qıtlığı yaradaraq taxılın qiymətini süni şəkildə qaldırırdılar. 1898-ci ildə Təbrizdə buna qarşı çıxışlar baş qaldırdı. Üsyana ______________ adlı bir qadın başçılıq edirdi. Üsyançılar ərzaq anbarlarını dağıdaraq kasıblara taxıl paylayırdılar. Qorxuya düşən möhtəkirlər anbarlarını açıb ərzaq məhsullarını ucuz qiymətə əhaliyə satmağa məcbur oldular.

**II tapşırıq:**

Cədvəli doldurun.

| Torpaq mülkiyyəti formaları | |
|---|---|
| **Xalisə** | |
| | Dövlətə məxsus torpaqlar |
| **Tiyul** | |
| | Kəndlilərin və ya kiçik mülkədarların əlində olan torpaq payları |
| **Vəqf** | |
| | Ayrı-ayrı tayfalara xidmət müqabilində verilən və əsasən, otlaqlardan ibarət torpaqlar |

**IV qrup**

**I tapşırıq:**

1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Türkmənçay müqaviləsinə görə Azərbaycanın Araz çayından cənubdakı torpaqları Qacarlar dövlətinin tabeliyində qalmışdı. Qacarlar dövlətinin ______________________ birinə çevrilən Cənubi Azərbaycanda ilk vaxtlar yerli Azərbaycan xanları mötəbər vəzifələrə təyin olunurdular. Qacarlar bəzi nüfuzlu xanların hakimiyyətini tanımaqla yanaşı, onların

daxili müstəqilliklərini qəbul etməli olmuşdu. Dövlət onların daxili işlərinə qarışmır, ______ ________________________________ tələb edirdi. Kənd təsərrüfatının inkişafı ölkədə xarici bazarlar üçün mal ixrac edən müxtəlif sənətkarlıq sahələrinin formalaşmasına geniş imkanlar açırdı. Şəhərlərdə xalça, ayaqqabı, saxsı və ya mis qab-qacaq, digər məişət əşyalarının, təsərrüfat alətlərinin istehsalı xeyli inikşaf etmişdi. Lakin ________________ ____________________ əldə etdikləri imtiyazlar nəticəsində Cənubi Azərbaycan sənətkarlığının bir çox sahələrinə böyük ziyan dəydi. Belə ki xarici ____________________ ölkəyə geniş miqdarda və maneəsiz axını ilə bağlı buradakı bir sıra emalatxana və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətlərini dayandırmalı oldu. Böyük torpaq sahələri iri mülkədarların əlində toplanmışdı. Onlar öz mülklərində istədikləri kimi vergi toplayır, kəndliləri istismar edirdilər. Dövlətin topladığı əsas vergi **torpaq pulu** idi. Sabit olan bu vergi kəndlilərin əldə etdiyi məhsulun 10%-nə bərabər hesablanırdı. Feodal quruluşunun böhranı və xarici kapitalın ölkəyə müdaxiləsi ilə əlaqədar sosial ziddiyyətlərin kəskinləşməsi XIX yüzilliyin ortalarında antifeodal xalq üsyanlarına səbəb oldu. Onlardan ən güclüsü Babilər üsyanıdır. ______________ illəri əhatə edən Babilər hərəkatının ən güclü üsyanı 1850-ci ildə ______________ baş verdi. Əsas etibarilə kəndli və sənətkarlardan ibarət olan babilərin arasında çoxlu tacir və xırda ruhanilər də var idi.

**II tapşırıq:** Cənubi Azərbaycanda baş verən mühüm hadisələrə dair xronoloji cədvəl hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər mətn üzərində işləyən zaman qrupların gəldiyi nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

– Hansı faktlara əsasən Cənubi Azərbaycanın Qacarlar dövləti tərkibində xüsusi rola malik olduğunu qiymətləndirmək olar?
– Cənubi Azərbaycanın müxtəlif təsərrüfat sahələrinin inkişafını dəyərləndirin.
– Cənubi Azərbaycan əhalisinin narazılıqlarının səbəblərini izah edin.
– Sizcə, nəyə görə Cənubi Azərbaycan iqtisadiyyatı Rusiyadan daha çox asılı idi?
– Cənubi Azərbaycanda baş qaldıran xalq çıxışlarının səbəbləri hansılar idi?
– Xalq çıxışlarının məğlubolma səbəblərini nə ilə izah edə bilərsiniz?
– Xarici dövlətlərin Cənubi Azərbaycanda hansı maraqları var idi?

**Yaradıcı tətbiqetmə.** Cənubi Azərbaycanla bağlı 6-7 sözdən ibarət krosvord hazırlamaq tapşırıla bilər.

**Ev tapşırığı.** Cənubi Azərbaycanda olan torpaq mülkiyyəti formaları haqqında təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə:** cədvəl hazırlama, dəyərləndirmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Dərsin sonunda nəzərdə tutulan şagirdləri yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmək olar.

Dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə edilə bilər:

- Dərsdə yeni nə öyrəndiniz?
- Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
- Sizə nə aydın olmadı?
- Yeni materialın öyrənilməsi sizə necə təsir bağışladı?
- Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?
- Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və s.

# MÖVZU 8. MƏDƏNİYYƏT
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövcud paraqraf dərsliyin 42–49-cu səhifələrini əhatə edir. Paraqrafın tədrisinə iki saat ayrılmışdır.

– Birinci saat dərsliyin 42-ci səhifəsindən başlayır və 46-cı səhifəsindəki "Ədəbiyyat" yarımbaşlığına qədər olan materialların tədqiq edilməsinə hesablanmışdır.
– İkinci saatda isə dərsliyin 46-cı səhifəsindəki "Ədəbiyyat" yarımbaşlığından 50-ci səhifəyədək olan materialların tədqiq edilməsi üçün nəzərdə tutulmuşdur.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü dərs deyən müəllim təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilər.

**Standartlar:**

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.
5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Təlim məqsədləri:**

1. XIX yüzillikdə Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
2. XIX yüzillikdə Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini dünya mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.
3. XIX yüzillikdə Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

***Təlim formaları:*** kiçik qrupla və fərdi iş
***Təlim üsulları:*** klaster, təqdimat

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı motivasiya üçün – təhsil, elm, qəza məktəbləri, M.F.Axundzadə, H.Zərdabi və s. bu kimi açar sözlərdən istifadə etmək olar. Açar sözlərin təqdim edilməsini **klaster** üsulu ilə reallaşdırmaq olar. Yaxud XIX yüzilliyə aid mədəniyyət nümunələrini şagirdlərə təqdim etməklə də motivasiya qurmaq mümkündür. Və ya İKT resurslarından istifadə etməklə, muzeylərə virtual səyahət həyata keçirməklə dövrün mədəniyyət nümunələrini, ya da ölkələrin mədəniyyəti ilə bağlı internetdə yerləşdirilən materialları şagirdlərə göstərmək olar. Bu zaman şagirdlərə diqqətli olmaq tapşırılır. Təqdim edilən mədəniyyət nümunələrinin və ya nümunələr əsasında hazırlanmış videoçarxın nümayişi bitdikdən sonra onlar şifahi sual-cavabdan sonra dövrə aid mədəniyyət xadimləri, abidələr haqqında danışa bilərlər. Əgər məktəbdə İKT imkanları yoxdursa, bu mərhələni

şagirdlərin əvvəlki biliklərinə və təcrübələrinə əsasən şifahi şəkildə suallar verməklə də həyata keçirmək olar. Şagirdlər müxtəlif fərziyyələr söylədikdən sonra tədqiqat sualı verilir.

**Tədqiqat sualı: XIX yüzillikdə Azərbaycanda elm və təhsil hansı inkişaf yolunu keçdi?**

**Tədqiqatın aparılması.**

Bu mövzunun tədrisi zamanı **təqdimat** üsulundan istifadə etmək mümkündür. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm cüt, həm də qrup şəklində verilməsi məqsədəuyğundur. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa cəlb etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagirdin özünü qiymətləndirməsində də səmərəlidir.

Təqdimatın həyata keçirilməsi zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar. Onlarda tənqidi təfəkkürü formalaşdırmaqla hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyətini aşılamaq əsas məqsədlərdən biridir. Şagirdlər verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

Didaktik təfəkkür vasitəsilə hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etdirmək nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə şagirddə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat, sistemləşdirmə, təqdimatı hazırlayıb təqdim etmək bacarıqları da formalaşır.

**I qrup**

Dünya təhsilinin xarakterik əlamətləri ilə müqayisədə XIX yüzillikdə Azərbaycanda mollaxana və mədrəsə təhsilinin xarakterik əlamətlərini şərh edin.

______________________________________________

______________________________________________

**II qrup**

Dünya təhsilinin xarakterik əlamətləri ilə müqayisədə XIX yüzillikdə Azərbaycanda qəza, gimnaziya və "üsuli-cədid" məktəblərinin xarakterik əlamətlərini şərh edin.

______________________________________________

______________________________________________

**III qrup**

XIX yüzillikdə Azərbaycanın tarixçi alimlərinin nailiyyətlərinə dair araşdırmalar aparıb, nəticələrini təqdim edin.

______________________________________________

______________________________________________

**IV qrup**

XIX yüzillikdə Azərbaycanda müxtəlif elm sahələri ilə məşğul olan alimlərin nailiyyətlərinə dair araşdırmalar aparıb, nəticələrini təqdim edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Təqdimatda öz əksini tapmış cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

Qruplar meyarlar əsasında qiymətləndirilir. Meyarlar cədvəli öncədən sinifdə asılır və ya lövhədə göstərilir ki, şagirdlər nəyin əsasında qiymətləndiriləcəklərini bilsinlər.

| Qruplar | Tapşırığın düzgün hazırlanması | Əməkdaşlıq | Vaxta qənaət | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər artıq XIX yüzillikdə Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini şərh etməklə yanaşı, XIX yüzillikdə Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini dünya mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə etməyi, XIX yüzillikdə Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparıb, nəticələrini təqdim etməyi bacaracaqlar.

Mövzu üzrə nəticələrin çıxarılması üçün aşağıdakı sual və tapşırıqlardan istifadə edilə bilər:

- Qəza məktəblərinin açılması hansı zərurətdən irəli gəlirdi?
- XIX yüzilliyin 30–40-cı illərində qəza məktəblərində azərbaycanlı uşaqların az olmasını nə ilə izah edərdiniz?
- “Üsuli-cədid” məktəblərinin yaranmasını zəruri edən səbəblər hansılar idi?
- Sizcə, “üsuli-cədid” məktəblərinin yaranmasının xalqın maariflənməsinə nə kimi təsiri oldu?
- Təhsilin inkişafında kitabxananın rolunu izah edin.
- Sizcə, tarix elminə marağın artması nə ilə bağlı idi?
- Azərbaycanda elmin inkişafında hansı nailiyyətləri sadalaya bilərsiniz?

**Yaradıcı tətbiqetmə.** Məktəb və mədrəsələri müqayisə etmək tapşırıla bilər.

| Məktəb | | Mədrəsə |
|---|---|---|
| **Fərqli cəhət** | **Oxşar cəhət** | **Fərqli cəhət** |
| | | |
| | | |

**Ev tapşırığı.** XIX yüzilliyin ikinci yarısında təhsil sahəsində baş verən yeniliklərə dair cədvəl hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** şərh etmə, müqayisə etmə, təqdimetmə

Məqsədəmüvafiq meyarlara uyğun səviyyələr əsasında formativ qiymətləndirmə həyata keçirilir. Bu zaman sinfin bir neçə şagirdini formativ qiymətləndirmək olar.

Qiymətləndirmə zamanı özünüqiymətləndirmə vərəqlərindən istifadə edilə bilər.

Şagirdin adı, soyadı ____________________________________________

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

# MÖVZU 8. MƏDƏNİYYƏT
## (İKİNCİ SAAT)

**Standartlar:**

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Təlim məqsədləri:**

1. XIX yüzillikdə Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
2. XIX yüzillikdə Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş

***Təlim üsulları:*** üç cümlə, afişaların hazırlanması

**Dərsin gedişi**

**Tədqiqat sualı: XIX yüzillikdə Azərbaycanda ədəbiyyat, memarlıq və incəsənət hansı inkişaf yolunu keçdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasında aparılması tövsiyə edilir. Bu zaman fəal təlimin **üç cümlə** üsulundan istifadə edilə bilər. Bu üsulla keçilən dərs zamanı şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha kiçik həcmdə təqdim etmək tapşırığı verilir. Sonra onlara növbəti tövsiyələr xatırladılır:

– Hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir.
– Bu zaman məzmun əsas götürülür.

Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı suallar verilə bilər:

**I qrup**

XIX yüzillikdə Azərbaycanın ədəbiyyat xadimlərindən olan Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani və Qasım bəy Zakir yaradıcılığına dair araşdırmalar aparıb, nəticələrini təqdim edin.

---

---

**II qrup**

XIX yüzillikdə Azərbaycanın ədəbiyyat xadimlərindən olan İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə yaradıcılığına və aşıq poeziyasına dair araşdırmalar aparıb, nəticələrini təqdim edin.

---

---

**III qrup**
XIX yüzillikdə Azərbaycan incəsənətinin inkişafını və mətbuatın yaranmasını şərh edin.

______________________________________________________________

______________________________________________________________

**IV qrup**
XIX yüzillikdə Azərbaycan memarlığının inkişafını şərh edin.

______________________________________________________________

______________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlər cavabları müəyyən edilmiş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən edilən meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bunun üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- Sizcə, M.Ş.Vazehin əsərlərinə Avropada böyük marağın olmasının səbəbi nə idi?
- "Satiranın yaranması dövrün ictimai-siyasi hadisələrinin nəticəsidir" fikrini faktlarla sübut edin.
- Azərbaycan musiqisinin inkişafında aşıq sənətinin rolunu dəyərləndirin.
- Şəxsiyyət azadlığı nədir? Nə üçün M.F.Axundzadə əsərlərində bu problemə üstünlük verirdi?
- Teatrın inkişafı hansı amillərdən asılıdır?
- Milli mətbuatın yaranmasının əhəmiyyətini izah edin.
- Memarlığın inkişafında milli burjuaziyanın rolu nədən ibarət olmuşdur?
- Şəhərsalma işləri ilə bağlı yeniliklərin Şamaxıya aid olmasının səbəbi nə idi?

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə "Milli teatrın əsasının qoyulması Azərbaycan mədəni həyatında mühüm hadisə" başlıqlı afişa hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** S.Ə.Şirvaninin yaradıcılığı ilə bağlı əlavə məlumat toplayaraq təqdim etmək tapşırığı verilir.

**Qiymətləndirmə meyarları:** şərh etmə, təqdimetmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək olar. Yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmə aparmaq olar.

Dərsin sonunda qrupları aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi** vərəqi ilə qiymətləndirmək olar. Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etmək məqsədəmüvafiqdir.

## QRUP TƏQDİMATININ QİYMƏTLƏNDİRİLMƏSİ VƏRƏQİ

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Şərh etmə və ya təqdimetmə meyarlarına nə səviyyədə cavab verildi? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetirildimi? | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli idi? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |

# MÖVZU 9. SƏNAYENİN VƏZİYYƏTİ. KƏND TƏSƏRRÜFATI

**Standart:**

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədi:**

Müstəmləkə rejimi şəraitində Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük qruplarla və fərdi iş
***Təlim üsulları:*** beyin həmləsi, bir dəqiqə

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərsin motivasiyasını əvvəlki paraqraflarda əldə edilən bilgilər üzərində qurmaq olar. Bu zaman XIX yüzillikdə Şimali Azərbaycanda sənayenin və kənd təsərrüfatının vəziyyəti qısa şərh edilə və bu məsələyə aid bir neçə yönləndirici sual qoyula bilər. Şagirdlər fərziyyələr irəli sürdükdən sonra onların fikri əsas hədəfə cəmlənir. Verilmiş cavablar sistemləşdirildikdən sonra tədqiqat sualı elan oluna bilər.

**Tədqiqat sualı: XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın sosial-iqtisadi həyatında hansı dəyişikliklər baş verdi?**

**Tədqiqatın aparılması.**

Tədqiqatın aparılmasını reallaşdırmaq üçün **bir dəqiqə** üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə materialla tanışlığa vaxt verib onlara bu dərs üsulunun qaydaları xatırladılır ("Materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə bildiriləcək. Siz də, öz növbənizdə, səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz"). Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan yararlanmaq məqsədəuyğundur:

- 1900–1903-cü illər iqtisadi böhranının sənayeyə təsirini təhlil edin.
- Sənayenin 1900–1903-cü illər iqtisadi böhranından sonrakı dövrünü şərh edin.
- Neft sənayesində durğunluğun əsas səbəblərini təhlil edin.
- XX yüzilliyin əvvəllərində "Simens qardaşları" şirkətinin Azərbaycandakı fəaliyyətini təhlil edin.
- XX yüzilliyin əvvəllərində yüngül və yeyinti sənayesinin vəziyyətini necə qiymətləndirərdiniz?
- 51-ci səhifədəki mənbə əsasında Bakı Şəhər Dumasının şəhərin su təchizatı ilə bağlı müzakirəyə çıxardığı layihəni şərh edin.

- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın kənd təsərrüfatının vəziyyətini təhlil edin.
- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın kənd təsərrüfatının inkişafına mane olan səbəblər hansılar idi?
- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda həyata keçirilən köçürmə siyasətini necə qiymətləndirərdiniz? Fikrinizi əsaslandırın.
- 1900-cü ildə qəbul edilmiş yeni aqrar qanunları təhlil edin.
- 1912-ci il tarixli "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında" qanunu təhlil edin.
- Şimali Azərbaycanda sahibkar kəndlilərinin pay torpaqlarını satın alaraq öz mülkiyyətinə çevirə bilməməsinin səbəblərini müəyyən edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra fərdi işlərin nəticələri ümumiləşdirilir. Müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldir. Tədqiqat sualına cavab tapılır. Dərsin bu mərhələsində aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar:

- Siyasi hadisələrin sosial-iqtisadi həyata təsirlərini dəyərləndirin.
- Neft sənayesində ABŞ-nin birinciliyi qazanmasının səbəblərini izah edin.
- Köçürmə siyasəti hansı siyasi və sosial-iqtisadi məqsədlər daşıyırdı?
- Təbii-coğrafi şərait sosial-iqtisadi vəziyyətə necə təsir göstərə bilər?
- Dövlət kəndliləri haqqında tədbirlərin hansı müsbət və mənfi nəticələri oldu?
- 1900-cü il və 1912–1913-cü illərdə qəbul edilmiş aqrar qanunların hansı fərqli cəhətləri var idi?
- 1912–1913-cü illərdə qəbul edilmiş aqrar qanunların nəticələrini kəndlilərin mənafeyi ilə əlaqələndirərək dəyərləndirin.

**Yaradıcı tətbiqetmə.** XX yüzilliyin əvvəllərində neft və mis sənayesini müqayisə etmək tapşırıla bilər.

| Neft sənayesi | | Mis sənayesi |
|---|---|---|
| **Fərqli cəhət** | **Oxşar cəhət** | **Fərqli cəhət** |
| | | |
| | | |

**Qiymətləndirmə meyarı:** təhliletmə

Göstərilən meyar əsasında şagirdlərin formativ qiymətləndirməsi həyata keçirilir. Formativ qiymətləndirməni müxtəlif vasitələrdən istifadə etməklə də reallaşdırmaq olar.

Belə qiymətləndirmə vasitələrindən biri də şagirdin qarşılıqlı qiymətləndirmə vərəqi ola bilər.

## QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etmək məqsədəmüvafiqdir.

| **Meyarlar** | **1. Dostunun adı, soyadı** ____________ ____________ | **2. Dostunun adı, soyadı** ____________ ____________ | **3. Dostunun adı, soyadı** ____________ ____________ |
|---|---|---|---|
| Verilən suala düzgün cavab verdimi? | | | |
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb və fikrini izah etdimi? | | | |
| Nəticə çıxarılıbmı? | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | |
| Başqalarına maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# MÖVZU 10. MİLLİ-DEMOKRATİK HƏRƏKAT
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövcud paraqrafı tədris etmək üçün 2 saat verilir. Paraqrafın saatlar üzrə bölgüsü aşağıdakı qaydada tövsiyə edilir:

- Birinci dərsdə tədqiqat üçün dərsliyin 54-cü səhifəsindən başlayaraq 59-cu səhifədəki “Azərbaycanlı deputatlar Dövlət dumalarında” yarımbaşlığına qədərki məlumatlar nəzərdə tutulmuşdur.
- İkinici dərsdə isə dərsliyin 59-cu səhifəsindəki “Azərbaycanlı deputatlar Dövlət dumalarında” yarımbaşlığından paraqrafın sonuna qədərki (62-ci səhifəyədək) materiallar tədqiqat üçün ayrılmışdır.

Bu bölgü mütləq deyil. Mövcud bölgünü dəyişmək və yeni bir bölgü yaratmaq dərs tədris edən müəllimin səlahiyyətindədir.

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

**Təlim məqsədləri:**

1. XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
2. XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, fasiləli oxu, müzakirə

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün açar sözlərdən istifadə edilə bilər. Buna görə şagirdlərin oxuya bilməsi üçün lövhədə “mitinq, tətil, hərəkat, inqilab, təşkilat, partiya, konstitusiya, hüquq və azadlıq” kimi açar sözlər yazılır (texniki imkanlar varsa, bunu proyektorun köməyi ilə slaydlar formasında da vermək olar), daha sonra şagirdlərə aşağıdakı formada suallar ünvanlanır:

- Bu sözlər sizə tanışdırmı?
- Açar sözlər haqqında nə deyə bilərsiniz?
- Açar sözləri birləşdirən ümumi cəhət hansılardır? və s.

Şagirdlərin fərziyyələri dinlənilir. Aldığınız cavablar ümumiləşdirilib əlavələr edilir. Motivasiya baş tutduqdan sonra tədqiqatın aparılması mərhələsi reallaşdırılır.

**Tədqiqat sualı: XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda milli-demokratik hərəkat necə inkişaf etdi?**

**Tədqiqatın aparılması.**

Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu üsulla dərsi keçən zaman şagirdlərə növbə ilə mövzunu oxudub müəyyən hissələrdə fasilələrə yol verilir. Mövzuarası verilmiş sual və tapşırıqlarla bu fasiləni təmin etmək olar. Şagirdlərin səviyyəsindən asılı olaraq, bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək olar. Və bu zaman da şagirdlərə dərslikdə verilmiş və ya əvvəlcədən hazırlanan suallarla müraciət edilə bilər.

- Uzun iş günü və ağır fiziki əmək uşaqların həyatına necə təsir göstərirdi?
- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən fəhlə hərəkatını necə qiymətləndirərdiniz?
- Kəndli çıxışlarının Azərbaycanda milli-demokratik hərəkatın tərkib hissələrindən biri olduğunu necə əsaslandıra bilərsiniz?
- Şimali Azərbaycanda milli-demokratik hərəkatın yeni mərhələsi əvvəlki mərhələdən hansı fərqli cəhətlərə malik idi?
- Milli partiya və təşkilatların yaranmasını necə qiymətləndirərdiniz?

Sualların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşılır. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onların münasibət bildirmə, izahetmə bacarıqlarının da formalaşmasına yardımçı olar.

Yaxşı olar ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd etsin. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə edən sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalarla yanaşı, xüsusən mənbələr də diqqət mərkəzində saxlanılmalıdır. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin qiymətləndirməsi həyata keçirilə bilər. Bunun üçün aşağıdakı formada qiymətləndirmə cədvəlindən istifadə etmək olar.

**Təlimat:** Qiymətləndirdiyiniz şagirdin nömrəsini dərəcə sütunlarında yazın.

| QABİLİYYƏTLƏR | DƏRƏCƏLƏR | | | ŞAGİRDİN ADI, SOYADI |
|---|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt | |
| Müəllimin məsləhətlərini dinlədi. | | | | |
| Təlimata əməl etdi. | | | | |
| Verilən hissəni səlis oxudu. | | | | |
| Oxuduğunu anladı. | | | | |
| Mövzuya uyğun bir neçə sual verdi. | | | | |
| Verilən sualları cavablandırdı. | | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edilə bilər. Əlavə olaraq şagirdlərə milli partiya və təşkilatların yaranması barədə sual və tapşırıqlar vermək olar. Alınan cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da dərsin bu mərhələsi yekunlaşmış olur. Yaddan çıxartmaq lazım deyil ki, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş suallar əvvəlcədən hazırlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

- “Mazut konstitusiyası”na görə fəhlələrin əldə etdiyi güzəştləri müasir dövrlə əlaqələndirərək dəyərləndirin.
- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda hansı mühüm tarixi hadisələr baş verdi?
- Bu hadisələrdən hansını ən mühüm kimi dəyərləndirərdiniz? Fikrinizi əsaslandırın.
- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən milli-demokratik hərəkatı necə qiymətləndirmək olar?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirməyi və XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda milli-demokratik hərəkatın necə inkişaf etdiyini şərh etməyi bacaracaqlar.

**Yaradıcı tətbiqetmə.** Şagirdlər tədqiqat prosesində müxtəlif hadisələrin nə vaxt, necə və nə üçün baş verdiyini anlasalar da, dərsin bu mərhələsində 1.1.2. standartının tələblərini (Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.) reallaşdırmaqdan ötrü onlara aşağıdakı tapşırığı vermək məqsədəmüvafiq olardı.

**Ev tapşırığı.** XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda baş verən mühüm hadisələrə dair xronoloji cədvəl hazırlayın.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, xronoloji cədvəl hazırlama

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Bu zaman qiymətləndirmə qaydalarına uyğun olaraq sinfin şagirdlərini bilik və bacarıqlarına uyğun 4 səviyyə üzrə qiymətləndirmək olar. Bu səviyyələr meyarlara uyğun həyata keçirilməli və ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişməlidir.

# MÖVZU 10. MİLLİ-DEMOKRATİK HƏRƏKAT
## (İKİNCİ SAAT)

Mövcud paraqrafın tədrisi üçün nəzərdə tutulan ikinci saatda isə 1.2.1. (Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.) və 1.2.2. (Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.) standartlarının cütlərlə və ya kiçik qruplarla iş formasında reallaşdırılması nəzərdə tutulmuşdur. Bu zaman standartdan çıxış edərək şagirdlərin eyni hadisəyə aid yazılı mənbələrlə tanış olmasına şərait yaradılır və onlarda eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə etmə, müxtəlif mənbələr əsasında təqdimatlar hazırlama bacarıqları formalaşdırılıb inkişaf etdirilə bilər. Bununla belə, bu standartları və məqsədləri artırmaq və azaltmaq, eləcə də hər hansı standartı dəyişmək də mümkündür.

Mövcud dərsi keçmək üçün şagirdlərə dərslikdən savayı, əlavə materiallar da təklif edilə bilər. Bunun üçün lazımi materiallar əvvəlcədən hazırlanmalıdır. Təbii ki, bu materiallar dövrə (azərbaycanlı deputatların Dövlət dumalarındakı fəaliyyətinə, Rusiya müsəlmanları qurultaylarında Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin fəaliyyətinə) aid elmi əsərlərdən, məqalələrdən, müxtəlif səpkili qəzet və jurnal materiallarından, fundamental əsərlərdən müəyyən hissələr, eləcə də internet resurslarından istifadə etməklə əldə edilən məlumatlardan ibarət ola bilər.

# MÖVZU 11. ÇARİZMİN MİLLİ QIRĞIN SİYASƏTİ

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**Təlim məqsədləri:**

1. XX yüzilliyin əvvəllərində çarizmin Şimali Azərbaycanda yeritdiyi milli qırğın siyasətini zaman baxımından qiymətləndirir.
2. XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda milli qırğın törədilən əraziləri kontur xəritələrdə təsvir edir.

***Təlim formaları:*** fərdi, cütlərlə və böyük qruplarla iş
***Təlim üsulları:*** İNSERT, xəritə üzərində iş

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanı beyin həmləsi üsulunun köməyi ilə həyata keçirmək olar. Bunun üçün onlardan soyqırımının, faciənin, qırğının nə olduğu soruşulur. Fikirlərini ifadə etmək üçün onlara zaman verilir. Şagirdlərin diqqəti ermənilərin Azərbaycana köçürülməsi prosesinə yönəldilir və aşağıdakı suallarla onlara müraciət edilir:

- Necə oldu, ermənilər Azərbaycana köçürüldülər?
- Ruslar köçürülən ermənilərə hansı imkanları yaratmışdılar?
- Sizcə, erməniləri Azərbaycana köçürməkdə çarizmin məqsədi nə idi?
- Sizcə, yuxarıda səsləndirdiyimiz soyqırımı, faciə, qırğın ifadələrinin ermənilərin Azərbaycana köçürülməsi ilə nə əlaqəsi ola bilər?

Bu suallar ətrafında kiçik müzakirə aparılır. Şagirdlərdə problemin səbəbini tarixi məqamlarda axtarmaq bacarığı formalaşdırılır. Əldə edilən fərziyyələr dinləndikdən sonra onlar ümumiləşdirilib tədqiqatın aparılması üçün tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: XX yüzilliyin əvvəllərində çarizm Şimali Azərbaycanda milli qırğın siyasətini necə həyata keçirtdi?**

**Tədqiqatın aparılması:**

Tədqiqatı aparmaq üçün kollektivlə iş formasından istifadə etmək mümkündür. Sinfə məzmunla tanış olmaq üçün müəyyən vaxt verilir. **İNSERT** üsulundan istifadə etməklə oxu təşkil edilir. Və şagirdlərə tapşırılır:

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:

- Tanış olduğunuz informasiya sizə yeni deyilsə (!);
- Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə (-);
- Tanış olduğunuz məlumat təzədirsə (+);
- Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə (?).

Hər dəfə müəyyən məqamlar çıxdıqca sinfə suallarla müraciət edilir. Oxu prosesi bitdikdən sonra sinifdəki şagirdlər cütlərə ayrılır. **İNSERT** üsuluna müəyyən qədər vaxt getdiyi üçün bölgüyə zaman sərf edilmir. Şagirdlər elə öz parta yoldaşları ilə cüt yarada bilər. Cütlərə aşağıdakı suallar verilə bilər, lakin vaxta qənaət etmək üçün bunu əvvəlcədən hazırlanmış iş vərəqlərində etmək daha yaxşı olar. Çünki hər bir şagirdin nəticələri iş vərəqlərində olacaqdır. Eyni tapşırıqları müxtəlif cütlərə vermək olar. Tapşırıqlar səviyyəsinə görə paylanılsa, yaxşı olar. Aşağı səviyyəli tapşırıqlar yuxarı səviyyəli bacarıqlara malik şagirdlərə verilməməli və ya əksinə. Tapşırıqlar aşağıdakı qaydada tərtib edilə bilər:

**I cüt**

Çarizmin "parçala və hökmranlıq et" siyasətini qiymətləndirin.

---

---

**II cüt**

Erməni terror təşkilatlarının planlarını qiymətləndirin.

---

---

**III cüt**
Erməni silahlı dəstələrinin Şuşa qəzasındakı qırğınını zaman baxımından qiymətləndirin.

**IV cüt**
Ermənilərin azərbaycanlılara qarşı milli qırğına başlamasını qiymətləndirin.

**V cüt**
Şuşa əhalisinin özünü müdafiəsinin təşkilini və bunun nəticəsini qiymətləndirin.

**VI cüt**
Ermənilərin Şuşa şəhərində ikinci dəfə törətdikləri qırğını zaman baxımından qiymətləndirin.

**VII cüt**
Ermənilərin Ağdərə bölgəsindəki qırğınlarını qiymətləndirin.

**VIII cüt**
Ermənilərin Xocalıdakı qırğınlarını zaman baxımından qiymətləndirin.

**IX cüt**
Erməni-müsəlman qırğınlarına son qoyulması prosesini qiymətləndirin.

**X cüt**
"Difai" partiyasının yaradılmasını zaman baxımından qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə cütlərin cavabları dinlənilir. Siniflə bərabər düzgün cavablar dəqiqləşdirilir, səhv cavablar düzəldilir. Mübadilə mərhələsi bitdikdən sonra şagirdlərlə birlikdə aşağıdakı məsələ həll edilə bilər.

Əgər təklif edilən inteqrasiya imkanlarının tətbiqi nəzərdə tutulubsa, mütləq tövsiyə olunan standartın tələbinə baxılmalıdır. Bu vaxt standartı, sadəcə, yazmaqla kifayətlənmək olmaz. “Şagirdlərdə analiz etmə, əlaqələndirmə, sintez etmə və dəyərləndirmə kimi bacarıqların formalaşmasında inteqrasiya vacib amillərdən biridir” – deyilsə, yanlış olmaz.

Cütlərin işi müzakirə olunarkən sual doğuran məqamlara aydınlıq gətirilərsə, işin səmərəli alınmasına şərait yaranar. Müzakirənin sonunda nəticə çıxarılır.

Cütlərə verilmiş tapşırıqlar sonda tədqiqat sualına cavab tapmaq üçün yardımçı olmalıdır. Hər bir cüt öz işini qısa və konkret şəkildə təqdim edərsə, vaxt problemi ilə üzləşməzsiniz. Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

| Cütlərdə işləyən şagirdlərin adları | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bəzən müəllimlər “nəticənin çıxarılması” dedikdə bunu gəldikləri nəticəni şagirdlərə çatdırmaq və ya dərslikdəki mövzuda yazılmış nəticəni təqdim etmək kimi başa düşürlər. Düzdür, ənənəvi təlim zamanı belə nəticə həyata keçirilirdi. Amma şəxsiyyət yönümlü təhsilin əsas götürüldüyü bir vaxtda belə nəticə çıxarmaq müəllim yönümlü olacaqdır. Nəticələrin çıxarılmasında mövzu və müəllim yardımçı qüvvə olsa da, burada məqsəd şagirdin gəldiyi nəticədir. Müəllim qarşıya qoyduğu məqsədə uyğun olaraq şagirdlərdə bilik və bacarıqların inikasını formalaşdırmalıdır.

Nəticədə şagirdlər XX yüzilliyin əvvəllərində çarizmin Şimali Azərbaycanda milli qırğın siyasətini necə həyata keçirdiyini zaman baxımından qiymətləndirir.

Bu mərhələdə aşağıdakı sual və tapşırıqlardan istifadə edilə bilər:

- Sizcə, çar hökuməti milli ədavəti qızışdırmaqla hansı məqsədlərə nail olmaq istəyirdi?
- Nə üçün qırğınlar əvvəlcə Bakıda törədildi?
- Sizcə, nə üçün ermənilərin niyyətləri həyata keçmədi?
- Azərbaycan xalqının milli birliyi özünü nədə göstərdi? Belə birliyə ehtiyac çox idimi?
- “Difai” partiyasının fəaliyyətini azərbaycanlıların təşkilatlanması baxımından necə dəyərləndirərdiniz?

**Yaradıcı tətbiqetmə.** Şimali Azərbaycanda milli qırğın törədilən əraziləri kontur xəritələrdə təsvir etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, xəritədə təsvir etmə

Dərs boyu tətbiq edilən bütün nüanslar qiymətləndirmə zamanı öz əksini tapmalıdır. Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olmaq lazımdır. Sinfin səviyyəsi nəzərə alınmalıdır. Tapşırıqlar verərkən inteqrasiya edilmiş standartların tələblərini unutmayın. Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi səviyyələr üzrə aparılmalıdır. Bu səviyyələr şagirdlərin bilik və bacarıqlarının nəticəsi olaraq dörd formada ola bilər. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onların ev tapşırığını icra edib təhvil verməsi və onların yoxlanılmasından sonra mümkün ola bilər.

Şagirdləri qiymətləndirmək üçün aşağıdakı özünüqiymətləndirmə vərəqindən də istifadə edilə bilər.

Şagirdin adı, soyadı ____________________

| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Məntiqli yanaşmam var idi. | Dərsdə diqqətli idim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

# MÖVZU 12. CƏNUBİ AZƏRBAYCANDA MƏŞRUTƏ İNQİLABI

**Standartlar:**

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

**Təlim məqsədləri:**

1. Müstəmləkə rejimi şəraitində Cənubi Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişiklikləri təhlil edir.
2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Cənubi Azərbaycanın mövqeyini dəyərləndirir.
3. Cənubi Azərbaycandakı Məşrutə inqilabı ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

***Təlim formaları:*** böyük qruplarla və cütlərlə iş
***Təlim üsulları:*** beyin həmləsi, iş vərəqləri ilə iş

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya kimi şagirdlərə dünyanın hər hansı bir ölkəsində baş vermiş (*Burada seçim müxtəlifliyi ola bilər. Əsas odur ki, seçdiyiniz inqilabi hərəkatla Məşrutə hərəkatını əlaqələndirməyi bacarasınız.*) inqilabi hərəkat, onun başlanma səbəbləri haqqında qısaca məlumat verilə bilər. Daha sonra şagirdlərə XX əsrin əvvəllərində Qacarlar dövlətinin, o cümlədən Cənubi Azərbaycanın siyasi vəziyyəti ilə bağlı qısa məlumat verib aşağıdakı suallarla müraciət etmək olar:

– Sizcə, Qacarlar dövlətində ağır şəraitdə yaşayan xalq kütlələrinin istəyi nə ola bilərdi?
– Əgər şah bu istəkləri qəbul etməsə idi, nə baş verə bilərdi?

Cavabları sistemləşdirib onları əlaqələndirdikdən sonra tədqiqat sualını elan etmək olar.

**Tədqiqat sualı: Cənubi Azərbaycan Məşrutə inqilabında hansı rolu oynadı?**

**Tədqiqatın aparılması.**

Dərsin cütlərlə iş formasında keçilməsi məqsədəmüvafiqdir. Bu zaman şagirdləri cütlərə bölərək hər cütə iş vərəqləri paylanır. Əgər sinifdə şagirdlərin sayı çoxdursa, üstünlük verdiyiniz hər hansı iş vərəqini və ya vərəqləri təkrarən paylamaq olar. Bu, sonda həm müəllimin işini yüngülləşdirər, həm də eyni problemin həllinə müxtəlif yanaşma formasının meydana gəlməsinə şərait yaradar.

**I cüt**

Yarımmüstəmləkə rejiminin hökm sürdüyü Cənubi Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişiklikləri təhlil edin.

**II cüt**

Məşrutə hərəkatının başlanması şəraitini təhlil edin.

**III cüt**

Qacarlar dövlətində konstitusiyanın qəbulunu qiymətləndirin.

**IV cüt**

Cənubi Azərbaycanda əncumənlərin yaradılmasını dəyərləndirin.

**V cüt**

Səttarxanın başçılığı ilə Təbrizdə silahlı üsyanın başlanmasını təhlil edib dəyərləndirin.

**VI cüt**

67-ci səhifədəki mənbədən çıxış edərək Cənubi Azərbaycanda Məşrutə hərəkatını qiymətləndirin.

**VII cüt**

Məşrutə hərəkatının məğlubolma səbəblərini təhlil edin.

**VIII cüt**

Xarici dövlətlərin strateji maraqlarında Cənubi Azərbaycanın mövqeyini dəyərləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cütlərlə iş bitdikdən sonra şagirdlər iş vərəqlərini lövhədən asıb müəyyən olunmuş zaman ərzində təqdimatlarını edirlər. Bu vaxt cütlərin hazırladığı cavablar diqqətlə dinlənilməli, müzakirə olunub əlavələr edilməlidir. Yerdəki şagirdlərə cütlərin təqdimatlarına diqqətlə qulaq asmaq, müzakirələrdə fəal iştirak etmək tapşırığını vermək dərsin bu mərhələsinin daha canlı alınmasına kömək edər. Eləcə də şagirdlərin qiymətləndirilməsi zamanı əlavə imkanlar yaradar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab almaq olar:

- Konstitusiyanın qəbul olunmasını zaman baxımından necə qiymətləndirərdiniz?
- XX yüzilliyin əvvəllərində Qacarlar dövlətində əhali arasında narazılığı şərtləndirən səbəblər hansılardır?
- Səttarxanın fədai dəstələri yaratmaqda məqsədi nə idi?
- Səttarxanın Məşrutə hərakatındakı rolunu necə dəyərləndirərdiniz? Fikrinizi əsaslandırın.
- Nə üçün xarici dövlətlər inqilabi hərəkatın yatırılmasında maraqlı idilər?
- Sizcə, Cənubi Azərbaycan Məşrutə inqilabında hansı rolu oynadı?

**Ev tapşırığı.** Cənubi Azərbaycandakı Məşrutə inqilabı ilə bağlı materiallar toplayıb təqdim etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** təhliletmə, mövqeyini dəyərləndirmə, təqdimetmə

Şagirdlərin qiymətləndirilməsi yuxarıda yazılmış meyarlar üzrə aparılmalıdır. Bu zaman hər bir meyar səviyyələr üzrə bölünməlidir. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi ev tapşırığının yerinə yetirilməsindən sonra mümkün olacaqdır.

Dərsin sonunda cütlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

### CÜTLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**QEYD:** Fəaliyyətinizi 5 ballıq şkala ilə qiymətləndirin.

| Meyarlar | Şagirdlərin adı və soyadı | |
|---|---|---|
| | 1. | 2. |
| Fəallıq səviyyəsi | | |
| Əməkdaşlıq | | |
| Qaydalara əməl olunması | | |
| Tapşırığın icrası zamanı müzakirə etmə | | |
| Ümumi rəyə gəlmə | | |
| Təqdimat etmə | | |

# MÖVZU 13. AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Birinci dünya müharibəsi illərinə dair xronoloji cədvəllər hazırlayır.
2. Azərbaycanın coğrafi mövqeyi və sosial-iqtisadi vəziyyətini dəyərləndirir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, üç cümlə

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını 9-cu sinif Ümumi tarix fənnində tədris olunan 7-ci mövzuya (Birinci dünya müharibəsi) inteqrasiya etməklə qurmaq olar. Adı çəkilən mövzudan çıxış edərək şagirdlərə:

– “Antanta ittifaqı”, “Üçlər ittifaqı” sözləri haqqında nə bilirsiniz?
– Bu ittifaqların qarşıdurması nə ilə bitdi?
– Sizcə, Azərbaycan bu müharibədə iştirak edirdimi? Fikrinizi əsaslandırın – kimi suallar verib dərsin yeni mərhələsinə keçmək olar.

**Tədqiqat sualı: Birinci dünya müharibəsi bu müharibənin qeyri-ixtiyari iştirakçılarından olan Azərbaycanın sosial-iqtisadi vəziyyətinə necə təsir etdi?**

**Tədqiqatın aparılması.** İdrak taksonomiyasının tələblərini nəzərə almaqla şagirdlərə elə tapşırıqlar vermək lazımdır ki, onların təfəkkürünü inkişaf etdirsin. Bir dərsdə təfəkkürün hər üç növünü inkişaf etdirməyə imkan varsa, bu, çox uğurlu nəticə deməkdir. Mövzunun tədrisi üçün şagirdlərə dərslikdəki materiallarla tanış olmaq tapşırığı verilə bilər. Bəzən şagirdlərə tapşırıq verilərkən müəllimlər onlardan kitab və dəftərlərini bağlamağı tələb edirlər. Lakin bu, vacib deyil. Fəal interaktiv təlim mühiti və bacarıqların formalaşdırılmasını əsas tələb kimi qoyan yeni islahat dəftər-kitabın bağlanıb işin icrasını həyata keçirməyi zəruri saymır. Əksinə, şagird kitablardan və digər mənbələrdən araşdırma apararaq təhlil etmə, sintez etmə və s. bacarıqları nəticəsində verilən tapşırığın icrasını sistemli şəkildə həyata keçirməyə cəhd göstərmiş olacaqdır. Əgər hafizəyönümlü tapşırıq verirsinizsə, o zaman dəftər-kitabı bağlamaq üçün göstəriş verilə bilər. İdrak məktəbinin inkişafının önə çəkildiyi bir dövrdə hafizə məktəbinin nümunəsindən tamamilə imtina etmək heç də arzuolunan deyildir. Biz şagirdlərdə bilmə, anlama prosesini formalaşdırmasaq, nəticəyönümlü təhsilin istəklərinə çata bilmərik.

Tədqiqatı fəal təlimin **üç cümlə** üsulundan istifadə etməklə həyata keçirmək olar. Bu üsulla reallaşan dərs zamanı şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə təqdim etmələri tapşırılır. Sonra onlara növbəti tövsiyələr xatırladılır: "Hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür". Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilə bilər.

**I qrup**

Osmanlı dövlətinin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirin.

______________________________________________

______________________________________________

**II qrup**

Azərbaycanlıların Birinci dünya müharibəsində iştirakını dəyərləndirin.

______________________________________________

______________________________________________

**III qrup**

Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda sosial-iqtisadi vəziyyəti dəyərləndirin.

______________________________________________

______________________________________________

**IV qrup**

Birinci dünya müharibəsi dövründə Cənubi Azərbaycanın siyasi və sosial-iqtisadi vəziyyətini dəyərləndirin.

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Dərsin bu mərhələsində bütün sinif şagirdlərinin müzakirələrdə iştirakı təmin edilir. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə, ümumilikdə dərsin maraqlı keçməsinə kömək edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan tədqiqatın ümumi nəticəsini çıxarmaq üçün bu mərhələdə şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

- Sizcə, Azərbaycan Birinci dünya müharibəsində iştirak etməyə bilərdimi? Fikrinizi əsaslandırın.
- Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda iqtisadiyyatın dərin tənəzzül və böhranla üzləşməsinin hansı səbəbləri var idi?
- Birinci dünya müharibəsi Cənubi Azərbaycanın siyasi və iqtisadi durumuna necə təsir göstərdi?

**Yaradıcı tətbiqetmə.** Birinci dünya müharibəsi illərinə dair xronoloji cədvəllər hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** Azərbaycanlıların Birinci dünya müharibəsində iştirakı ilə bağlı sxem tərtib etmək tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** tərtib etmə, dəyərləndirmə

Qiymətləndirmə dərsi izləmə nəticəsində baş verməlidir. Dərsin bu son mərhələsində, yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla, şagirdlər səviyyələr üzrə qiymətləndirilə bilər.

Dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə etmək olar:

- Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
- Sizə nə aydın olmadı?
- Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
- Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?
- Yeni mövzu üzərində necə işlədiniz?

# MÖVZU 14. ŞİMALİ AZƏRBAYCAN FEVRAL İNQİLABINDAN SONRA

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Fevral burjua inqilabından sonra Şimali Azərbaycanda baş verən tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
2. Müstəmləkə rejimi şəraitində Şimali Azərbaycanın inzibati, sosial-iqtisadi həyatında baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** kiçik və böyük qruplarla iş

***Təlim üsulları:*** beyin həmləsi, cavab əldə elə

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərin diqqəti 9-cu sinif Ümumi tarix fənnindən onlara tanış olan Birinci dünya müharibəsi nəticələrinə yönəldilir. Bunun üçün onlara aşağıdakı suallar ünvanlanır:

– Birinci dünya müharibəsinin hansı nəticələri oldu?
– Müharibə nəticəsində hansı imperiyalar dağıldı?

Rusiya imperiyası cavabını alandan sonra növbəti sual verilə bilər (mövcud dərsliyin 13-cü paraqrafında şagirdlər Rusiya imperiyasında Fevral burjua inqilabının baş verməsi faktı ilə tanış olublar).

– Sizcə, Rusiya imperiyası necə oldu dağıldı?
– Sizcə, Rusiya imperiyasının dağılmasının Şimali Azərbaycana hansı təsiri oldu?

Belə olacağı halda çətinlik çəkmədən dərsin motivasiyasını qurmaq və tədqiqat sualını elan etmək olar.

**Tədqiqat sualı: Rusiyadakı Fevral burjua inqilabı Şimali Azərbaycanda siyasi proseslərə hansı təsiri göstərdi?**

**Tədqiqatın aparılması.** Əgər motivasiya uğurlu alındısa, deməli, tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin onların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir. Adətən, belə fikir formalaşdırılıb ki, bütün qrupların və ya cütlərin tapşırıqlarının çəkisi eyni olmalıdır. Doğrudur, bu, keçərli haldır. Amma bir şeyi də qeyd edək ki, inklüzivliyin qorunmasını nəzərə alsaq, sinfin ən bacarıqlı və savadlı şagirdi və ya ən zəif, hətta sağlamlıq imkanları məhdud şagirdi bu zaman obyektiv qiymətləndirilmir. Bu səbəbdən onların təlimə marağı da itə bilər. Ona

görə də müəllim qrup işi aparərkən və ya cütlərə iş verərkən inklüzivliyi nəzərə almalıdır. Sinifdə şagirdlərin bilik və bacarığı arasında kəskin fərq yoxdursa, o zaman hər kəsə ağırlıq dərəcəsi eyni olan tapşırıqlar verilə bilər.

Tədqiqatın aparılması üçün **cavab əldə elə** üsulu ilə dərsin keçilməsi tövsiyə edilir. Bu zaman şagird ayrı-ayrı mənbədən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaq. Sinifdə internetin və kompüterlərin olması yardımçı olacaq. Kompüterin və ya kabelli internetin olmaması işə maneə deyil. Çünki müasir dövrdə smart telefonlarının köməyi ilə interneti digər telefonlara ötürmək mümkündür. Bunu nəzərə alsaq, onda bu dərs zamanı şagirdlərin telefonlardan istifadəsinə imkan vermək olar. Beləliklə, verilən məhdud vaxt ərzində şagirdlər aldıqları tapşırıqların cavablarını ya internet, ya da paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Bu zaman tapşırığı elə qoymaq lazımdır ki, o, tədqiqatçılığa söykənmiş olsun.

Sanki yarışmanı xatırladan bu dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Dərsdə internetdən istifadə etmək imkanı şagirdlərə əlavə stimul verir. Eləcə də informasiya bolluğundan lazım olan məlumatı seçib götürmək bacarığını inkişaf etdirir. Bunun üçün qruplara tədqiqat məqsədilə aşağıdakı sual və tapşırıqlar verilə bilər:

**I qrup**

Rusiyada monarxiyanın süqutu və onun Azərbaycana təsirini qiymətləndirin.

**II qrup**

Fevral inqilabından sonra Şimali Azərbaycanda milli azadlıq hərəkatının yüksəlişini təhlil edin.

**III qrup**

Cənubi Qafqaz Seyminin fəaliyyətini təhlil edin.

**IV qrup**

Cənubi Qafqaz Komissarlığının fəaliyyətini və milli hərbi qüvvələrin yaradılmağa başlanılmasını qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən olunmuş zaman ərzində

şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən edilən meyarlar əsasında qiymətləndirilir. Bu vaxt əvvəlcədən hazırlanmış köməkçi suallardan istifadə edilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir. Bunun üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla da müraciət edilə bilər.

- Fevral inqilabından sonra Şimali Azərbaycanda siyasi və inzibati sahələrdə baş verən dəyişiklikləri təhlil edin.
- Azərbaycanın milli siyasi qüvvələrinin milli muxtariyyət ideyasını müdafiə etməsini nə ilə izah edə bilərsiniz?
- Fevral inqilabından sonra Şimali Azərbaycanda milli azadlıq hərəkatı hansı xüsusiyyətlərə malik idi?
- Trabzon konfransında Osmanlı dövlətinin tələblərinin ədalətli olmasını sübut edin. Mülahizələrinizi arqumentlərlə əsaslandırın.
- Fevral burjua inqilabından sonra Şimali Azərbaycanda baş verən hansı tarixi hadisəni yüksək qiymətləndirirsiniz? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Şimali Azərbaycanda milli azadlıq hərəkatının mərhələləri və onların xüsusiyyətlərinə dair cədvəli tamamlamaq tapşırılır.

| Mərhələlər | Əhatə etdiyi tarix | Xüsusiyyətlər |
|---|---|---|
| I | | |
| II | | |
| III | | |

**Ev tapşırığı.** Cənubi Qafqaz Komissarlığı və Seyminin fəaliyyətini müqayisə etmək tapşırığı verilir.

| Cənubi Qafqaz Komissarlığı | Cənubi Qafqaz Seymi | |
|---|---|---|
| Fərqli cəhət | Oxşar cəhət | Fərqli cəhət |
| | | |
| | | |

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, təhliletmə

Qiymətləndirmə dərs izləməsi nəticəsində meyarlar üzrə aparılmalıdır. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirmək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual verməklə də bu işi yekunlaşdırmaq olar.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup qiymətləndirmə vərəqi** ilə qiymətləndirmək olar.

## QRUP QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Qrupun adı** ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqların yerinə yetirilməsində iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birlərinə bildirir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |
| Qrup üzvləri üzərində işlənilən mövzuda ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

***Şərhlər:***

____________________

____________________

# MÖVZU 15. MƏDƏNİYYƏT

**Standartlar:**

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.

**Təlim məqsədləri:**

1. XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
2. XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini dünya mədəniyyətinin xarakterik əlamətləri ilə müqayisə edir.

***Təlim formaları:*** kollektiv və fərdi iş
***Təlim üsulları:*** beyin həmləsi, mikrofon, krosvord hazırlama

**Dərsin gedişi**

**Motivasiya.** Anlayışın çıxarılması üsulundan istifadə edərək şagirdlərdə dərsə maraq oyatmaq olar. Bunun üçün lövhədə aşağıdakı formada dairələr çəkilir (əgər imkan varsa, bunu kompüterdə Powerpoint proqramının köməyi ilə hazırlamaq olar). Bunun ardınca açar sözləri səsləndirib şagirdlərə aşağıdakı sualla müraciət edilir:

– Gördüyünüz bu ifadələri birləşdirən ümumi cəhət nədir? Yəni bu sənət sahələri nəyin tərkib hissəsidir?

İzahlar bitdikdən sonra mərkəzdəki sualın cavabı şagirdlərin köməyi ilə elan edilir.

Nümunə:



**Tədqiqat sualı: XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyətinin xarakterik əlamətləri hansılar idi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün şagirdlərin əvvəlki dərslərdən tanıdığı "mikrofon" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Praktika onu göstərir ki, bir tədris ilində bir üsuldan bir neçə dəfə istifadə edilməsi şagirdlərin sevincinə, marağına səbəb olmaqla yanaşı, dərsin daha keyfiyyətli alınmasını şərtləndirir.

Şagirdlərə materialla tanışlıq üçün vaxt verildikdən sonra onlara bu dərs üsulunun qaydaları qısaca xatırladılır. Sonra aşağıdakı formada sual və tapşırıqlar vermək olar:

- XX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda təhsilin inkişafına mane olan səbəbləri şərh edin.
- 1912-ci il Əsasnaməsinə görə yaradılan yeni məktəbləri XIX yüzilliyin ikinci yarısındakı məktəblərlə müqayisə edin.
- H.Z.Tağıyevin qız məktəbinin açılışını Azərbaycanda mədəni nailiyyət kimi qiymətləndirin.
- M.F.Axundzadə və C.Məmmədquluzadə yaradıcılığını şərh edin.
- Mirzə Ələkbər Sabir yaradıcılığını şərh edin.
- Azərbaycan ədəbiyyatında romantizm və realizm cərəyanlarının inkişafını qiymətləndirin.
- XX yüzilliyin əvvəllərində milli mətbuatın (qəzet) inkişafını şərh edin.
- "Molla Nəsrəddin" jurnalını dünya mədəniyyətinin xarakterik əlaməti kimi qiymətləndirin.
- XX yüzilliyin əvvəllərində Azərbaycan memarlığının inkişafını şərh edin.
- XX yüzilliyin əvvəllərində Azərbaycanda teatr sənətinin inkişafını şərh edin.
- Milli musiqinin inkişafını qiymətləndirin.
- XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafına təsirini əsaslandırın.

Dərs prosesində "mikrofon"un bir şagirddən növbə ilə digər şagirdə keçməsinə nəzarət edilir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq fikirlər arasında əlaqə yaradılır, şagirdlər lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığı təmin olunur. Şagirdlərin müzakirələrdə fəal iştirakı nəticələrin alınmasına yardım edəcək.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsi ilə ümumiləşdirmə aparıla bilər. Bu da öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı sual və tapşırıqlar da yardımçı ola bilər:

- Sizcə, Şimali Azərbaycanda yeni məktəblərin yaranması hansı zərurətdən irəli gəlirdi?
- "Molla Nəsrəddin" jurnalının böyük şöhrət qazanmasının hansı səbəbləri var idi?

– Memarlığın inkişafına təsir göstərən amilləri müəyyən edin.
– Sizcə, qadınların teatr səhnəsinə gəlməsi onun inkişafına necə təsir göstərdi?
– XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyətindəki yenilikləri necə dəyərləndirirsiniz?

**Yaradıcı tətbiqetmə.** XIX yüzillik və XX yüzilliyin əvvəlləri Azərbaycan mədəniyyəti ilə bağlı 6-7 sözdən ibarət krosvord qurun.

**Qiymətləndirmə meyarları:** şərh etmə, müqayisə etmə

Dərsin yekunu kimi formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Şagirdləri aşağıdakı qiymətləndirmə vərəqi ilə də qiymətləndirmək olar.

**QEYD:** Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edilə bilər.

| Şagirdin adı, soyadı | Şərh etmə, müqayisə etmə | Məntiqli yanaşma | Əlavə suallara cavab vermə | Müzakirələrə qoşulma | Çıxışın savadlı olması (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü) | Fərqli fikirlərə hörmət etmə | Zamandan məhsuldar istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

# MÖVZU 16. BAKI SOVETİNİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI SİYASƏTİ

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**Təlim məqsədləri:**

1. Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasətini zaman baxımından qiymətləndirir.
2. Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasətinə dair mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
3. 1918-ci ildə azərbaycanlılara qarşı törədilən soyqırımı yerlərini kontur xəritələrdə təsvir edir.

***Təlim formaları:*** kollektiv və fərdi iş
***Təlim üsulları:*** beyin həmləsi, karvan üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanı beyin həmləsi yolu ilə yaratmaq olar. "Urmu bəlası" və Xocalı qətliamlarına söykənərək şagirdlərə əqli həmlə edilə bilər. Bu zaman onların diqqətini qırğının mahiyyətinə, qətliamlara məruz qalan və qətliamları törədən tərəflərə yönəltmək olar. Bunun ardınca əqli həmləni davam etdirib:

– Bu qırğınlardan savayı, azərbaycanlılara qarşı törədilmiş hansı qətliamları xatırlayırsınız?
– Bu qırğınları törətməkdə düşmən qüvvələrin maraqları nə ola bilərdi?

kimi suallarla şagirdlərə müraciət etmək yaxşı olardı. Verilmiş cavablar sistemləşdirildikdən sonra tədqiqat sualı elan oluna bilər.

**Tədqiqat sualı: Bakı Soveti azərbaycanlılara qarşı soyqırımı siyasətini necə reallaşdırdı?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün ***karvan*** üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bu, stansiyalarla iş üsuludur. Şagirdlər 4 qrupa ayrılırlar, 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoyulur. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara ən azı 3 cavab yazırlar (şagirdlərin daha çox cavab yazmağı qəbul ediləndir). Sonra növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazırlar. Hər cavabın qarşısında üç işarədən biri qeyd edilir: razıyam (✓), razı deyiləm (X), başa düşmədim (?) işarəsi qoyulur. Qruplara fərqli qələmlər verilir: qırmızı, qara, göy, yaşıl və ya başqa rəng. Qrup üzvlərinə iş tapşırıla bilər: vaxta nəzarət, yazmaq, təqdimatçı, nəzarətçi və s. Üsulun digər üsullardan ən üstün cəhəti ondan ibarətdir ki, heç kim boş qalmır, hamı işlə məşğuldur.

**I qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qeyd edin: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?).

**Tapşırıq:** 1918-ci ildə azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin səbəbləri hansılar idi?

**II qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qeyd edin: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?).

**Tapşırıq:** Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti necə həyata keçirildi?

**III qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qeyd edin: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?).

**Tapşırıq:** Bakı Xalq Komissarları Sovetinin fəaliyyətini qiymətləndirin.

**IV qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qeyd edin: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?).

**Tapşırıq:** Dərsliyin 83, 84 və 85-ci səhifələrindəki mənbələrdən çıxış edərək Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasətini qiymətləndirin.

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması bitəndən sonra müzakirə keçirilir. Bu zaman şagirdlərin qoyduqları işarələrin mənası açılır. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Yeni bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır. Fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər yeni bilginin kəşfi yolunda son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsi yekunlaşdırmaq üçün aşağıdakı sual və tapşırıqlarla şagirdlərə müraciət edilə bilər:

- Bakı Sovetinin "Müsavat" partiyasına qarşı düşmən mövqe tutmasının səbəbi nə idi?
- Mart soyqırımının başvermə səbəblərini təhlil edin.
- Bakı XKS-nin anti-Azərbaycan fəaliyyətini hansı faktlarla sübut etmək olar?
- Mart soyqırımı ərəfəsində Azərbaycan milli azadlıq hərəkatının liderlərinin fəaliyyətini necə qiymətləndirmək olar? Fikrinizi əsaslandırın.
- Sizcə, Bakıda Mart qırğınları, doğrudanmı, bir təsadüfi hadisədən baş vermişdi? Fikrinizi əsaslandırın.
- Sizcə, 1918-ci ilin mart-aprel aylarında xalqımıza, dinc əhaliyə qarşı törədilən qırğınların qarşısını almaq üçün nələr çatışmırdı?

**Yaradıcı tətbiqetmə.** Bu zaman şagirdlərə 1918-ci ildə azərbaycanlılara qarşı törədilən soyqırımı yerlərini kontur xəritələrdə təsvir etmək tapşırığı verilir. Bunun üçün metodik vəsaitin sonunda verilmiş kontur xəritələrdən istifadə edilə bilər.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, müqayisə etmə, kontur xəritələrdə təsvir etmə

Yuxarıdakı meyarlara uyğun olaraq şagirdlər səviyyələr üzrə qiymətləndirilməlidir. Dərs prosesində kiçik qruplarla işə yer verildiyindən dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

Adı, soyadı ______________________________

Tarix ______________________________

| MEYARLAR | TAM | QİSMƏN | XEYR |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövzunun tədrisinə beş saat ayrılmışdır. Bir paraqraf müxtəlif standartlarla fərqli dərs üsulları ilə keçirilə bilər. Paraqrafın saatlara uyğun aşağıdakı formada bölgüsü məqsədəmüvafiqdir:

- Birinci dərs saatında tədqiqat üçün 86-cı səhifədən başlayaraq 89-cu səhifəyədək məlumatlar nəzərdə tutulmuşdur.
- İkinci dərs saatı 90-cı səhifədəki "Ərazisi və əhalisi" yarımbaşlığından başlayaraq 94-cü səhifəyədək olan məlumatları əhatə edir.
- Üçüncü dərs saatında 94-cü səhifədəki "Ordu quruculuğu" başlığından 98-ci səhifədəki "Ərazi bütövlüyü uğrunda" yarımbaşlığadək olan məlumatların tədqiqi nəzərdə tutulmuşdur.
- Dərsliyin 98-ci səhifəsindəki "Ərazi bütövlüyü uğrunda" yarımbaşlığndan 101-ci səhifədəki "Mehriban qonşuluq" yarımbaşlığınadək olan materiallar dördüncü dərs saatı üçün ayrılmışdır.
- Beşinci dərs saatı isə 101-ci səhifədəki "Mehriban qonşuluq" yarımbaşlığından paraqrafın sonunadək olan materialları əhatə edir.

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını zaman baxımından qiymətləndirir.
2. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqələndirir.
3. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və möhkəmləndirilməsində rolu olan görkəmli tarixi şəxsiyyətlərə dair materiallar toplayır, təqdim edir.

***Təlim formaları:*** böyük qruplarla və fərdi iş
***Təlim üsulları:*** beyin həmləsi, proqnozlaşdırılmış oxu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanın reallaşdırılması üçün AXC-nin və Azərbaycan Respublikasının indiki xəritəsindən yararlanmaqla şagirdlərdən xəritələrə əsasən fərziyyələr irəli sürmələri istənilə və onların diqqəti dərsə yönəldilə bilər. Onlardan bu xəritələr arasındakı əlaqəni və s. soruşmaq olar.

Və ya dərsliyin 87-ci səhifəsində mənbə kimi verilmiş M.Ə.Rəsulzadənin Azərbaycan Xalq Cümhuriyyəti barədə dediyi fikri səsləndirməklə, şagirdlərə bu istiqamətdə yönləndirici suallar verib onların məqsəddən yayınmamasına şərait yaratmaq olar.

Çox sadə yolla, himnimizi oxutmaqla və ya Azərbaycan Respublikasının bayrağını lövhədən asaraq ona uyğun suallar verməklə də motivasiya qurmaq olar. Bu mövzunun tədrisi zamanı motivasiyanın yaradılması üçün zəngin imkanlar vardır. Təbii ki, hər bir müəllim özünün metodik yanaşmasından, sinfinin bilik və bacarıq səviyyəsindən asılı olaraq, motivasiya mərhələsini müxtəlif vasitələrlə reallaşdıra bilər. Bizim təklif etdiyimiz motivasiyalar tövsiyə xarakterlidir.

Şagirdlər öz fərziyyələrini irəli sürdükdə onların fikirləri qeydə alınır və tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının tariximizdəki yeri və rolu nədən ibarətdir?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "Proqnozlaşdırılmış oxu" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Məzmunun mənimsənilməsinə həsr olunan dərsdə mövzudan bir hissə oxunur, fasilə edilir və şagirdlər hadisələrin sonrakı inkişafı barədə fərziyyələrini dəftərlərindəki proqnoz cədvəlində qeyd edirlər. Mövzu «Sizcə, nə baş verəcək?, Nə üçün belə düşünürsünüz?, Nə baş verdi?, Hadisə necə davam edərdi?» kimi sualların cavablandırılması ilə davam edə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlər tədqiqatın gedişində əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin cavablarını fəal dinləməyə sövq edir. Müəllim fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərin yeni bilginin kəşfi yolunda son addımı konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaqdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şəraiti şərh edin.
- "İstiqlal Bəyannaməsi" əsasında AXC-də hər növ ayrı-seçkiliyin qadağan olunduğunu sübut edin.
- Qafqaz İslam Ordusunun yaradılması hansı zərurətdən irəli gəldi?
- Qafqaz İslam Ordusunun Bakıya gəlməsinin səbəbləri nə idi?
- Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını zaman baxımından necə qiymətləndirərdiniz?
- Sizcə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan xalqının həyatında hansı dəyişikliklər baş verdi.

– Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını tarixi hadisə saymaq olarmı? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Bakı Xalq Komissarları Soveti ilə Sentrokaspi diktaturasının fəaliyyətini müqayisə etmək tapşırıla bilər.

| Bakı Xalq Komissarları Soveti | | Sentrokaspi diktaturası |
|---|---|---|
| Fərqli cəhət | Oxşar cəhət | Fərqli cəhət |
| | | |
| | | |

**Ev tapşırığı.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və möhkəmləndirilməsində rolu olan görkəmli tarixi şəxsiyyətlərə (M.Ə.Rəsulzadə, F.Xoyski) dair materiallar toplayıb təqdim etmək tapşırıla bilər.

**QEYD:** Şagirdlərdən ev tapşırığının mütləq yerinə yetirilməsi istənilir.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, əlaqələndirmə, təqdimetmə

Yeni biliyin mənimsənilməsinə bir daha nəzər salıb, şagirdlərin dərsdə fəallıqlarını, dərs zamanı müzakirələrdə iştirak səviyyəsini, verdikləri məntiqli cavablar barədə yığcam rəy mübadiləsi apararaq onları qiymətləndirmək olar. Bununla belə, təlim prosesində izlənmiş şagirdin qiymətləndiriləcək meyara hansı səviyyədə cavab verdiyini dəqiqləşdirmək olar. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının yerinə yetirilib təhvil verilməsindən sonra mümkün olacaqdır.

Qiymətləndrmə zamanı özünüqiymətləndirmə **vərəqlərindən** də istifadə edilə bilər.

Adı, soyadı ____________________

Tarix ____________________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## (İKİNCİ SAAT)

**Standartlar:**

1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyətinə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
2. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı şəraitdə inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.
3. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Məhəmməd Əmin Rəsulzadənin rolunu dəyərləndirir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş

***Təlim üsulu:*** "İki həqiqət və bir yanlış"

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya müəllimin planlaşdırmasından asılı olaraq qurula bilər.

**Tədqiqat sualı: Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının tariximizdəki yeri və rolu nədən ibarətdir?**

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasında "iki həqiqət və bir yanlış" üsulu ilə həyata keçirilməsi tövsiyə olunur. Çox sadə və yarışmanı xatırladan bu dərs metodundan istifadə şagirdlərdə dərsə həddən artıq maraq yaradacaqdır. Sinif kiçik qruplara bölünəndən sonra hər qrupa bir mövzu və növbəti tapşırıq verilir:

– Bu mövzu haqqında üç fikir yazın.
– Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Bu zaman yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.
– Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**

Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və əhalisini indiki Azərbaycan Respublikasının ərazisi və əhalisi ilə müqayisə edin.

1. ____________________
2. ____________________
3. ____________________

**II qrup**

Azərbaycan Xalq Cümhuriyyətinin idarəetmə formasını Azərbaycan Respublikasının idarəçilik sistemi ilə müqayisə edin.

1. ____________________
2. ____________________
3. ____________________

**III qrup**

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu tədbirlərini təhlil edin.

1. ____________________
2. ____________________
3. ____________________

**IV qrup**

Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Məhəmməd Əmin Rəsulzadənin rolunu dəyərləndirin.

1. ____________________
2. ____________________
3. ____________________

**QEYD:** Əvvəlki dərsdə şagirdlərə verilən ev tapşırığının icrası nəticəsində əldə edilən materialları tədqiqat üçün IV qrupa verin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimatını edir. Təqdim edilən bu üç fikirdən hansının səhv olduğu təxmin edilir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə əsaslanacaq üç fikir söyləməsi (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bu həm qarşıya qoyulan məqsədə çatmağa, həm də şagirdlərə dərs üsulunun tələblərinə uyğun olaraq doğru və yanlış fikirlərin necə formalaşdırılmalı olduğunu nümunə əsasında göstərmiş olar.

Bu üsulun tətbiqi zamanı aşağıdakı kimi suallardan istifadə etmək olar.

1. Xalq Cümhuriyyəti "İstiqlal bəyannaməsi"ni 1918-ci il mayın 28-də qəbul etdi.
2. Milli Şuranın ilk iclasında F.Xoyski hökumətin rəhbəri seçildi.
3. "İstiqlal bəyannaməsi"ndə Azərbaycan xalqının hakimiyyət hüququna malik olması təsdiqləndi.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qrup təqdimatları ilə dərsin məlumatın mübadiləsi və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- Azərbaycan Xalq Cümhuriyyətini demokratik dövlət adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.
- Milli Şuranın fəaliyyətini dəyərləndirin.
- 93-cü səhifədə verilmiş vətəndaşlıq haqqında andı dəyərləndirin.
- Dövlət dili haqqında qəbul edilən qərarın əhəmiyyətini qiymətləndirin.

**Yaradıcı tətbiqetmə.** 90-cı səhifədə verilmiş xəritəni şərti işarələrə istinad etməklə öz sözləri ilə şərh etmək tapşırıla bilər.

**Ev tapşırığı.** AXC-nin ilk dövlət bayrağının nə üçün dəyişdiyini araşdırmaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** müqayisə etmə, təhliletmə, dəyərləndirmə

Dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək və əvvəlcədən müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək olar.

Qrup işini qiymətləndirmək üçün sonda şagirdlərə aşağıdakı formada **qrup qiymətləndirmə vərəqi** verilə bilər.

Qrupun adı ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi? | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

***Şərhlər:***

____________________

____________________

# MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## (ÜÇÜNCÜ SAAT)

**Standartlar:**

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyətində sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.
2. Azərbaycan Xalq Cümhuriyyətinin mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

***Təlim formaları:*** fərdi və kiçik qruplarla iş
***Təlim üsulu:*** problemli vəziyyət

**Dərsin gedişi**
**Motivasiya.** Müəllim planlaşdırdığı dərsə uyğun motivasiya qura bilər.

**Tədqiqat sualı: Azərbaycan Xalq Cümhuriyyətində sosial-iqtisadi və mədəni sahədə hansı nailiyyətlər əldə edildi?**

**Tədqiqatın aparılması.**

Bu mövzunun tədrisi zamanı problemli vəziyyət üsulundan istifadə etmək olar. Bu üsulun tətbiqi Azərbaycan tarixi fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyət əks olunmuş iş vərəqləri bağlı şəkildə şagirdlərə paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır. Problemli vəziyyət şagirdlərin düşünüb qərarlar qəbul etməsinə təsir edən üsullardan biridir.

Bu üsulla yanaşı, digər üsullardan istifadə etməklə də şagirdlərə qrup işləri verib onları tədqiqata cəlb etmək olar.

**I qrup**

Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunu təhlil edin.

**II qrup**
Azərbaycanın ərazi bütövlüyünün qorunmasında ordunun rolunu dəyərləndirin.

**III qrup**
Azərbaycan Xalq Cümhuriyyətində mədəni quruculuq məsələlərini araşdırın.

**IV qrup**
Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi tədbirlərini təhlil edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə mərhələsi üçün vaxt elan edilir. Çünki şagirdlərin təqdimatına məhdudiyyət qoyulmasa, digər işlərə vaxt çatmaz. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetirilməsi | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Araşdırma istiqamətində tədqiqat sualına cavab axtaran şagirdlər Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi sahədə atdığı addımları, mədəniyyət sahəsində, ordu quruculuğunda gördüyü işləri və s. bilikləri əldə edərək bu biliklər əsasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkməzlər. Əldə edilən bilik və bacarıqları daha da möhkəmləndirməkdən ötrü şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

- Ordu quruculuğuna diqqət yetirilməsinin əhəmiyyətini izah edin. Fikrinizi faktlarla əsaslandırın.
- Milli ordunun təşkil olunması prosesini qiymətləndirin.
- Lənkəran və Qarabağ əməliyyatlarını dövr baxımından dəyərləndirin.
- Nə üçün Bakı-Batum neft kəməri AXC üçün xüsusi əhəmiyyət kəsb edirdi?

– Aqrar məsələlərin həll olunmamasının mənfi cəhəti nə idi?
– Mədəni quruculuq işlərində teatrın əhəmiyyəti nə idi?
– AXC-nin təhsil siyasətini müzakirə edin və s.

**Ev tapşırığı**. Mənbələr əsasında AXC-nin tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətinə dair referat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təhliletmə, təqdimetmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək olar.

Vaxt olarsa, şagirdlərə aşağıdakı formada **özünüqiymətləndirmə vərəqi** verilə bilər.

## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Aşağıda sadalanan meyarlara uyğun öz şəxsi keyfiyyətlərinizi qiymətləndirin.

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına maraq | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |

# MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## (DÖRDÜNCÜ SAAT)

**Standartlar:**

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. İngiltərə, ABŞ və İtaliyanın strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.
2. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.
3. Azərbaycan Xalq Cümhuriyyətinin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir.

***Təlim formaları:*** böyük qruplarla iş, cütlərlə iş
***Təlim üsulu:*** bir-birini öyrətmək

**Dərsin gedişi**
**Motivasiya.** Müəllim planlaşmadan asılı olaraq istədiyi motivasiyanı qura bilər.

**Tədqiqat sualı: Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti necə qurulmuşdu?**

**Tədqiqatın aparılması.** Dərsin tədqiqatın aparılması mərhələsinin bir-birini öyrətmək üsulu ilə keçirilməsini təklif edərdik. Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərini öyrətmələrini istəmək önəmli nailiyyət əldə etmək yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqat xarakterli tapşırıq verilir. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamaq öyrədilir. Əgər şagirdlər bir-birlərini öyrədə bilərlərsə, onda, həqiqətən, mövzunu mənimsəmiş olarlar. Bunun üçün şagirdlərə aşağıdakı tapşırıqlar verilə bilər.

**I cüt**
Xosrov bəy Sultanovun ərazi bütövlüyümüzün qorunmasındakı fəaliyyətini dəyərləndirin.

**II cüt**

Qarabağ general-qubernatorluğunun yaradılmasının əhəmiyyətini qiymətləndirin.

**III cüt**

Araz-Türk Respublikasının və Naxçıvan general-qubernatorluğunun yaradılmasını dəyərləndirin.

**IV cüt**

Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı dövləti ilə münasibətlərini dəyərləndirin.

**V cüt**

Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistanla münasibətlərini dəyərləndirin.

**VI cüt**

ABŞ, Fransa və İtaliyanın Azərbaycanla bağlı yürütdüyü siyasəti dəyərləndirin.

**VII cüt**

Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınmasını dəyərləndirin.

**VIII cüt**

Azərbaycan nümayəndələrinin Paris sülh konfransındakı fəaliyyətini dəyərləndirin.

**IX cüt**

İngiltərənin Azərbaycanla bağlı yürütdüyü siyasəti dəyərləndirin.

**QEYD:** Əgər sinifdə şagirdlərin sayı çoxdursa, daha əhəmiyyətli saydığınız tapşırıqları yeni cütlərə vermək olar. Bu eyni problemə müxtəlif yanaşmaların ortaya çıxmasına yardımçı olacaqdır.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir cütün təqdimatını etməsi təşkil edilir. Bu zaman cüt üzvlərinin bir-birlərini öyrətmə bacarığının hansı səviyyədə olduğu ortaya çıxmış olar. Müzakirələr zamanı cütlərdən kimin "öyrədən", kimin "öyrənən" olduğunu diqqətdə saxlamaq vacibdir. Meyarlar əsasında cütlərin işi qiymətləndirilir.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəaliyyət səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq | Qaydalara əməl etmə | Müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılmasına müəllimin verdiyi suallar da kömək edər.

**Yaradıcı tətbiqetmə.** Azərbaycan-Ermənistan münasibətlərinə dair afişa yaratmaq tapşırılır.

**Ev tapşırığı.** Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı mənbələrdən materiallar toplamaq tapşırığı verilir.

**Qiymətləndirmə meyarları:** mövqeyini dəyərləndirmə, təqdimetmə, rolunu dəyərləndirmə

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bunun müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilməsi mümkündür. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə şagirdləri yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sualın verilməsi kifayətdir. Məsələn:

- Biz nəticəyə necə gəlib çıxdıq?
- Biz nə edirdik?
- Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi? və s.

# MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
## (BEŞİNCİ SAAT)

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyəti tarixindəki mühüm hadisələri zaman baxımından qiymətləndirir.
2. Qonşu dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

***Təlim forması:*** böyük qruplarla iş
***Təlim üsulu:*** akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin planlaşdırılmasından asılı olaraq müəllim motivasiyanı istədiyi şəkildə qura bilər.

**Tədqiqat sualı: Azərbaycan Xalq Cümhuriyyəti necə süqut etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasında aparılması tövsiyə edilir. Bu zaman akvarium metodundan yararlanmaq olar. Bu iş üsulu üçün sinif iki dairəyə – iç və çöl dairələrinə bölünür, iç dairəyə müəyyən vaxt müddətində müəyyən bir problemin müzakirəsi, çöl dairədəkilərə qarşıda oturan şagirdə “nəzarət etmək” tapşırıla bilər. Sonra akvarium dərs üsulunun qaydalarına uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə etmək olar:

- Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə qonşu dövlətlərlə münasibətlərini dəyərləndirin.
- Aprel işğalını qiymətləndirin.

“Akvarium”da iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də həyata keçirilmiş olur. “Akvarium”da iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsi həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin sonunda əldə olunan nəticələr müəyyən edilir. Yardımçı suallar kimi aşağıdakılardan istifadə edilə bilər.

- Sovet Rusiyasının AXC-nin müstəqilliyini tanımamasının əsas səbəbi nə idi?
- AXC-nin süqutunun hansı səbəbləri var idi?
- Necə oldu, Qacarlar dövləti AXC-nin müstəqilliyini hüquqi olaraq tanıdı?
- Qonşu dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini necə dəyərləndirərdiniz? Fikrinizi əsaslandırın.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, dəyərləndirmə

Bildiyiniz kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini – qiymətləndirməni həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirməni dərsin müxtəlif mərhələlərinə daxil etmək mümkündür. Bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Deyilənləri nəzərə alaraq dərsin sonunda yuxarıda qeyd edilmiş meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsi həyata keçirilir. Formativ qiymətləndirməni aşağıda verilmiş nümunə əsasında özünüqiymətləndirmə vərəqindən istifadə etməklə də yazmaq olar.

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Adı, soyadı ____________________

Tarix ____________________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |
| Mühüm hadisələri zaman baxımından qiymətləndirdim. | | | |
| Qonşu dövlətlərlə bağlı Azərbaycanın mövqeyini dəyərləndirdim. | | | |

# MÖVZU 18. CƏNUBİ AZƏRBAYCANDA MİLLİ AZADLIQ HƏRƏKATI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Cənubi Azərbaycanda milli azadlıq hərəkatını zaman baxımından qiymətləndirir.
2. Cənubi Azərbaycanda milli azadlıq hərəkatında Şeyx Məhəmməd Xiyabaninin rolunu dəyərləndirir.
3. Şeyx Məhəmməd Xiyabaniyə dair materiallar toplayır, təqdim edir.

***Təlim formaları:*** böyük qruplarla iş, fərdi iş

***Təlim üsulları:*** beyin həmləsi, bitməmiş cümlələr

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdlərin indiyə qədər inqilab və inqilabi hərəkatlar haqqında məlumatlı olduğunu nəzərə alaraq motivasiya qurmaq üçün onlara:

– İnqilab nədir?

– İnqilabi hərəkatlar nə üçün baş verir?

– İndiyə kimi keçdiyiniz dərslərdən hansı inqilablar haqqında məlumatınız var?

kimi suallar verib aldığınız cavabları ümumiləşdirərək şagirdləri lazımi məcraya yönəltmək və dərsin motivasiyasını qurmaq olar.

**Tədqiqat sualı: Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli azadlıq hərəkatı necə baş verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını *"bitməmiş cümlələr"* üsulunun köməyi ilə həyata keçirmək məqsədəmüvafiq olardı. Yaxşı olardı ki, dərsin məqsədini, tədqiqat sualını şagirdlərə elan edəndən sonra qısaca bu üsulun izahı verilsin. *"Müəllim bitməmiş cümlə deyir* və şagirdlər *bu cümləni 2-3 arqumentlə tamamlamalıdır".*

*"Bitməmiş cümlələr"* aşağıdakı formada ola bilər:

– Birinci dünya müharibəsinin Cənubi Azərbaycana təsirini belə qiymətləndirərdim ki, ............................

– Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi azadlıq mücahidlərinin tələblərini belə dəyərləndirərdim ki, ............................

- Azərbaycan Demokratik Partiyasının (ADP) yaradılmasından sonrakı dövrü belə dəyərləndirmək olar ki, ............................
- Şeyx Məhəmməd Xiyabani haqqında mən ............................ öyrəndim.
- Rus qoşunlarının Cənubi Azərbaycanı tərk etməsinin səbəblərini belə şərh etmək olar ki, ............................
- Bugünkü dərsdə mən Cənubi Azərbaycanda milli azadlıq hərəkatı haqqında ............................ öyrəndim.
- 1919-cu ilin avqustunda Qacarlar dövləti ilə İngiltərə arasında bağlanan sazişin izahını belə verərdim ki, ............................
- 1920-ci ilin aprelində silahlı üsyanın başlanmasını belə dəyərləndirərdim ki, ............................
- Təbrizdə silahlı üsyanın qələbə çalması bizə belə nəticə çıxarmağa imkan verir ki, ............................
- Milli hökumətin Qacarlar dövlətinin bütün məmurlarını Təbrizdən çıxarmasını belə qiymətləndirmək olar ki, ............................
- Milli hökumətin milli qvardiya yaratmasını belə qiymətləndirərdim ki, ............................
- Milli hökumətin əhalinin savadlanmasına diqqət yetirməsindən belə nəticə çıxarmaq olar ki, ............................
- Cənubi Azərbaycanda milli azadlıq hərəkatının məğlub olmasını belə izah edərdim ki, ............................
- Cənubi Azərbaycanda milli azadlıq hərəkatının yatırılmasında ingilislərin maraqlı olmasını belə qiymətləndirərdim ki, ............................
- Milli azadlıq hərəkatında Şeyx Məhəmməd Xiyabaninin rolunu belə dəyərləndirərdim ki, ............................

Cümlənin tamamlanmasını bir neçə şagirdə tapşırmaq olar. Hər şagirdə fikrini ifadə etmək üçün neçə dəqiqə vaxt verildiyi əvvəlcədən elan edilir. Bu, dərs prosesində əlavə vaxt itkisinin qarşısını alacaqdır.

Əslində, dərsin bu mərhələsində ***məlumatın mübadiləsi və müzakirəsi*** mərhələsi də yekunlaşdırılmış olur. Şagirdlərin çıxışları bitəndən sonra müəllim öz fikirlərini ifadə edir. Bu zaman şagirdlərdən əlavə fikirlər alaraq, onların fikirlərini yekunlaşdırmaq olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər onlara verilən tapşırıqları yerinə yetirdikdən sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədinin reallaşdırılmasını təmin etmək üçün onlara aşağıdakı suallarla müraciət edilə bilər:

- Şeyx Məhəmməd Xiyabani hərəkatı ilə Məşrutə hərəkatının başlanma səbəbləri arasında hansı oxşarlıqlar var?
- İngiltərənin strateji maraqları ilə Azərbaycanın mövqeyini dəyərləndirin.
- 107-ci səhifədəki mənbədə verilmiş məlumatlar dərslikdəki hansı fikri təsdiq edir?
- Sizcə, Cənubi Azərbaycanda milli azadlıq hərəkatı baş verməyə bilərdimi? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** Yaradıcı tətbiqetmə kimi şagirdlərə Cənubi Azərbaycanda milli azadlıq hərəkatına dair xronoloji cədvəllər hazırlamaq tapşırıla bilər.

**Ev tapşırığı.** Şeyx Məhəmməd Xiyabaniyə dair təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə:** qiymətləndirmə, dəyərləndirmə, təqdimetmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Sonuncu – təqdimetmə meyarı üzrə şagirdləri qiymətləndirmə onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

Qiymətləndirmədə aşağıdakı qiymətləndirmə vərəqindən də istifadə etmək olar:

**Təlimat:** Qiymətləndiriləcək şagirdin nömrəsini dərəcə sütunlarına yazın.

| QABİLİYYƏTLƏR | DƏRƏCƏLƏR | | | Şagirdin adı, soyadı |
|---|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt | 1. |
| Müəllimin məsləhətlərini dinlədi. | | | | 2. |
| Təlimata əməl etdi. | | | | 3. |
| Çıxışı savadlı idi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü). | | | | 4. |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçilmişdi. | | | | 5. |
| Mövzuya uyğun bir neçə sual verdi. | | | | 6. |
| Verilən sualları cavablandırdı. | | | | 7. |
| Məntiqli yanaşması var idi. | | | | 8. |
| Nəticə çıxarmışdı. | | | | 9. |
| Qiymətləndirmə və ya dəyərləndirmə meyarına cavab verdi. | | | | 10. |

# MÖVZU 19. AZƏRBAYCAN SSR-in YARADILMASI

**Standartlar:**

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Müxtəlif mənbələr əsasında Azərbaycan SSR-in yaradılması mövzusuna dair təqdimatlar hazırlayır.
2. Azərbaycan SSR-in yaradılması şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş

***Təlim üsulları:*** BİBÖ, təqdimat

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün BİBÖ üsulundan istifadə edilə bilər. Bunun üçün lövhədə aşağıdakı formada BİBÖ cədvəli qurulmalıdır.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Cədvəli qurandan sonra o, şagirdlərin köməyi ilə doldurulur. Boş qalan yerləri doldurmaq üçün dərsin müxtəlif mərhələlərində cədvələ müraciət edilməlidir. Beləliklə, şagirdlərin köməyi ilə dərsin sonunda cədvəl doldurulub yekunlaşdırılır. Bu üsulun tətbiqi şagirdləri düşünməyə, tədqiqatçılığa, yeni bilgilər axtarışına sövq edəcək.

**Tədqiqat sualı: Azərbaycan SSR-in inzibati, sosial-iqtisadi həyatında dəyişikliklər necə baş verdi?**

**Tədqiqatın aparılması.** "Təqdimat etmə" üsulunun köməyi ilə dərsin tədqiqatın aparılması mərhələsi həyata keçirilir. Təqdimat etmə fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi şəkildə və ya qrup halında keçirə bilərlər. Müəllim bu dərsdə şagirdlərə təqdimatın növünü, onun keçirilmə şəraiti və şərtlərini elan etsə, yaxşı olardı.

Ünsiyyətin ən vacib elementlərindən biri şagirdin öz fikirlərini dəqiq və aydın ifadə edə bilməsidir. Şərhin aydınlığı informasiyanın təşkilindən asılıdır. Yaxşı təşkil edilmiş təqdimat

onun növündən asılı olmayaraq, şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.

Təqdimatların daha canlı, maraqlı, müzakirələrə yol açan olmasını təmin etmək üçün şagirdlərə (hər qrupa apardığı tədqiqata uyğun) əlavə paylayıcı materiallar verilməsi məqsədəuyğundur.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**

1920-ci ilin aprelindən 1921-ci ilin may ayına qədər Azərbaycan SSR-in qanunverici və icraedici hakimiyyəti haqqında təqdimat hazırlayın.

**II qrup**

Azərbaycan SSR-in ilk konstitusiyası ilə təsbit olunan qanunverici və icraedici hakimiyyətin fəaliyyəti haqqında təqdimat hazırlayın.

**III qrup**

Azərbaycan SSR-in dövlət quruculuğu sahəsində gördüyü tədbirlərə aid təqdimat hazırlayın.

**IV qrup**

111-ci səhifədəki mənbədən istifadə edərək sovet rejiminə qarşı müqavimət hərəkatına dair təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutduğunuz vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsi təşkil edilir. Bu zaman digər qruplar öz təqdimatlarını sinfin diqqətinə çatdırırlar. Qarşıya qoyulan məqsədə çatmaq üçün müzakirələr zamanı digər qrup üzvləri suallar verməyə, əlavələr etməyə təşviq edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərə yeni bilginin kəşfi yolunda atılan son addım konkret nəticəyə gəlmək və ümumiləşdirmələr aparmaqdır ki, o da dərsin bu mərhələsində həyata keçirilir. Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi,

dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılmasına suallar da kömək edə bilər:

- Azərbaycan İnqilab Komitəsi dövlət quruculuğu sahəsində hansı qərarları qəbul etdi və bu qərarların Azərbaycan üçün nəticəsi nə oldu?
- Azərbaycan İnqilab Komitəsinin ləğv edilməsinin səbəbləri nə idi?
- Azərbaycan SSR-in birinci və ikinci Konstitusiyası arasında əsas fərqlər nədən ibarətdir?
- Gəncə üsyanının yatırılmasını necə dəyərləndirərdiniz?

**Yaradıcı tətbiqetmə.** Aprel istilasından sonra Azərbaycanda yaradılmış bolşevik hakimiyyət modelinin sxemini qurmaq tapşırılır.

**Ev tapşırığı.** Azərbaycan SSR-in yaradılmasında Nəriman Nərimanovun rolunu araşdırmaq tapşırığı verilir.

**Qiymətləndirmə meyarları**: təqdimat hazırlama, təhliletmə

Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi vərəqi** ilə qiymətləndirmək olar. Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

## QRUP TƏQDİMATININ QİYMƏTLƏNDİRİLMƏSİ VƏRƏQİ

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Təhliletmə meyarına nə səviyyədə cavab verildi? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetirildimi? | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçilib? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |

# MÖVZU 20. "MÜSTƏQİL SOVET AZƏRBAYCANI" ŞÜARININ İFLASI

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri.**

1. Azərbaycan SSR-dəki mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Türkiyə, Rusiya, Gürcüstan və Ermənistanın strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

***Təlim formaları:*** böyük qruplarla iş, fərdi iş
***Təlim üsulları:*** auksion, xronoloji cədvəllərin hazırlanması

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərsə motivasiya qurmaq üçün açar sözlərdən (ZSFSR, SSRİ, "könüllü birləşmə" DQMV, Naxçıvan MSSR) istifadə edilə bilər. Açar sözləri lövhədə yazıb onların açılışını şagirdlərə bildirmək məqsədəmüvafiqdir. Bu, qarşıya qoyulan məqsədə nail olmağa kömək edəcəkdir. Daha sonra şagirdlərə açar sözlərə uyğun suallar ünvanlamaq vacibdir.

Suallara cavablar alındıqdan sonra ümumiləşdirmə aparılıb tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Azərbaycan SSR tarixi Azərbaycan torpaqlarını necə itirdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən biri olan tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "auksion" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara bu dərs üsulunun qaydaları xatırladılır (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sual verilir. 1, 2, 3 sayanadək suala cavab verilməzsə, cavab vermək şansı digər şagirdə keçir).

Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayrılıb sıra ilə düzülür. (Bu zaman qeydlər aparmaq üçün bir nəfər lövhə qarşısında qalsa, daha yaxşı olar.) Sıradakı birinci şagirdə auksion üsulunun qaydasına uyğun olaraq sual verilir. Deyilən vaxtda cavablandıra bilməzsə, həmin sualı yanındakı şagirddən cavablandırılması istənilir. O da cavab verə bilməzsə, cavab vermə növbəsi digər şagirdə keçir. Beləcə beşinci şəxsədək proses davam edir.

**QEYD:** Əslində, hazırda bəhs edilən bu üsul "auksion" üsulunun bir az təcrübədə sınanılmış, "improvizə" edilmiş formasıdır. Şagirdlərə daha maraqlı olması üçün hazırlanan

sualları müəllim qeyd dəftərində nömrələyir və hər sualın nömrəsini də lövhədə yazır. Proses zamanı şagirdlərin müstəqil şəkildə hər hansı nömrəni seçməsinə şərait yaradılır. Bir mövzudan bəhs edən suallar dərslikdəki məlumata uyğun olaraq qarışıq olmalıdır. Yəni xronoloji və ya məzmun ardıcıllığı gözlənilməməlidir. Hazırlanan və nömrələnən suallarla yanaşı, ehtiyat üçün 3-5 nömrələnməmiş sual da olsa, yaxşı olardı. Şagirdlər nömrələri seçdikcə lövhədən həmin rəqəm silinir. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradılır. İlk şagird ona verilən sualları "cavablandırdıqdan sonra yerinə oturur və onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısında saxladığınız şagird qeyd edir. Lövhədə aparılan bu qeydləri bütün şagirdlərin görməsi onlara əlavə stimul verir. Təcrübə göstərir ki, bəzən improvizə edilmiş bir üsul daha yaxşı effekt verir.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan və düzülüş formasından istifadə etmək olar.

1. Rusiya Kommunist Partiyasının Qafqaz Bürosunun 5 iyul 1921-ci il qərarının Azərbaycan üçün hansı nəticəsi oldu?
2. Azərbaycan SSR-in formal müstəqilliyinə necə son qoyuldu?
3. Azərbaycan və Türkiyə arasında dövlət sərhədlərini tənzimləyən yeganə sənəd hansıdır?
4. Unitar nə deməkdir?
5. 1921-ci il Moskva müqaviləsinin Azərbaycan üçün nəticəsi nə oldu?
6. Azərbaycanla Gürcüstan arasında mübahisəli ərazi hansı idi?
7. ZSFSR necə yaradıldı?
8. Cənubi Qafqaz respublikalarının suveren hüquqları necə məhdudlaşdırıldı?
9. 1920-ci ilin iyununda Türkiyənin Naxçıvana qoşun göndərməsinin səbəbi nə idi?
10. Azərbaycan SSR-in ərazisi hansı torpaqların itirilməsi nəticəsində 12 min kvadrat kilometr azalmışdı?
11. Azərbaycanın ən gec sovetləşən bölgəsi hansıdır?
12. ZSFSR-in yaradılması ilə Azərbaycan nədən məhrum oldu?
13. DQMV nə vaxt təşkil olundu?
14. 1920-ci ilin noyabrın 30-da Azərbaycan K(b)P Siyasi Bürosunun qəbul etdiyi qərarın nəticəsi nə oldu?
15. ZSFSR-in idarəçilik sistemi hansı sistemə bənzəyirdi?
16. Naxçıvan MSSR nə vaxt yaradıldı?
17. SSRİ necə dövlət idi?
18. Gürcüstan hansı səbəbdən Zaqatalaya olan iddialarından əl çəkdi?
19. SSRİ-də təmsil olunan respublikaların hansı hüququ formal idi?
20. ZSFSR necə ləğv olundu?
21. Hansı hadisə gələcəkdə Ermənistanın ərazi iddialarına şərait yaratdı?
22. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsində kimlərin rolu var idi?
23. SSRİ necə və nə vaxt yarandı?

**QEYD:** Təbii ki, yuxarıda verdiyimiz suallar nümunə xarakterlidir. Yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə, müəllim əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki, tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsi auksion üsulu ilə keçən zaman sinfin bütün diqqəti bu "bilik yarışına" cəmlənmiş olur ki, bu zaman da, əslində, dərsin tədqiqatın aparılması mərhələsində məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də yekunlaşmış olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldib tədqiqat sualına cavab tapır. Bu zaman şagirdlərə aşağıdakı sual və tapşırıqları vermək olar:

- XX yüzilliyin 20-ci illərində Azərbaycanın bəzi ərazilərinin itirilməsinin səbəbi nə idi?
- Sovet Rusiyasının Cənubi Qafqaza münasibətdə Azərbaycan və Ermənistana qarşı olan mövqeyinin fərqi nə idi? Fikrinizi əsaslandırın.
- Azərbaycanın formal müstəqilliyinin ləğvinin ZSFSR-in yaradılması və ləğv olunması ilə əlaqəsini müəyyənləşdirin.

**Yaradıcı tətbiqetmə.** Azərbaycan SSR-dəki mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** Şagirdlərə dərsliyin 114-115-ci səhifələrindəki xəritələr əsasında "Azərbaycanın itirilmiş əraziləri" başlıqlı esse yazılmasını tapşırmaq olar.

**Qiymətləndirmə meyarları:** xronoloji cədvəl hazırlama, dəyərləndirmə

Formativ qiymətləndirmə dərs izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesini izləyərək diqqətdə saxlanılan şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallar da verilə bilər:

- Dərsdə özünüzü necə hiss etdiniz?
- Sizə nə aydın olmadı?
- Hansı suallarınız var?
- Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?

# MÖVZU 21. AZƏRBAYCAN SSR-də HƏYATA KEÇİRİLƏN İQTİSADİ, SİYASİ VƏ MƏDƏNİ TƏDBİRLƏR
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 116–121-ci səhifələrini əhatə edir.

– Birinci dərs 116-cı səhifədən başlayıb 119-cu səhifədəki “Bolşeviksayağı mədəni quruculuq: nailiyyətlərimiz və itkilərimiz” yarımbaşlığınadək olan məlumatları əhatə edir.
– İkinci dərs saatı 119-cu səhifədəki “Bolşeviksayağı mədəni quruculuq: nailiyyətlərimiz və itkilərimiz” yarımbaşlığından başlayıb paraqrafın sonunadək olan məlumatları əhatə edir.

Hər bir dərsin tədrisi zamanı müvafiq səhifələrdəki şəkilləri, izahları, sual və tapşırıqları diqqətdən kənarda saxlamaq lazım deyil. Onu da bildirək ki, yuxarıda məsləhət görülən bölgü mütləq deyil. Bu bölgünü müəllim öz təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişə və yeni bölgü forması yarada bilər.

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

**Təlim məqsədləri:**

1. İnsanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
2. Azərbaycan SSR-də həyata keçirilən mədəni tədbirlərin əlamətlərini şərh edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, cavab əldə elə

**Dərsin gedişi**

**Motivasiya.** Mövzunu tədris edərkən dərsin motivasiyasını qurmaq lazım gəldiyindən “Axırıncı aşırım” bədii filmindən seçilən kadrları şagirdlərə göstərmək olar. Bu kadrların nümayişindən sonra yönəldici suallarla müraciət etmək, motivasiyanı bu əlaqələndirmə əsasında qurmaq məqsədəuyğundur. Filmlə bağlı suallar bu formada ola bilər:

– İzlədiyiniz kadrlar sizə nə haqda məlumat verdi?
– Bu filmdəki hadisələr hansı dövrə aiddir?
– Sizcə, filmdə nədən bəhs edilir?

Verilən bu tip suallar motivasiya qurmağa yardım edəcəkdir. Motivasiya baş tutduqdan sonra tədqiqatın aparılması mərhələsi reallaşdırılır.

**Tədqiqat sualı: Azərbaycan SSR-də iqtisadi və siyasi tədbirlər necə həyata keçirildi?**

**Tədqiqatın aparılması.**

Tədqiqatın aparılması üçün dərsin **cavab əldə elə** üsulu ilə keçilməsi tövsiyə edilir. Bu zaman şagirdlər ayrı-ayrı mənbələrdən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaqlar. Onlar verilən məhdud vaxt ərzində tapşırıqların cavablarını ya internet, ya da paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Tapşırığı elə qoymaq lazımdır ki, o, tədqiqatçılığa söykənmiş olsun. Dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Qruplara tədqiqat üçün aşağıdakı suallar verilə bilər:

**I qrup**

İqtisadiyyatda amirlik sisteminin təşəkkülünü və sosial ziddiyyətləri təhlil edin.

______________________________

______________________________

**II qrup**

Sənayeləşdirmə siyasətini təhlil edin.

______________________________

______________________________

**III qrup**

Azərbaycan SSR-də kollektivləşdirmə siyasətini təhlil edin.

______________________________

______________________________

**IV qrup**

Sovet hökumətinin Azərbaycan ziyalılarına qarşı həyata keçirdiyi “böyük terror” siyasətini təhlil edin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlər cavabları müəyyən olunmuş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur, dağınıq faktlar arasında əlaqə qurulur, əlavələr edilir və fikirlər lazımi məcraya yönəldilir. Müzakirələr zamanı bütün sinfin fəallığı təmin olunur. Onların müzakirələrdə fəal iştirakı nəticələrin alınmasına yardım edəcək. Eləcə də dərsin bu mərhələsində əvvəlcədən müəyyən edilən meyarlar əsasında qruplar qiymətləndirilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək və dərsi ümumiləşdirib nəticə çıxarmaq mümkündür:

- XX yüzilliyin birinci yarısında Azərbaycanda iqtisadiyyatın inkişafını dəyərləndirin.
- Kollektivləşdirmə siyasətinin həyata keçirilməsi səbəblərini müəyyənləşdirin.

– Sizcə, Azərbaycan SSR-də baş vermiş üsyanların kollektivləşdirməyə təsiri necə oldu?
– Sizcə, YİS, yoxsa kollektivləşmə bolşevik ideologiyasına əsaslanırdı? Fikrinizi faktlarla əsaslandırın.
– Sizcə, 1930-cu illərdə baş verən kütləvi repressiyalardan yayınmaq mümkün idimi?
– Repressiyaların səbəbləri nə idi?
– “Böyük terror” və “xalq düşmənləri” dedikdə nə başa düşürsünüz?

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə “Şəxsi mülkiyyət toxunulmazdır” başlıqlı afişa hazırlanması tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, dəyərləndirmə

Dərs izləməsi nəticəsində qiymətləndirmə meyarlar üzrə aparılmalıdır. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirmək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual vermək də olar. Məsələn:
– Biz bu nəticəyə necə gəlib çıxdıq?
– Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi? və s.

# MÖVZU 21. AZƏRBAYCAN SSR-də HƏYATA KEÇİRİLƏN İQTİSADİ, SİYASİ VƏ MƏDƏNİ TƏDBİRLƏR
## (İKİNCİ SAAT)

**Standartlar:**

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Təlim məqsədləri:**

1. XX yüzilliyin 20–30-cu illərində Azərbaycan mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.
2. XX yüzilliyin 20–30-cu illərində Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

***Təlim forması:*** böyük qruplarla iş
***Təlim üsulu:*** akvarium

**Dərsin gedişi:**

**Tədqiqat sualı: XX yüzilliyin 20–30-cu illərində Azərbaycan xalqı hansı mədəni nailiyyətləri əldə etdi?**

**Tədqiqatın aparılması.** Dərsin bu mərhələsinin böyük qruplarla iş formasında akvarium təlim üsulunun köməyi ilə aparılması tövsiyə edilir. Bu iş üsulu üçün sinfi iki dairəyə – iç və çöl dairələrə bölüb iç dairəyə müəyyən vaxt müddətində hər hansı bir problemin müzakirəsi tapşırılır. Sonra akvarium dərs üsulunun qaydalarına uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edilə bilər.

- Bolşeviksayağı mədəni quruculuq: nailiyyətlərimiz və itkilərimizi şərh edin.
- Ədəbiyyat sahəsindəki uğurlarımızı dəyərləndirin.
- İncəsənət və memarlıq sahəsindəki nailiyyətlərimizi qiymətləndirin.

İstər birinci dairədə (iç dairədə) olan şagirdlərə, istərsə də çöl dairədə olanlara verilən tapşırığın müzakirəsi zamanı dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də həyata keçirilmiş olur. “Akvariumda” iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsi həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilən fərziyyələrə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə suallar verilir. Bu sualların əvvəlcədən hazırlanması məqsədəmüvafiqdir. Suallar hazırlayarkən aşağıdakı nümunələrdən yararlanmaq olar:

- XX yüzilliyin 20–30-cu illərində Azərbaycan xalqının hansı mədəni nailiyyətini digərlərindən üstün sayırsınız? Fikrinizi əsaslandırın.
- Sovet hakimiyyətinin ilk illərində ali və orta pedaqoji təhsil müəssisələrinin sayının artırılmasını nə ilə izah etmək olar?
- Mədəni quruculuğun müsbət cəhətlərini nədə görürsünüz?
- Latın qrafikalı əlifbaya keçidin hansı üstünlükləri var idi?
- XX yüzilliyin 20–30-cu illərində Azərbaycan mədəniyyətinin hansı xarakterik əlamətləri var idi?

**Qiymətləndirmə meyarları:** şərh etmə, təqdimetmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə və müəyyən edilən səviyyələr üzrə qiymətləndirilə bilər. Eləcə də hər bir şagirdin öz fəaliyyətini qiymətləndirməsi həyata keçirilə bilər. Bunun üçün aşağıdakı cədvəldən istifadə etmək olar.

Şagirdin adı, soyadı ______________________________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Dinləmək bacarığım var idi. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |
| Nəticə çıxarmağı bacardım. | | | |
| İzlədiyim sinif yoldaşımı qiymətləndirdim. | | | |
| Fikirlərimi səlis şərh etdim. | | | |

# MÖVZU 22. AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ
## (BİRİNCİ SAAT)

**QEYD:** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Birinci dərsin 1.1.1. standartı (mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir) əsasında, ikinci dərsin isə 4.1.2. standartı (Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir) əsasında keçilməsi planlaşdırılır. Dərsin bu formada planlaşdırılması şagirdlərə həm Azərbaycanın İkinci dünya müharibəsi qəhrəmanlarını yaxından tanımasına, həm də onların Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayıb, təqdim etməsinə şərait yaradar.

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Azərbaycanda və azərbaycanlıların İkinci dünya müharibəsində iştirakını zaman baxımından qiymətləndirir.
2. Azərbaycanın İkinci dünya müharibəsi qəhrəmanlarından olan H.Aslanov, M.Hüseynzadə, İ.Məmmədov, Z.Bünyadov və Ə.Cəbrayılova dair materiallar toplayır, təqdim edir.

***Təlim formaları:*** böyük qruplarla iş, fərdi iş
***Təlim üsulları:*** beyin həmləsi, bitməmiş cümlələr

**Dərsin gedişi**

**Motivasiya.** YouTube-dən İkinci dünya müharibəsinə, bu müharibədə azərbaycanlıların və Azərbaycanın iştirakına dair çoxlu sayda videomaterialların olduğunu nəzərə alaraq dərsin motivasiyasını elektron resursların köməyi ilə qurulması məqsədəmüvafiqdir. Deyilən internet ünvanından İkinci dünya müharibəsi ilə bağlı yüklədiyiniz sənədli filmlərdən və ya "Uzaq sahillərdə", "Ölsəm, bağışla" kinofilmlərindən bir parçanı göstərmək olar. Bundan sonra filmlə bağlı 1-2 yönləndirici sual verilsə, yaxşı olardı. Cavabları ümumiləşdirdikdən sonra tədqiqat sualını elan edib dərsin növbəti mərhələsinə başlamaq olar.

**Tədqiqat sualı: Azərbaycanlılar İkinci dünya müharibəsində SSRİ-nin qələbəsinə hansı töhfələr verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatı *"bitməmiş cümlələr"* üsulunun köməyi ilə həyata keçirmək məqsədəmüvafiqdir. Yaxşı olardı ki, dərsin məqsədini, tədqiqat sualını şagirdlərə elan edəndən sonra qısaca bu üsulun izahı verilsin.

Şagirdlərə aşağıdakı formada *"bitməmiş cümlələr"* vermək olar.

- Azərbaycanın İkinci dünya müharibəsində iştirakını belə qiymətləndirərdim ki, ............................
- Moskva yaxınlığında məğlubiyyətdən sonra A.Hitler və onun ətrafının fikirlərini belə dəyərləndirərdim ki, ............................
- “Edelveys” planını belə qiymətləndirmək olar ki, ............................
- Stalinqrad döyüşü haqqında mən ............................ öyrəndim.
- Azərbaycan SSR-in ərazisində milli hərbi hissələrin yaradılmasını belə qiymətləndirərdim ki, ............................
- Bugünkü dərsdə mən Azərbaycanda yaradılan milli hərbi hissələrin döyüş yolu haqqında ............................ öyrəndim.
- İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanına belə qiymət verərdim ki, ............................
- H.Aslanovun döyüş yolunu belə dəyərləndirərdim ki, ............................
- Q.Məmmədovun şücaəti bizə belə nəticə çıxarmağa imkan verir ki, ............................
- Mehdi Hüseynzadənin fəaliyyətini belə qiymətləndirmək olar ki, ............................
- Ə.Cəbrayılovun Fransanın “Hərbi Xaç” medalına layiq görülməsini belə qiymətləndirərdim ki, ............................ .
- Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakından belə nəticə çıxarmaq olar ki, ............................
- İkinci dünya müharibəsində SSRİ-nin qələbə qazanmasında Azərbaycan iqtisadiyyatının rolunu belə qiymətləndirərdim ki, ............................

Cümlənin tamamlanmasını bir neçə şagirdə tapşırmaq olar. Hər şagirdə fikrini ifadə etmək üçün neçə dəqiqə vaxt verildiyi əvvəlcədən elan edilməlidir. Bu, dərs prosesində əlavə vaxt itkisinin qarşısını alacaqdır.

Əslində, dərsin bu mərhələsində ***məlumatın mübadiləsi və müzakirəsi*** mərhələsi də yekunlaşdırılmış olur. Şagirdlərin çıxışları bitəndən sonra müəllim söz alıb öz fikirlərini ifadə edir. Bu zaman şagirdlərdən bu haqda fikirlərini soruşmaq, mərhələni yekunlaşdırmaq olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Bunun üçün də şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək məqsədəmüvafiqdir.

- Müharibədə Azərbaycanın milli diviziyalarının fəaliyyətini necə qiymətləndirərdiniz?
- Sizcə, Bakı faktoru olmasa idi, İkinci dünya müharibəsinin gedişatı necə olardı?
- Sizcə, Həzi Aslanova və Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adının gec verilməsinin səbəbi nə ola bilərdi?
- Müharibənin gedişinə Azərbaycan iqtisadiyyatının təsirini necə dəyərləndirirsiniz?
- Azərbaycan İkinci dünya müharibəsində necə rol oynamışdır?

**Ev tapşırığı.** Azərbaycanın İkinci dünya müharibəsi qəhrəmanlarından olan H.Aslanov, M.Hüseynzadə, İ.Məmmədov, Z.Bünyadov və Ə.Cəbrayılova dair materiallar

toplayıb təqdim etmək tapşırılır. Sinfi kiçik qruplara bölüb və hər qrupa bir şəxsiyyət haqqında materialların toplanması tapşırıla bilər. Bu tapşırıqla yanaşı, şagirdlərə növbəti dərsin onlara verilən ev tapşırığının icrası zamanı toplanılan materiallar əsasında qurulması bildirilir.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, materiallar toplayıb təqdimetmə

Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır. Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiqetmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir. İkinci meyar üzrə şagirdləri qiymətləndirmək onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun **qarşılıqlı qiymətləndirmə vərəqi** verilə bilər.

## QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

| Meyarlar | 1. Dostunun adı, soyadı ______ ______ | 2. Dostunun adı, soyadı ______ ______ | 3. Dostunun adı, soyadı ______ ______ |
|---|---|---|---|
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb və fikrini izah etdimi? | | | |
| Hər hansı bir hadisəni və ya şəxsi qiymətləndirə bildimi? | | | |
| Başqalarına maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# MÖVZU 22. AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ
## (İKİNCİ SAAT)

**QEYD:** Yuxarıda qeyd etdiyimiz kimi, mövcud paraqrafın tədrisinə iki saat ayrılmış və ikinci dərsin 4.1.2. standartı (Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir) əsasında keçilməsi planlaşdırılıb.

**Standart:**

4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**Təlim məqsədi.**

Azərbaycanın İkinci dünya müharibəsi qəhrəmanlarından olan H.Aslanov, M.Hüseynzadə, İ.Məmmədov, Z.Bünyadov və Ə.Cəbrayılova dair materiallar toplayır, təqdim edir.

***Təlim forması:*** kiçik qruplarla iş
***Təlim üsulu:*** təqdimat

**Dərsin gedişi**

Ötən dərsdə şagirdlərə verilən ev tapşırığının icrası zamanı əldə edilən materiallar əsasında onlara kiçik qruplarla iş formasında təqdimat hazırlamağı tapşırıq kimi vermək olar. Bunun üçün də onlara lazımi dəstək göstərilməlidir.

# MÖVZU 23. CƏNUBİ AZƏRBAYCANDA MİLLİ AZADLIQ HƏRƏKATI

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Cənubi Azərbaycanda yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
2. Cənubi Azərbaycanda sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, karusel

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanı qurmaq üçün açar sözlərdən istifadə etmək olar. Açar sözlər kimi ***Məşrutə hərəkatı, Alaqapı, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, İctimai İdarə Heyəti, Fədai dəstələri*** sözlərindən istifadə edilə bilər. Bu sözləri lövhədə və ya iri bir vatman kağızında yazmaq məsləhətdir. Sonra şagirdlərə tədqiqat sualına yönəlmiş köməkçi suallar verilməlidir. Yaddan çıxartmaq olmaz ki, bu yönəldici sualların cavabı uzun vaxt aparmamalı, düşündürücü xarakter daşımalıdır. Motivasiyanı uğurla qurduqdan sonra tədqiqat sualı elan edilə bilər.

**Tədqiqat sualı: XX yüzilliyin 40-cı illərində Cənubi Azərbaycanda Milli hökumətin yaranması necə baş verdi?**

**Tədqiqatın aparılması.**

Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında **karusel** təlim üsulundan istifadə etməklə dərsi qurmaq mümkündür. Tədqiqat üçün qruplara aşağıdakı sual və tapşırıqlar və ya müəllimin məsləhət bildiyi tapşırıqlar verilə bilər:

**I qrup**

Cənubi Azərbaycanın 1920–1945-ci illərdə sosial-iqtisadi tarixini təhlil edin.

______________________________________________

______________________________________________

**II qrup**

Paniranizm və onun fəsadlarını dəyərləndirin.

______________________________________________

______________________________________________

**III qrup**
Milli hökumətin gördüyü tədbirləri dövrün xüsusiyyətləri ilə əlaqələndirin.

**IV qrup**
Milli hökumətin süqutunu araşdırın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplara tədqiqat aparmaq üçün verilən vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edilir. Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qrup təqdimatı zamanı təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Müəllim müzakirə zamanı fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsində və onların təşkilində şagirdlərə kömək edir. Dərsin bu mərhələsində qrupları əvvəlcədən müəyyən edilən meyarlar əsasında qiymətləndirmək olar.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetirilməsi | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində etmək olar. Lakin bu zaman ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verilməlidir. Onları əvvəlcədən hazırlamaq məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

- Cənubi Azərbaycanda Pəhləvilərlə Azərbaycan SSR-də sovet hakimiyyətinin yerli əhaliyə qarşı münasibətini müqayisə edin. Hansı oxşar və fərqli cəhətlər var?
- İran-SSRİ əlaqələrinin kəsilməsinin İran iqtisadiyyatına mənfi təsirini faktlarla əsaslandırın.
- Sizcə, Rza şah etnik Azərbaycan türklərinə qarşı nə üçün bu cür addımlar atırdı? Onu qorxudan nə idi?

- “Soyuq müharibə”nin Şimali və Cənubi Azərbaycana fərqli təsirini faktlarla əsaslandırın.
- Milli hökumətin ən böyük uğuru nə idi?
- Milli hökumətin həyata keçirdiyi tədbirlərə milli şüurun oyanışı demək olarmı?
- Rza şahın tədbirləri nə ilə nəticələndi?
- Nə üçün Stalin sovet qoşunlarının İrandan çıxarılmasına razılıq verdi?
- 1941–1946-cı illər milli azadlıq hərəkatı məğlubiyyətə uğramasaydı, nə baş verə bilərdi?

**Yaradıcı tətbiqetmə.** Əvvəlki mövzu materiallarından istifadə etməklə Cənubi Azərbaycanla bağlı 6-7 sözdən ibarət krosvord hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** Seyid Cəfər Pişəvərinin şəxsiyyəti və fəaliyyəti haqqında təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, təhliletmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar səsləndirməklə təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Bu zaman yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla, səviyyələr üzrə şagirdləri qiymətləndirmək tövsiyə edilir. Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun özünüqiymətləndirmə vərəqi verilə bilər.

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Adı və soyadı** ______________________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| QABİLİYYƏTLƏR | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

8. Bu dərsdə nələri öyrəndim?

9. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

***Şərhlər:***

# MÖVZU 24. AZƏRBAYCAN SSR 1940-CI İLLƏRİN ORTALARI – 60-CI İLLƏRDƏ

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
2. Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafını Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə əlaqəli dəyərləndirir.
3. Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim forması:*** qruplarla iş
***Təlim üsulu:*** ziqzaq

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisinə müxtəlif materiallar motivasiya üçün yardımçı ola bilər. Məsələn, şagirdlərə Neft daşları, onun Xəzər dənizində salınması ilə bağlı material təqdim etməklə yönləndirici suallar vermək olar. Yaxud da bu illərdə Azərbaycanda sosial və iqtisadi sahədə baş vermiş yeniliklərlə bağlı slaydlar göstərmək olar. “Qara daşlar” əsərindən bir parça oxumaqla da mövzuya maraq oyatmaq olar. Eyni zamanda Mircəfər Bağırova həsr edilmiş kitabdan bir parça oxuyub şagirdlərə suallar verməklə motivasiya qurmaq olar ki, bu da sinifdən, eləcə də müəllimin fəaliyyətindən çox aslıdır. Motivasiya baş tutduqdan sonra tədqiqat sualı verilir.

**Tədqiqat sualı: Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə hansı tarixi prosesi keçdi?**

**Tədqiqatın aparılması.** Bu suala cavab tapmaq üçün mütləq şagirdlər mövzu ilə tanış olmalı, araşdırmanı həyata keçirməlidirlər. Bu mövzunun tədrisində mozaika üsulundan istifadə etmək olar. Bu üsulun tətbiqində məqsəd az vaxtda mövzunun əhatəli öyrənilməsinə və şagirdlərin bütün məsələlərin həllində iştirak etməsinə nail olmaqdır. Həmçinin mübahisə, ünsiyyət və qrup daxili qarşılıqlı əlaqə hisslərini inkişaf etdirmək, fərdi və qrup

məsuliyyətini artırmaqdır. Üsulun tətbiqi zamanı sinif 4 nəfərlik qruplara bölünür. Hər qrupdakı şagirdlər 1-dən 4-dək sayırlar. Kim hansı rəqəmi desə, bu onun nömrəsi olur. Şagirdlərə dərslikdəki mətn verilir və qeyd edilir ki, mətni araşdırmaq və məzmunu dərk etmək lazımdır. Onlar bilməlidir ki, mətn 4 hissəyə bölünmüşdür. Hər qrupdakı 1 N°-li iştirakçı 1-ci, 2 N°-li 2-ci, 3 N°-li 3-cü, 4 N°-li 4-cü hissələrə cavabdehdir. Eyni nömrəli iştirakçılar bir yerə toplaşır və onlar ekspert qrupları adlanırlar. Vəzifələri onlara düşən hissəni öyrənməkdir. Ekspert qrupunun hər bir üzvü öyrəndiyi hissəni əvvəlki qrupun üzvlərinə izah etməlidir. Şagirdlər bilməlidir ki, sonradan onların bəzilərinə öyrətdikləri hissəni bütün sinfə izah etmək lazım gələcək. Ekspert qruplarının işi başa çatdıqdan sonra onlar əvvəlki qruplarına qayıdıb materialın məzmununu onlara izah edirlər. Şagirdlər bilməlidirlər ki, yekunda bütün qrup üzvlərinin materialın məzmununu tam mənimsəməsi zəruridir. Şagirdlər hər hansı hissə ilə əlaqədar yarana biləcək sualları yazır və ona cavabdeh olan ekspertə müraciət edir. Əgər cavabsız suallar qalırsa, onları araşdırmaq üçün tədqiqat aparmaq lazımdır.

Müəllim test vasitəsilə şagirdlərin qavrama, analiz və sintez bacarıqlarını yoxlayan suallar verə bilər. Müəllim şagirdlərin işə cəlb olunmasını və əməkdaşlığını stimullaşdırmalıdır.

Digər bir metod isə problemli situasiya yaradıb sinfi qruplara bölməklə aşağıdakı tapşırıqları vermək olar.

**I qrup**

Sosial-iqtisadi siyasətdəki prioritetləri və ziddiyyətləri təhlil edin.

______________________________

______________________________

**II qrup**

Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə kənd təsərrüfatı sahəsi və istehsal münasibətlərinin inkişafını Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə əlaqəli dəyərləndirin.

______________________________

______________________________

**III qrup**

Azərbaycanın ərazi bütövlüyünə yeni təhdidlər və azərbaycanlıların Ermənistandan deportasiyasını əlaqələndirib təhlil edin.

______________________________

______________________________

**IV qrup**

Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzkirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlər cavabları müəyyən edilmiş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən olunan meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bunun üçün şagirdlərə bu suallarla müraciət edilə bilər:

- Stalinizimlə mübarizə nə üçün lazımlı idi?
- Mülayimləşmə dövründə görülən tədbirlərin əhəmiyyəti nə idi?
- Kənd təsərrüfatının inkişafını necə dəyərləndirərdiniz?
- Sənayenin inkişafını necə dəyərləndirərdiniz?
- Sizcə, İ.Mustafayevin hakimiyyətə gəlişi hansı dəyişikliklərə səbəb oldu? və s.

Şagirdlər Azərbaycan SSR 1940-cı illərin ortaları – 60-cı illərdə insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirməklə yanaşı, müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafını Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə əlaqəli dəyərləndirir. Həmçinin Azərbaycan SSR-in 1940-cı illərin ortaları – 60-cı illərdə sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhliletmə bacarığına malik olurlar.

Qrup işinin qiymətləndirilməsi zamanı aşağıdakı meyar cədvəlindən istifadə edilə bilər.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə şagirdlərə: “Ermənilərin ərazi iddialarına siz hansı cavabı verərdiniz?” sualı verilə bilər. Verilmiş sualı cavablandırmaq onlarda təsəvvür etmə, fərziyyə irəli sürmə, hadisələrə yaradıcı yanaşma kimi bir sıra bacarıqlar formalaşdırmağa kömək edəcəkdir.

**Ev tapşırığı.** Bu dövrün proseslərini cədvəl əsasında sistemləşdirmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, dəyərləndirmə, təhliletmə

## ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Şagirdləri qiymətləndirmək üçün aşağıdakı özünüqiymətləndirmə vərəqindən də istifadə edilə bilər.

Adı, soyadı, atasının adı ____________________

Tarix ____________________

| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Əməkdaşlıq etdim. | Sual-cavabda aktiv idim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

# MÖVZU 25. AZƏRBAYCAN SSR 1970–80-Cİ İLLƏRDƏ

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan SSR-in 1970–80-ci illərinə dair tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
2. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Heydər Əliyevin rolunu dəyərləndirir.

***Təlim forması:*** qrup işi
***Təlim üsulu:*** karusel

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisində dərslikdəki əlavə materiallardan və ya açar sözlərdən istifadə edilə bilər. Bildiyiniz kimi, müasir dərsliklərdə mətn əsas və əlavələrə bölünür. Əsas mətn mühüm hadisələri, faktları ehtiva edir. Burada əsas anlayışlar və terminlərin mahiyyəti açıqlanır, əsas fikirlər və ideyalar işarələnir. Əlavə material maraqlı faktlardan, sənədlərin fraqmentlərindən, əsas biliyin genişləndirilməsindən ibarət olur. Yaxud da Heydər Əliyevə həsr edilmiş sənədli filmdən epizod göstərməklə şagirdlərə yönləndirici suallar verilə bilər.






Gördüyünüz bu şəkillər haqqında nə deyə bilərsiniz? Sizdə hansı fikir formalaşdırır? və s. bu kimi yönləndirici sullar verməklə də motivasiya reallaşdırıla bilər.

**Tədqiqat sualı: Azərbaycanın XX əsrin 70–80-ci illər tarixində Heydər Əliyevin rolu nədən ibarətdir?**

**Tədqiqatın aparılması.** Suala cavab tapmaq üçün aşağıdakı tapşırıqları daha maraqlı və öyrədici etmək üçün karusel üsulundan istifadə etmək olar.

Bu mövzunun öyrənilməsində uğurlu hesab olunan üsullardan biri də karusel üsuludur. Şagirdlər az vaxtda mövzunun əhatəli öyrənilməsinə və bütün məsələlərin həllində iştirak etməyə nail olmaqla yanaşı, məntiqi, tənqidi və müstəqil düşünməni inkişaf etdirmək, fərdi və qrup məsuliyyətini artırmaq, ünsiyyət və qrup daxili qarşılıqlı əlaqə hisslərini inkişaf etdirmək bacarığına malik olurlar.

Bu üsulun tətbiqi zamanı müəllim mövzuya dair 4-5 sual və ya tapşırıq seçir. Sinif 4-5 qrupa bölünür və hər qrupa bir suala cavab yazmaq tapşırılır. Bunun üçün 5 dəqiqə vaxt verilir. Vaxt çatdıqda hər qrup yazdığı vərəqi qonşu qrupa ötürür. Hər qrup bu vərəqlərdəki yazıları nəzərdən keçirir və öz əlavələrini edir. Bu proses o qədər təkrarlanır ki, bütün qruplar iş vərəqlərini nəzərdən keçirib əlavələr edir. Sonra iş vərəqi ilkin qrupa qaytarılır, təqdimatlar və onların müzakirəsi başlanır. Şagirdlər ümumiləşdirmələr aparır. Nəzərə alınmalıdır ki, seçilən suallar və tapşırıqlar mövzunu əhatəli keçməyə imkan verməlidir. Müəllim vaxtı məhdudlaşdırmalı və ötürmə prosesinin eyni zamanda olduğunu nəzərə almalıdır. İş vərəqləri böyük olmalıdır ki, hər qrupa yazmaq üçün yer olsun.

**I qrup**

XX yüzilliyin 70–80-ci illərində Azərbaycan iqtisadiyyatında və sənayesində baş vermiş dəyişikliklərin səbəbini izah edin.

**II qrup**

İqtisadiyyatın modernləşdirilməsi və əsas inkişaf xüsusiyyətlərini qeyd edin.

**III qrup**

Azərbaycan SSR-in 1970–80-ci illərinə dair tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirin.

**IV qrup**
Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Heydər Əliyev rolunu dəyərləndirin.

---

---

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyənləşdirilən meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə aşağıdakı suallarla müraciət edilə və dərs ümumiləşdirilib nəticə çıxarıla bilər:

- 1969–1982-ci illər nə üçün respublikanın iqtisadiyyatında dönüş dövrü hesab edilir?
- 1979-cu ildə Ağdam-Stepanakert (Xankəndi) dəmir yolunun çəkilməsinin əhəmiyyəti nə idi?
- Sizcə, 80-ci illərin sonlarında H.Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, hansı problemlərdən qaçmaq mümkün olardı?
- Heydər Əliyevi dövr baxımından necə qiymətləndirərdiniz?

Suallar verməklə ümumiləşdirmə aparılır, nəticə çıxarılır və şagirdlər bu dərsin nəticəsi olaraq Azərbaycan SSR-in 1970–80-ci illərinə dair tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir və dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Heydər Əliyev rolunu dəyərləndirir.

**Yaradıcı tətbiqetmə.** Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlı diaqram hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** Ulu öndərin 1970–80-ci illərdəki fəaliyyəti ilə bağlı təqdimat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, dəyərləndirmə

Qiymətləndirmə dərs izləməsi nəticəsində meyarlar üzrə aparılmalıdır. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirimək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual verməklə – məsələn, “Biz nəticəyə necə gəlib çıxdıq? Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi?” və s. qiymətləndirməni yekunlaşdırmaq olar.

# MÖVZU 26. YENİDƏNQURMA SİYASƏTİ. QARABAĞ MÜNAQİŞƏSİNİN BAŞLANMASI

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Yenidənqurma siyasəti. Qarabağ münaqişəsinin başlanmasına dair xronoloji cədvəl hazırlayır.
2. Yenidənqurma siyasəti dövründə baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** fərdi və cütlərlə iş

***Təlim üsulları:*** beyin həmləsi, fasiləli oxu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya üçün əvvəlcədən hazırladığımız yenidənqurma və Azadlıq meydanında baş vermiş hadisələrlə bağlı şəkilləri şagirdlərə göstərməklə, onlara yönləndirici suallar vermək olar. Təqdim etdiyiniz şəkilləri şəraitə uyğun olaraq adi çıxarılmış şəkillər, yaxud da İKT-nin köməyindən istifadə etməklə slayd şəklində təqdim etmək olar. Əgər İKT imkanlarınız varsa və sinfin ümumi şəraiti buna imkan verirsə, o zaman Azadlıq hərəkatına dair çəkilmiş sənədli filmdən və ya videogörüntüdən bir epizodu göstərməklə motivasiyanı daha maraqlı və sövqedici etmək olar. Yönləndirici suallar motivasiya üçün şərtdir. Şagird kor-koranə təqdim olunan şəklə və yaxud da slayda fikir bildirərsə, təbii ki, bu zaman istiqamət fərqli yerlərə, məqsəddən kənara yönlənə bilər. Müəllim özünün öncədən hazırladığı, yəni nəzərdə tutduğu yönləndirici sualları verərkən bir qədər diqqətli olmalıdır.

**Tədqiqat sualı: Yenidənqurma siyasətinin və Qarabağ münaqişəsinin başlanmasının tarixi proseslərə təsiri nədən ibarət oldu?**

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması üçün şagirdlər fasiləli oxu üsulunun tələbinə uyğun mətnlə tanış olur. Tədqiqat sualına cavab tapmaq üçün müəyyən fikir söyləyirlər. Bəzən tədqiqat sualı ilə qrupa veriləcək sualı qarışdırırlar. Tədqiqat sualı ümumi bir sual olur və bu suala cavab tapmaq üçün müxtəlif tapşırıqların həllinə ehtiyac yaranır. Qrupa suallar qoyulsa da, onun tapşırığa çevrilməsi zəruridir. Yəni şagird verilmiş suala əsasən hansı işi görsün. Əslində, məqsəd şagirdlərdə müəyyən bilik və bacarıqların formalaşdırılmasına şərait yaratmaqdır. Bununla yanaşı, mövzunun tədrisi zamanı inteqrasiya imkanları da unudulmamalıdır. İnteqrasiya zamanı şagirdlərin bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi üçün şərait yaradılır. Tədqiqat sualına cavab axtarmaq üçün tapşırıqlar verilir.

Tapşırıqlar dərslikdə öz əksini tapan mövzunu əhatə edən sual və tapşırıqlardan istifadə ilə həyata keçirilərsə, daha yaxşı olar. Bu zaman şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mövzu ilə yaxından tanış ola bilərlər. Tədqiqatı aparmaq üçün sinif qruplara bölünür. Qrupları mövzuya uyğun istənilən şəkildə adlandırmaq olar. Hər qrup üçün iş vərəqləri əvvəlcədən hazırlanır. Mövzu geniş bir tarixi prosesləri əhatə edir. Bunun üçün şagirdlərin yaş səviyyəsini nəzərə alaraq, tədqiqatı iki mərhələli təşkil etmək olar. İlk növbədə, Qarabağ münaqişəsinə gətirən səbəbləri araşdırmaq lazımdır. Bunun üçün ermənilərin özbaşınalığına rəvac verən sosial-siyasi vəziyyət araşdırılmalıdır. Şagirdlər artıq mövzunun kökündə dayanan yenidənqurma və "aşkarlıq" siyasəti ilə Ümumi tarix fənnindən tanışdırlar. Ona görə də iki mərhələli tədqiqatın aparılması çətin olmaz. Tədqiqatın birinci mərhələsində qruplardan birinə aşağıdakı tapşırıqlar verilə bilər, digər bir tərəfdən isə mövzunun sonunda verilmiş sual və tapşırıqlar arasından məqsədəuyğunu seçilə bilər.

Çox vaxt müəllimlər təlim üsullarını seçərkən təlim məqsədlərini diqqətdə saxlamağı unudurlar və nəticədə də müəyyən edilmiş təlim məqsədləri ilə üsullar arasında uyğunsuzluq yaranır. Azərbaycan tarixi dərslərində inteqrativ bilik və bacarıqların reallaşmasına xidmət etməli olan bu üsullar, sadəcə olaraq, "söz" xarakteri daşımış olur. Müəllim təlim məqsədlərini müəyyənləşdirdikdən sonra "Mən, bu məqsədlərə çatmaq üçün hansı fəal təlim üsullarını tətbiq etsəm, daha məqsədəuyğun olar?" – sualı ətrafında düşünməlidir. Bəzən müəllimlər elə üsullar seçirlər ki, bu üsullardan fəal/interakiv dərsin heç bir mərhələsində istifadə edilmir. Unutmamalıyıq ki, seçdiyimiz üsullar bizim müəyyənləşdirdiyimiz təlim məqsədlərinin reallaşmasına xidmət etməlidir.

**I cüt**

Yenidənqurmanın iqtisadiyyata zərbə vurmasının səbəbini əsaslandırın.

______________________________

______________________________

**II cüt**

Sovet rəhbərliyinin Xüsusi İdarə Komitəsini yaratmaqda məqsədi nə idi? İzah edin.

______________________________

______________________________

**III cüt**

Yenidənqurma siyasəti və Qarabağ münaqişəsinin başlanmasına dair xronoloji cədvəl hazırlayın.

______________________________

______________________________

**IV cüt**

Yenidənqurma siyasəti dövründə baş verən dəyişiklikləri təhlil edin.

______________________________

______________________________

**V cüt**
Qarabağda separatçılıq ocağının alovlanması dövrünün xronoloji cədvəlini tərtib edin.

**VI cüt**
Qorbaçovun yenidənqurma siyasətinin iflasını təhlil edin.

**VII cüt**
Qarabağ münaqişəsinin xronoloji cədvəlini tərtib edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlər mübadilədən sonra müzakirələr aparır. Dərslikdəki mövzu daxilindəki suallardan və ya aşağıdakı müzakirə suallarından istifadə edilə bilər:

– Həqiqətənmi, Sumqayıt hadisələri düşünülmüş şəkildə həyata keçirilmişdi?
– Nə üçün Azərbaycandakı rəhbərlər münaqişəni həll edə bilmədilər?
– Qarabağ münaqişəsi Azərbaycan xalqının siyasi mütəşəkkilliyinə necə təsir göstərdi?

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələni tapşırıqların və müzakirə suallarına verilmiş cavabların əsasında müəyyənləşdirmək olar. Bu, şagirdlərin özü tərəfindən aparılmalıdır. Şagirdlər yenidənqurma və "aşkarlıq" siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair xronoloji cəvəllər hazırlamaqla yanaşı, yenidənqurma siyasəti dövründə baş verən dəyişiklikləri təhlil edir.

Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olmaq lazımdır. Sinfin səviyyəsi nəzərə alınır. Tapşırıqlar verərkən inteqrasiya imkanları da unudulmamalıdır.

Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

**Yaradıcı tətbiqetmə.** Bu mərhələ şagirdlərin əldə etdikləri bilik və bacarıqların daha da möhkəmləndirilməsinə xidmət edir. Bu mərhələni bir növ yoxlama mərhələsi də adlandırmaq

mümkündür. Bu anda artıq mövzu üzrə sistemləşdirilmiş, inteqrativ bilik və bacarıqlar əldə edildiyi üçün şagirdlər sərbəst, müstəqil tədqiqatçılıq vərdişləri əsasında bu bilik və bacarıqların tətbiqini həyata keçirmək iqtidarında olacaqlar. Onu da qeyd etmək lazımdır ki, əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün deyilsə, o, sonrakı dərslərdə həyata keçirilir və nəticəsi mütləq şagirdlərə bildirilir.

Tapşırıq "Qarabağ münaqişəsinə dair şüar hazırlayın" ola bilər.

**Ev tapşırığı.** Şagirdlərin tədqiqat nəticəsində əldə etdikləri bilik, bacarıq və vərdişləri möhkəmləndirmənin yollarından biri də onlara sərbəst iş forması kimi ev tapşırığının verilməsidir. Ev tapşırıqlarının, əsasən, tədqiqat və yaradıcı xarakterdə olmasına xüsusilə diqqət yetirmək lazımdır. Bunlara əsasən müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar aid edilə bilər.

Mövzumuzla bağlı ev tapşırığını bu cür təyin etmək olar: "Yenidənqurma siyasəti" mövzusunda təqdimat hazırlayın. Ev tapşırığı verərkən, müəllim şagirdlərə kömək məqsədilə şagirdlərin araşdıra biləcəyi mənbələrin siyahısını da verə bilər.

**Qiymətləndirmə meyarları:** cədvəl hazırlama, təhliletmə

# MÖVZU 27. İRAN İSLAM İNQİLABI VƏ CƏNUBİ AZƏRBAYCAN

**Standart:**

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

**Təlim məqsədi:**

İran İslam inqilabı və Cənubi Azərbaycana dair müxtəlif mənbələr əsasında təqdimat hazırlayır.

***Təlim forması:*** qrup işi
***Təlim üsulları:*** şaxələndirmə, təqdimat hazırlama üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı verilmiş açar sözlərdən istifadə etməklə motivasiya qurmaq olar. Yaxud şaxələndirmə üsulu ilə İran inqilabına aid sözləri yazmaqla şagirdlərdən cavab almaq mümkundur. Dövrə dair müxtəlif mənbələri oxumaqla da motivasiyanı reallaşdırmaq olar. İran inqilabı ilə bağlı verilmiş bir hissəni şagirdlərə oxumaqla da motivasiyanı qurmaq olar. Müzakirəni bu istiqamətdə aparmaqla motivasiya mərhələsi həyata keçirilə bilər.

**Tədqiqat sualı: İran İslam inqilabının İranın, eləcə də Cənubi Azərbaycanın həyatındakı rolu nədən ibarət olmuşdur?**

**Tədqiqatın aparılması.** Bu mövzunu tədris edərkən dərsin tədqiqat mərhələsini qruplarla iş formasında aparmaq məqsədəmüvafiqdir. Bu zaman şagirdlər araşdırma aparar və tədqiqat sualına cavab taparlar. Qruplara verilən tapşırıqlar aşağıdakı formada ola bilər:

**I qrup**

İran İslam inqilabına dair təqdimat hazırlayın.

____________________________________________________________

____________________________________________________________

**II qrup**

Mənbələrə əsasən Təbriz üsyanına aid təqdimat hazırlayın.

____________________________________________________________

____________________________________________________________

**III qrup**
Ruhullah Xomeyninin fəaliyyətini təhlil edib təqdimat hazırlayın.

______________________________________________________________

______________________________________________________________

**IV qrup**
"İran inqilabının Cənubi azərbaycanlıların həyatına təsiri" adlı təqdimat hazırlayın.

______________________________________________________________

______________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra qruplar əvvəlcədən müəyyən olunmuş meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qruplar öz təqdimatlarını etdikdən sonra dərsin yekunlaşdırılması və tədqiqat sualına cavabın tapılması üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:
– Sizcə, nə üçün neftçilərin aramsız ümumi tətili inqilabın taleyini həll etdi?
– Ölkədə başlanan inqilabı sosial partlayış adlandırmaq olarmı?
– Sizcə, İran İslam inqilabı dünyada baş verən digər inqilablardan hansı xüsusiyyətlərinə görə fərqlənirdi?
– Cənubi Azərbaycanın İran dövlətinə təsirini necə dəyərləndirərdiniz?
– Hansı faktlara əsasən İran inqilabını qalib inqilab hesab edirsiniz?

Qruplarla iş formasında aparılan dərslərdə şagirdlərin özlərini qiymətləndirməsi də önəmli məsələlərdəndir. Özünüqiymətləndirmə şagirdin özü özünün zəif və güclü tərəfləri haqqında informasiyanın analizinə yönəlmiş bir prosesdir.

Müəllim şagirdlərdə öz bilik və bacarıqlarını obyektiv qiymətləndirmə bacarıqları formalaşdırmalıdır. Özünüqiymətləndirmə bacarıqları şagirdlərdə öz işlərini müxtəlif meyarlarla qiymətləndirərkən yaranır. Bu zaman aşağıdakı cədvəldən istifadə etmək mümkündür:

Şagirdin adı ______________________________________________
Tarix ______________________________________________
Sinif ______________________________________________

Qrupda işləyərkən sən hansı fəaliyyəti göstərdin? Meyarları diqqətlə oxu və variantlardan birini işarələ.

1. Mən məlumatı aydınlaşdırmaq və dəqiqləşdirmək üçün suallar verdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez

2. Mən tapşırığın həllinə kömək edəcək fikirlər deyirdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez
3. Qrup üzvlərinin fikirlərini dinləyirdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez

4. Qrup üzvlərinin fikirlərini şərh edirdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez

5. Müzakirəyə qoşulmayan qrup üzvlərini müzakirəyə cəlb edirdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez

6. Qrupda mənə həvalə olunan vəzəifəni icra edirdim.
   - heç vaxt
   - bəzən
   - tez-tez

7. Qrup işində ən çox xoşuma gələn ______________________________

8. Qrup işində ən çox mənə çətin gələn ______________________________

9. Növbəti qrup işi üçün təklif edirəm ki, ______________________________

Özünüqiymətləndirmə cədvəli müəllim üçün hər bir şagird haqqında məlumat bazası rolunu oynayır. Bu cədvəl doldurulduqdan sonra şagird özü də öz işi haqqında müəyyən fikirlərə gəlir. Özünüqiymətləndirmə təkcə öz işini qiymətləndirmək deyil, həm də şagird qarşısında duran problemləri müəyyənləşdirmək və onların həlli yollarını tapmağa kömək edən bir vasitədir.

**Yaradıcı tətbiqetmə.** Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı tapşırıq verilə bilər: “Cənubi Azərbaycan və İran inqilabı” adlı esse yazın.

**Ev tapşırığı.** Aşağıdakı mövzuda təqdimat hazırlamaq tapşırıla bilər: Cənubi Azərbaycan İran İslam inqilabından nə əldə etdi?

**Qiymətləndirmə meyarı:** təqdimat hazırlama

Meyar üzrə qiymətləndirmə üsulunu dərsin sonunda tətbiq etmək olar. Bu üsul bütün siniflə keçirilir. Müəllim şagirdlərin istəyi ilə hər hansı hadisəni meyar üzrə qiymətləndirir. Meyarlar şagirdlərlə birlikdə əvvəlcədən “Niyə hadisə pis və ya yaxşıdır?” sualı ilə müəyyənləşdirilir. Cavablar aşağıdakı meyar cədvəlində yazılır. Cavabları “+” və ya “-” işarəsi ilə qeyd etmək olar.

| Qiymətləndirilən hadisələr | Meyarlar (Niyə hadisə pis və ya yaxşıdır.) | | | | | Nəticə (cəmi) |
|---|---|---|---|---|---|---|
| 1. | 1 | 2 | 3 | 4 | 5 | |
| 2. | | | | | | |

Sonra hadisələr həm ayrı-ayrılıqda, həm də müqayisədə qiymətləndirilir.

Ümumi nəticəni çıxarmaq üçün “+” və ya “-” işarələrinin sayı kömək edir.

# MÖVZU 28. MƏDƏNİYYƏT

**Standart:**

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

**Təlim məqsədi:**

XX əsrin 40-cı illərinin ortalarından 80-ci illərinədək Azərbaycan mədəniyyətində baş vermiş yenilikləri xarakterik əlamətinə görə şərh edir.

***Təlim formaları:*** qruplarla və kollektivlə iş
***Təlim üsulları:*** beyin həmləsi, ideyalar xalısı

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun motivasiyasını şəkillərin köməyi ilə qurmaq olar. Mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən istifadə etməklə və bu şəkillərə suallar qoymaqla motivasiya qurmaq olar. Bu imkan yoxdursa, şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəltmək olar. Motivasiyanı açar sözlərdən istifadə etməklə də qurmaq mümkündür. Bunun üçün açar sözləri – C.Naxçıvanski adına hərbi lisey, “Bahar bayramı”, Şıxəli Qurbanov, Fərman Salmanov və s. – şagirdlərə çatdırır və onlara sual verilir: “Bu sözlər sizə nə deyir, bu sözləri birləşdirən ümumi cəhət nə ola bilər?” Cavablar alınır, fərziyyələr ümumiləşdirilir və tədqiqat sualı elan olunur.

Yaxud da videorolik, eləcə də slayd təqdimatla da bu dövrün mədəniyyətinin mənzərəsini şagirdlərə təqdim etmək olar. Maraqlı məqamlardan biri kimi Heydər Əliyevin M.P.Vaqifin məqbərəsinin açılışında iştirakını göstərməklə mədəniyyət mövzusuna yönəlmək olar.

**Tədqiqat sualı: Bu dövrdə mədəniyyət sahəsində görülən işlər Azərbaycan mədəniyyətinə hansı töhfəni verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün şagirdləri maraqlandıran suallar əsasında qrup işləri verilir.

Bu mövzunun reallaşdırılmasında **ideyalar xalısı** üsulundan istifadə etmək olar. İdeyalar xalısı üsulunun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil. Əsas məqsəd problemin müzakirəsində irəliləmək və diskussiya aparmaq vərdişlərini göstərməkdir.

**Bu üsul aşağıdakı kimi həyata keçirilir:**

- ✓ Şagirdlər 4-5 nəfərlik qruplara bölünür.
- ✓ Dərsdən əvvəl və ya bir gün əvvəl müəllim problemi elan edir.
- ✓ Müəllim hər qrupa vatman kağızı, eyni rəngdə 6 kağız zolağı, yapışqan və marker paylayır. Qruplara tapşırılır ki, verilən problemin səbəblərini müəyyən edib, kağız zolaqlarının hərəsinə bir səbəb yazsınlar.
- ✓ İş başa çatdıqdan sonra müəllim təklif edir ki, zolaqlar vatman üzərinə yapışdırılsın.
- ✓ Qruplar işlərini qurtardıqdan sonra müəllim onlara yazdıqlarını oxutdurur.

- ✓ Növbəti mərhələdə müəllim onlara başqa rəngdə daha 6 kağız zolağı verir. Şagirdlər bu zolaqların hər birində problemin yalnız bir həlli yolunu qeyd edirlər. Bu zolaqlar da vatman kağızı üzərinə yapışdırılır.
- ✓ Təqdimat zamanı plakatlar divardan asılır, hər qrupun nümayəndəsi yazılanı oxuyur.
- ✓ Müəllim şagirdlərə yapışqan və vərəq paylayır və tapşırır ki, problemin həlli üçün nə edəcəklərini vərəqə yazsınlar. Şagirdlər yazdıqlarını oxuyur və vərəqləri qrupun “xalısı” üzərinə yapışdırırlar.
- ✓ Sonda müəllim kiçik müzakirə keçirir. Müzakirə zamanı qrupların işində ən çox təkrarlanan səbəblər və həlli yolları müəyyənləşdirilir. Müəllim şagirdlərə problemin ən optimal həll yolunu seçməyi təklif edə bilər.
- ✓ Bu üsulla qrupların işinin tərtibatı da əhəmiyyətlidir. Müəllim şagirdləri fantaziyalarına güc verməyə həvəsləndirir. Qoy şagirdlərin işlədiyi vatman kağızı rəngarəng “ideyalar xalısı”na çevrilsin.

**I qrup**
Təhsil sahəsindəki yenilikləri şərh edin.

______________________________________________

______________________________________________

**II qrup**
Elm sahəsindəki inkişafı dəyərləndirin.

______________________________________________

______________________________________________

**III qrup**
Ədəbiyyatın inkişafını xarakterizə edin.

______________________________________________

______________________________________________

**IV qrup**
Musiqinin inkişafı və dünyaya səs salmasını təhlil edin.

______________________________________________

______________________________________________

**V qrup**
Azərbaycan kinosunun uğur qazanmasının səbəblərini izah edin.

______________________________________________

______________________________________________

**VI qrup**
“Memarlıq və rəssamlıq Azərbaycan mədəniyyətinin tərəqqəsinin tərkibi kimi” fikrini şərh edin.

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlər öz qrup işlərini təqdim edirlər. Onların liderləri verilmiş tapşırığın təqdimatını qrup adından müəllimə təqdim edir. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilə bilər. Tapşırıqlara uyğun olaraq müzakirə zamanı suallardan istifadə edilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərə istiqamət verilməklə ümumiləşdirmə aparılmalı və nəticələr əldə edilməlidir. Mədəniyyətimizdəki yenilikləri bilməklə onların xalqımızın və dövlətimizin həyatındakı rolunu şərh etmə bacarığına malik olmalıdırlar. Azərbaycanın 40-cı illərin ortalarından sonra – 80-ci illərədək mədəniyyətində baş verən yenilikləri, musiqi, elm, təhsil, incəsənət və s. sahələrdəki yenilik və inkişaf xarakterik əlamətinə görə şərh edilir.

**Yaradıcı tətbiqetmə.** Bu dövr Azərbaycan xalqının maarif və elm sahəsindəki nailiyyətlərinə dair məlumatları mətndən seçib kiçik yapışqanlı kağızlara yazıb vatman kağızındakı “ağaca” bərkitməyi tapşırmaq olar.

Bu tapşırığı qruplararası yarış formasına çevirmək olar. Qruplara müəyyən vaxt çərçivəsində mətndən daha çox nailiyyət müəyyən etmək tapşırılır. Nəticələrin təqdimatı zamanı ümumiləşdirmə aparmaq vacibdir.

**Ev tapşırığı.** Mədəniyyətimizin inciləri adlı təqdimat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** şərh etmə

Qiymətləndirmə apararkən refleksiyadan istifadə edilir. Refleksiya (yekunlaşdırma) hər bir məşğələnin mühüm hissəsi sayılır. Burada məqsəd şagirdlərin məşğələdə görülən işlərin mahiyyətini və əhəmiyyətini dərk etməsidir.

Yekunlaşdırma konkret bir məşğələyə istinad etməklə mövzu üzrə bir çox məsələləri həll etməyə, ümumiləşdirməyə və təkrarlamağa, habelə sonrakı mövzu ilə əlaqə yaratmağa imkan verir. Refleksiya həm də bütün iştirakçıların məşğələni qiymətləndirməsinə imkan yaradır. Ola bilsin ki, bəzi dərslər müəllimin yekun qiymətləndirməsini nəzərdə tutmur. Belə hallarda müəllimin refleksiya vasitəsilə şagirdlərin öz-özünə qiymət vermə metodundan istifadə etməsi faydalıdır. Bu zaman yekunlaşdırma müzakirə və müsahibə formasında aparıla bilər.

Yekunlaşdırmanın ən sadə üsulu hər bir şagirdin dərs üzrə öz rəyini söylədiyi “dairəvi” müsahibədir.

Bu üsullardan istifadə inkar yönlü sualları istisna edir, bütün iştirakçıları müsbət ruhda kökləyir və onlara özləri üçün konstruktiv nəticələr çıxarmağa imkan yaradır. Şagirdlər və müəllimlər dairəvi əyləşir və aşağıdakı kimi suallara cavab verirlər:

- Yoldaşlarınızın çıxışlarında ən çox nə xoşunuza gəldi?
- Gələcəkdə bunlardan necə istifadə etmək istəyərdiniz?
- Bunlardan nəyi başqa cür edərdiniz?

# MÖVZU 29. DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.
3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Dövlət müstəqilliyinin bərpası dövründə baş vermiş tarixi hadisələri zaman baxımından qiymətləndirir.
2. Ölkəmizdə yaşayan insanların həyat tərzindəki dəyişiklikləri müstəqilliyinin bərpası dövrünün xüsusiyyətləri ilə əlaqələndirir.
3. Azərbaycanda müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, iş vərəqləri

**Dərsin gedişi**

**Motivasiya.** Mövzunun tədrisi zamanı dövrün proseslərinə dair müxtəlif mənbə materiallarından istifadə etmək olar. Yaxud da o dövrdə Azadlıq meydanındakı hərəkat və bu kimi videomateriallar və ya şəkillərdən istifadə etmək olar ki, şagirdlərin mövzu ilə bağlı fərziyyələri yaransın. Əgər proyektor və kompüterdən istifadə imkanı yoxdursa, SSRİ-nin xəritəsindən istifadə etmək olar ki, bu zaman şagirdlərə müxtəlif suallar verməklə onları Azərbaycanda baş vermiş proseslərə, qonşu dövlətlərin ərazilərimizə olan maraqlarına, baş vermiş proseslərdə Ermənistanın maraqlarına, Azərbaycanın siyasi həyatında, eləcə də ölkədə baş vermiş dəyişikliklərə istiqamətləndirmək olar. Dərslikdə təqdim edilmiş açar sözlər də sizin üçün vasitə ola bilər. Şagirdlərə müstəqilliyin bərpası ilə əlaqəli bəyannaməni təqdim etməklə də onların bu bəyannamə ilə əlaqəli fərziyyələrini dinləmək olar. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək olar. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək olar. Suallara cavab vermək üçün mütləq şagirdlərə bir neçə dəqiqə vaxt verilməsi zəruridir. Verilən cavablar lövhədə qeyd olunarsa, məqsədəuyğun olar.

Şəkillərlə yanaşı, dərslikdə dövr haqqında verilən əlavə məlumatlar, mənbələr şagirdlərdə Qarabağ problemi, torpaqlarımız uğrunda mübarizə, torpaqlarımıza təcavüz, xalqımızın başına gətirilən faciələr və bu situasiyada dövlətçiliyimizin bərpası üçün edilən cəhdlər və onun bərpası, ilk islahatlar haqqında tam təsəvvürlərin formalaşmasına yardım edəcək. Motivasiya baş tutduqdan sonra tədqiqat sualı ortaya qoyulur.

**Tədqiqat sualı: Müstəqilliyimizin bərpasının tarixi əhəmiyyəti nədir?**

**Tədqiqatın aparılması.** Şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Dərslikdəki sual və tapşırıqlardan bu mərhələ üçün istifadə edilə bilər. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmaq onların marağına səbəb olar. Bu şəkildə vaxta da qənaət ediləcək. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması məqsədilə daha yaxşı olardı ki, müxtəlif rənglərdən istifadə edilsin. Sinfi 6 kiçik (3-4 nəfərlik) qrupa bölməklə onların adını mövzu ilə əlaqələndirmək olar. Bu zaman aşağıdakı tapşırıqlar müəllimə yardımçı olacaq.

**I qrup**

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında “Bəyannamə”nin tarixi əhəmiyyətini izah edin.

______________________________________________

______________________________________________

**II qrup**

XX yüzilliyin sonlarında SSRİ məkanında baş vermiş azadlıq hərəkatını Azərbaycanda baş vermiş azadlıq hərəkatı ilə əlaqəli dəyərləndirin.

______________________________________________

______________________________________________

**III qrup**

AXC-nin “İstiqlal Bəyannaməsi” ilə “Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı”nı müqayisəli şəkildə təhlil edib xalqın həyatına təsirini əsaslandırın.

______________________________________________

______________________________________________

**IV qrup**

Hakimiyyət uğrunda mübarizənin nəticələrini qiymətləndirin.

______________________________________________

______________________________________________

**V qrup**

Heydər Əliyevin o dövrdəki fəaliyyətini faktlara əsaslanaraq dəyərləndirin.

______________________________________________

______________________________________________

**VI qrup**

Müstəqilliyin bərpası ilə əlaqəli olaraq xalqın sosial və siyasi fəaliyyətinin dəyişilməsini zaman baxımından qiymətləndirin.

______________________________________________

______________________________________________

**QEYD:** Əgər sinfinizdə şagirdlərin sayı azdırsa, qrup tapşırıqlarını birləşdirmək olar.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlər öz qrup işlərini təqdim edirlər. Onların liderləri verilmiş tapşırığın təqdimatını qrup adından müəllimə təqdim edir. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Tapşırıqlara uyğun olaraq müzakirə zamanı suallardan istifadə edilə bilər. Qrup işinin qiymətləndirilməsi zamanı aşağıdakı meyar cədvəlindən yararlanmaq olar.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |
| V qrup | | | | | |
| VI qrup | | | | | |

Əgər vaxtınız qalarsa, sinfə kollektiv iş kimi – müstəqilliyin bərpasına dair müqayisəli sinxron cədvəl hazırlamaq tapşırığı verilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Nəticədə dövlət müstəqilliyinin bərpası dövründə baş vermiş tarixi hadisələri zaman baxımından qiymətləndirməklə Azərbaycan Respublikasının yaranması üçün yetişmiş tarixi şəraitin nələrdən ibarət olduğunu, xalqın azadlıq uğrunda apardığı mübarizəsinin tariximizdə qoyduğu iz, Əbülfəz Əliyevin, Heydər Əliyevin bu istiqamətdə atdığı ilk addımların əhəmiyyəti şərh edilir. Respublikamızın öz müstəqilliyini tanıtmaq uğrunda həyata keçirdiyi diplomatik əlaqələrlə bağlı mülahizələr yürüdülür. Bütün bunlarla yanaşı, ölkəmizdə yaşayan insanların həyat tərzindəki dəyişikliklər müstəqilliyin bərpası dövrünün xüsusiyyətləri ilə əlaqələndirir. Həmçinin Azərbaycanda müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişikliklər təhlil edilir. Bu nəticələri əldə etmək üçün aşağıdakı suallar da yardımçı ola bilər:

- Nə üçün Kommunist Partiyasının liderləri Azərbaycanın müstəqilliyini elan etməkdə tələsmirdilər?
- Nə üçün Azərbaycan Respublikası özünü AXC-nin varisi elan etdi?
- Müstəqil Azərbaycan hansı nailiyyətlərə imza atmışdır?

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, əlaqələndirmə, təhliletmə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir. Məqsədəmüvafiq olaraq meyarlar vasitəsilə onların fərdi qiymətləndirilməsi aparılır.

# MÖVZU 30. BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ
## (BİRİNCİ SAAT)

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**Təlim məqsədləri:**

1. Birinci Qarabağ müharibəsi dövründə baş vermiş mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Birinci Qarabağ müharibəsinə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.
3. Birinci Qarabağ müharibəsində baş vermiş hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

***Təlim forması:*** qruplarla iş
***Təlim üsulları:*** beyin həmləsi, iş vərəqləri ilə iş, Venn diaqramı

**Dərsin gedişi**

**Motivasiya.** Videomaterial təqdimetmə imkanı varsa, I Qarabağ müharibəsinə həsr edilmiş filmlərin birindən epizod göstərib şagirdlərin diqqətini hadisələrə cəlb etmək olar. Əgər buna imkan yoxdursa, şəkillərdən və xəritələrdən, eləcə də açar sözlərdən istifadə etmək olar. Azərbaycan Respublikasının xəritəsi nümayiş etdirilir. Həmçinin Qarabağ müharibəsində itirilmiş ərazilərimizin adları bir-bir qeyd olunur. Bu müharibə ilə bağlı şəkillər göstərilir. Şagirdlərə Qarabağ və işğal olunmuş zonalar haqqında suallar verilir. Bu zaman tədqiqat sualı ortaya çıxır.

**Tədqiqat sualı: Birinci Qarabağ müharibəsinin Azərbaycan tarixində rolu nədən ibarətdir?**

Sorğuya əsaslanan tədrisdən istifadə etməklə dərsi daha canlı və maraqlı etmək olar. Bu, şagirdləri çoxlu suallar verməyə, daha praktik düşünməyə həvəsləndirməklə yanaşı, həm də onların müstəqil öyrənən olmasına kömək edən effektiv tədris strategiyasıdır. Bu strategiya şagirdlərdə bir-biri ilə işləmək təcrübəsini təmin edir və həmçinin əvvəllər öyrəndiyini yenidən nəzərdən keçirməyə və yeni əldə etdiklərini daha yaxşı şəkildə yadda saxlamağa imkan verir.

Vizual strategiyalar istifadə etmək olar. Şagirdlər biliyi onlara diaqramlar, sxemlər, simvollar kimi şəkilli formada təqdim etdikdə daha yaxşı öyrənir və yadda saxlayırlar. Bu yanaşma ikili kodlaşdırma üzrə tədqiqatlar vasitəsilə təkmilləşdirilmişdir. Bu yanaşmanı

sinif idarəetmə strategiyasına tətbiq etmək üçün müəllimlər sinifdə öyrənmə mühitində aşağıdakıları tətbiq edə bilərlər:

- ✓ Şəkillər, diaqramlar, qrafiklər və illüstrasiyalar kimi geniş çeşiddə əyani vəsaitlərdən istifadə edilir;
- ✓ Müxtəlif akademik anlayışların öyrədilməsi üçün paylama materialları və konturları daxil edilir;
- ✓ Şəkillər göstərilir və izah edilir;
- ✓ Potensial diqqəti yayındıran amillər aradan qaldırılır;
- ✓ Təhsilalanların qeydlər yaza biləcəyi paylama materiallarında bir az yer buraxılır;
- ✓ Multimedia istifadə edərkən aydın ekranlar göstərilir;
- ✓ Rəngarəng illüstrasiyalar və təqdimatlardan istifadə edilir.

**Tədqiqatın aparılması.**

Sinif qruplara bölünür. Qruplar özlərini müvafiq şəkildə adlandırırlar. Bundan sonra iş vərəqləri ilə tapşırıqlar təqdim edilir.

**I qrup**

Birinci Qarabağ müharibəsi dövründə baş vermiş mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəl hazırlayın.

______________________________________________

______________________________________________

**II qrup**

Birinci Qarabağ müharibəsinə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edin.

______________________________________________

______________________________________________

**III qrup**

Birinci Qarabağ müharibəsində baş vermiş hadisə və prosesləri kontur xəritələrdə təsvir edin.

______________________________________________

______________________________________________

**IV qrup**

Birinci Qarabağ müharibəsinin ilk illərindəki uğursuzluqların səbəb və nəticə əlaqələrini müəyyənləşdirin.

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplar öz işlərini qrup liderləri vasitəsi ilə təqdim edir. Təqdimat zamanı qrupların işləri diqqətlə dinlənilir ki, qrup meyar qiymətləndirilməsi zamanı qiymətləndirilmə reallaşdırılsın. Müzakirə zamanı qrupların işi müzakirə

olunur. Onların səhvləri qeyd edilir. Ziddiyyətli fikirlərə aydınlıq gətirilir. Müzakirə zamanı müzakirə suallarından istifadə edilə bilər. Məhz müzakirə sualları problemin açılmasına daha da aydınlıq gətirəcəkdir:

- Necə düşünürsünüz, ermənilərin bu qədər azğınlaşmasının səbəbi nədə idi?
- Nə üçün Rusiya ermənilərə hər dəfə kömək edirdi?
- İnformasiya blokadası dedikdə nə başa düşmək olar?
- Azərbaycanın informasiya blokadasına düşməsi nə ilə nəticələndi?
- Azərbaycanlıların müharibədə zəif tərəf olması nə ilə bağlı idi?
- Hansı hadisə ermənilərin iç üzünü ifşa etdi?
- Xocalı nə üçün strateji əhəmiyyətli ərazi sayılırdı?
- Nə üçün ermənilər məhz Xocalıda vəhşiliklər törətdilər? Onlar bununla nə demək istəyirdilər?
- Nə üçün Xocalı faciəsini soyqırımı kimi tanıtmaq bizim mənəvi borcumuzdur?
- Laçın rayonunun strateji əhəmiyyəti nədən ibarət idi?

**Qrupların qiymətləndirilməsi meyarı:**

Qruplar 5 ballıq şkala əsasında qiymətləndirilir (qrupların qiymətləndirilməsi heç bir rəsmi sənəddə qeyd edilimir).

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qarabağ müharibəsinin gedişi və baş verən hadisələr, ermənilərin planları və onların havadarları, Azərbaycana qarşı informasiya blokadası və dünya dövlətləri tərəfindən ədalətsizlik – bütün bunlar ümumiləşdirmənin və nəticənin başlıca məqamları olmalıdır.

Nəticədə şagirdlər standartların tələbinə uyğun olaraq Birinci Qarabağ müharibəsinin mühüm faktlarını araşdırmaqla xronoloji cədvəllər hazırlayıb dövrün proseslərini müqayisə edirlər. Həmçinin öyrəndiklərini kontur xəritədə təsvir etməklə bilik və bacarıqlar sistemini möhkəmləndirirlər.

**Ev tapşırığı.** "Yenidən çiçəklənən Qarabağ" adlı plan tərtib etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** Xronoloji cədvəllər hazırlama, müqayisə etmə, kontur xəritələrdə təsvir etmə

Şagirdlərin formativ (gündəlik) qiymətləndirilməsi standart və təlim məqsədinə uyğun olaraq verilmiş meyar əsasında səviyyələr üzrə həyata keçirilir.

# MÖVZU 30. BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ
## (İKİNCİ SAAT)

**Standart:**
1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

**Təlim məqsədi:** Müxtəlif mənbələr əsasında I Qarabağ müharibəsinə dair təqdimatlar hazırlayır.

***Təlim forması:*** kiçik qruplarla iş
***Təlim üsulu:*** evristik üsul

**Dərsin gedişi**

**Tədqiqat sualı: Birinci Qarabağ müharibəsi Azərbaycan tarixində hansı yeri tutmuşdur?**

**Tədqiqatın aparılması.**

**QEYD:** Bu mövzunun tədrisinin ikinci saatında Evristik üsuldan istifadə etmək olar.

Bu üsulun əsas xüsusiyyətləri:
- müəllim tərəfindən evristik söhbət şəklində tədris materialının öyrənilməsinin təşkili;
- problemli məsələlərin qaldırılması;
- koqnitiv problemlərin həlli;
- problem müəllimin köməyi ilə şagirdlər tərəfindən qoyulur və həll edilir.

Evristik metod öyrənmə prinsipləri ilə müəyyən edilmiş idrak problemlərinin həlli ilə tədris materialının hazırlanması və evristik söhbətin aparılması üçün tənzimləyici qaydalar sistemidir.

Əsas funksiyalar:
- biliklərin və fəaliyyət üsullarının müstəqil mənimsənilməsi;
- yaradıcı təfəkkürün inkişafı, bilik və bacarıqların yeni situasiyaya ötürülməsi;
- ənənəvi vəziyyətdə yeni problemə baxış;
- öyrənilən obyektin yeni xüsusiyyətlərinə baxış;
- məlum fəaliyyət metodlarının transformasiyası və yenilərinin müstəqil yaradılması;
- əqli keyfiyyətlərin, düşünmə bacarıqlarının inkişafı, idrak bacarıqlarının formalaşması;
- şagirdlərə aktiv koqnitiv ünsiyyət üsullarını öyrətmək;
- öyrənmə motivasiyasının, nailiyyət motivasiyasının inkişafı.

**Qaydalar:**
1. yeni biliklərin formalaşması evristik söhbət əsasında baş verir və şagirdlərin müstəqil işi ilə birləşdirilməlidir (evristik söhbətdə iştirak – şagirdlərin əks, problemli suallar, problemli suallara cavab verməsi, idrak problemlərinin həlli);

2. müəllim qəsdən problemli situasiyalar yaradır, şagirdlər onları təhlil edib problem qoymalı, fərziyyələr irəli sürməli və sübut etməli, nəticə çıxarmalıdırlar;
3. qiymətləndirmə əsasən əvvəllər əldə edilmiş bilikləri tətbiq etmək bacarığına, fərziyyələr irəli sürmək və əsaslandırmaq, onları sübut etmək, fəaliyyət üsullarını mənimsəmək bacarığına görə verilir.

Evristik metoddan təbiətcə ziddiyyətli olan yeni materialı öyrənərkən və ya əvvəllər əldə edilmiş bilikləri təkmilləşdirərkən, əvvəllər alınmış təəssüratları ümumiləşdirmək, hadisələrin çox ölçülü qavrayışını stimullaşdırmaq, eləcə də şagirdlərin özlərində olmayan yeni fəaliyyət yollarını müstəqil axtarmaq üçün istifadə olunur. Bu metoddan istifadə həddindən artıq dərəcədə şagirdlərin təlim və inkişaf səviyyəsindən, xüsusən də onların idrak bacarıqlarının inkişafından asılıdır. Şagirdlər müstəqil axtarış tipli işləri yerinə yetirirlər: problemli vəziyyətləri təhlil edir, problem qoyur və onları həll edir, yeni biliklər və fəaliyyət üsulları tapır.

Bu dərs prosesində inteqrasiya imkanlarından istifadə etmək mütləqdir. Bu inteqrasiya fənlərarası və fənlər üstü də ola bilər. Ümumilikdə inteqrasiyanın reallaşdırılmasında müxtəlif təlim metodlarından istifadə etmək mümkündür. Qeyd edək ki, çox zaman müəllimlər inteqrasiyanı reallaşdırarkən yalnız şagirdə verdikləri tapşırıq əsasında təsvir edirlər. Elə düşünürlər ki, tədqiqatın aparılması mərhələsində bu öz əksini taparsa, kifayət edər. İnteqrasiya təkcə bir mərhələdə reallaşmır. Müasir təlim öz qarşısına mühüm məqsədlər qoymuşdur ki, bunlardan biri də inteqrativliyə əsaslanan şagirdyönümlü, inkişaf yönümlü təlim əsasında şəxsiyyət formalaşdırmaqdır. Şəxsiyyət bir istiqamətdə formalaşmır. Onlara aşılanan bilik və bacarıqlar mütləq həyati bacarıqlara əsasən inteqrativ şəkildə inkişaf etdirilməlidir. Buna görə də motivasiya mərhələsindən başlayaraq dərsin sonunadək inteqrasiya imkanlarından istifadə etmək olar və müasir təlim də bunu tələb edir.

Bu mövzu 2 dərsdə davam etdiyində təqdimat hazırlamaq üçün evə qabaqlayıcı tapşırıqlar vermək olar ki, şagirdlər 2-ci dərsdə təqdimatlarını yekunlaşdırıb təqdim etsinlər.

**I qrup**

Müxtəlif mənbələr əsasında I Qarabağ müharibəsində iştirak edən milli qəhrəmanlarımız haqqında təqdimat hazırlayın.

**II qrup**

Xocalı faciəsinə dair mənbələr əsasında təqdimat hazırlayın.

**III qrup**

Şuşanın ermənilər tərəfindən işğalına dair təqdimat hazırlayın.

**IV qrup**

Birinci Qarabağ müharibəsində beynəlxalq münasibətlər sisteminə dair təqdimat hazırlayın.

**V qrup**

Bədii əsərlərdə I Qarabağ müharibəsinə aid təqdimat hazırlayın.

Verilən tapşırıqlar inteqrasiya imkanlarını gözləməklə seçilərsə, məqsədəmüvafiq olar. Düzdür, bu mütləq hal deyil, lakin işin səmərəsi üçün gərəkli haldır. Tapşırığın qoyuluşu elə olmalıdır ki, şagirdlərdə araşdırmağa meyil yaratsın, həmçinin bu araşdırma bir istiqamətdə deyil, digər fənlərlə əlaqəli şəkildə qurulmalıdır. Tapşırıqlarda münasibət bildirmək, təhlil etmək, fikri əsaslandırmaq, müqayisə etmək kimi fəaliyyət xətləri müəyyənləşdirildiyi üçün şagirdlər bu tapşırıqları yerinə yetirərkən öz-özlüyündə onlarda Azərbaycan dili fənni üzrə inteqrativ bilik və bacarıqlar formalaşmış olacaq.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Mübadilə mərhələsi bir növ şagirdin özünütəsdiq mərhələsi kimidir. Bu mərhələdə şagird çalışır ki, təkcə öz mövqeyini yox, bütün qrupun mövqeyini tapşırığın izahına qoysun. Bu zaman şagird inteqrasiya imkanlarından istifadə edərkən işin səmərəsi artır, o, tapşırığın mübadiləsini daha rahat şəkildə, əsaslanmış, digər fənlərdən öyrəndiyi və əldə etdiyi bilik və bacarıqlar əsasında həyata keçirir, təqdimatını reallaşdırır. İnteqrasiya imkanı şagirdin digər fənlərdən qazandığı bilik və bacarığı üzə çıxarmaqla yanaşı, möhkəmləndirmə funksiyasını da həyata keçirmiş olur. Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Müzakirə zamanı bütün sinif müzakirədə iştirak edərsə, daha səmərəli imkanlar əldə edilmiş olar. Təbii ki, bütün sinif müxtəlif fikirlərlə və yaxud da cavablarla nizamlı şəkildə müzakirə iştirakçısı olmalıdır. Bu zaman inteqrasiyada nəzərdə tutulmuş standartların qarşıya qoyduğu tələbi unutmamalı, inteqrasiya, sadəcə, yazılmış standart olmamalı, yaxud da mövzuda adı keçən bir cümlə olmamalıdır. Nəzərdə tutulmuş fənlərin inteqrasiyası mütləq həyata keçirilməli, əldə olunan nəticədə bu öz əksini tapmalıdır.

Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir. Burada müəllim qrupları qiymətləndirmək üçün müxtəlif simvollardan istifadə edə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu zaman müəllim şagirdlərlə birlikdə əldə olunan bilikləri ümumiləşdirir. O, çıxan ideyaların əvvəlcədən müəyyən edilmiş tədqiqat sualı ilə (yəni bu ideyalar tədqiqat sualına cavab verirmi?) və şagirdlərin ilkin fərziyyələri ilə (Yəni bu fərziyyələrin arasında doğru olanı varmı?) müqayisəsini təşkil edir.

Nəticə olaraq artıq müəllim "Birinci Qarabağ müharibəsi" mövzusu ilə bağlı əvvəlcədən müəyyənləşdirdiyi təlim məqsədlərinə müəyyən mənada çatmış olacaq. Məsələn, şagirdlər

mövzu ilə bağlı nəticəyə gəlirlər ki, I Qarabağ müharibəsi Ermənistanın torpaqlarımızın işğalı ilə nəticələnsə də, böyük bir qəhrəmanlıq tarixidir. Şagirdlər bu dövrü müxtəlif mənbələrin köməyi ilə araşdırır, öyrənir və təqdimat şəklində ortaya çıxarmaqla bir çox bacarıqlara sahib olurlar.

**Yaradıcı tətbiqetmə:**

Bu mərhələ şagirdlərin əldə etdikləri bilik və bacarıqların daha da möhkəmləndirilməsinə xidmət edir. Bu mərhələni, bir növ, yoxlama mərhələsi də adlandırmaq mümkündür. Bu anda artıq mövzu üzrə sistemləşdirilmiş, inteqrativ bilik və bacarıqlar əldə edildiyi üçün şagirdlər sərbəst, müstəqil tədqiqatçılıq vərdişləri əsasında bu bilik və bacarıqların tətbiqini həyata keçirmək iqtidarında olacaqlar. Onu da qeyd etmək lazımdır ki, əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün deyilsə, o sonrakı dərslərdə həyata keçirilir və nəticəsi mütləq şagirdlərə bildirilir. “Birinci Qarabağ müharibəsi” mövzusu üzrə, əsasən, aşağıdakı kimi praktik tapşırıqlar vermək olar:

Birinci Qarabağ müharibəsinin iştirakçılarından müsahibə almaq üçün sorğu vərəqi hazırlayın.

**Ev tapşırığı:**

Şagirdlərin tədqiqat nəticəsində əldə etdikləri bilik, bacarıq və vərdişləri möhkəmləndirmənin yollarından biri də onlara sərbəst iş forması kimi ev tapşırığının verilməsidir. Ev tapşırıqlarının, əsasən, tədqiqat və yaradıcı xarakterdə olmasına xüsusilə diqqət yetirmək lazımdır. Bunlara əsasən müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar aid edilə bilər.

Mövzumuzla bağlı ev tapşırığını bu cür təyin etmək olar: Birinci Qarabağ müharibəsi iştirakçıları arasında sorğu keçirib məruzə hazırlayın. Ev tapşırığı verərkən müəllim şagirdlərə kömək məqsədilə şagirdlərin araşdıra biləcəyi şəxslərin siyahısını da verə bilər.

**Qiymətləndirmə meyarı:** təqdimat hazırlama

Mövzü ilə bağlı bir neçə sual verməklə təlim fəaliyyətini izləmək və uğurlu refleksiyanı təşkil etmək olar. Məktəbdaxili qiymətləndirmənin əsas növlərindən biri formativ qiymətləndirmədir və bu qiymətləndirmə növü şagirdlərin irəliləmələrini və geriləmələrini izləmək məqsədilə gündəlik olaraq həyata keçirilir və rəsmi qiymətləndirmə hesab edilmir. Formativ qiymətləndirmə standartlar üzrə müəyyən edilmiş məqsədlərdən çıxarılmış meyarlara əsasən aparılır. Hər meyar üzrə də 4 (zəruri hallarda 5) səviyyədə qiymətləndirmə şkalası – rubriklər hazırlamaq lazımdır. Rubrik hazırlamaq müəllimlərdən xüsusi qabiliyyət və diqqət tələb edir. Səbəb budur ki, çox vaxt müəllimlər səviyyələrarası fərqi tənzimləməkdə ya çətinlik çəkir, ya da diqqətdən qaçırırlar.

# MÖVZU 31. QURTULUŞ HƏRƏKATI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Qurtuluş hərəkatı dövründə baş vermiş hadisələri zaman baxımından qiymətləndirir.
2. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında Heydər Əliyevin rolunu dəyərləndirir.

***Təlim formaları:*** böyük qruplarla və cütlərlə iş
***Təlim üsulları:*** beyin həmləsi, "Yeddi möhür arxasında"

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı müxtəlif vasitələrdən istifadə etməklə motivasiya qurmaq olar. Ulu öndər Heydər Əliyevin nitqindən bir parça verməklə hadisələrlə bağlı şagirdlərin fərziyyələrini almaq olar. Həmçinin Naxçıvanda baş vermiş prosesləri, "Ümid körpüsü"nü diqqətə çəkmək olar. Gəncədə baş verən hadisələri, siyasi böhran və s. aid materiallar da bu dərsin motivasiyası üçün maraqlı ola bilər. Həmin hadisələri ifadə edən şəkillərdən, elektron resurslardan istifadə etmək olar. Bu sualı şagirdlər öz proqnozlarını verərək cavablandırırlar.

XXI əsr bacarıqları arasında 4K bacarıqları kimi də adlandırılan kritik, kreativ, kooperasiya və kommunikasiya bacarıqları təlim prosesinin sonunda şagirddə formalaşdırılmalıdır. Burada kritik bacarıq dedikdə tənqidi təfəkkür, kreativ yaradıcı təfəkkür, kooperasiya əməkdaşlıq bacarığı, kommunikasiya isə informasiya bacarığı kimi təhlil edilir. Bunlardan ikisi – kritik və kreativ bacarıqlar birbaşa təfəkkürlə bağlıdır. Təfəkkürün hər üç növünə dair tapşırıqların hazırlanması, dərs prosesində tətbiq edilməsi çox böyük əhəmiyyət daşıyır. Çünki interaktiv təlimin əsas mahiyyəti də bundan ibarətdir. Məntiqi təfəkkürün inkişafı ilə bağlı diskussiya, modelləşdirmələr aparmaq, bir neçə obyekt və ya subyekt arasından ən mühüm, ən uyğun olanını seçmək və s. kimi üsullar məqsədəuyğundur.

**Tədqiqat sualı: Qurtuluş hərəkatının tarixi əhəmiyyəti nədən ibarətdir?**

Bu suala cavab tapmaq üçün "Yeddi möhür arxasında" üsulundan istifadə etmək olar. Şagirdlər özləri təqdimat üçün material seçməli, rekvizitləri hazırlamalı, musiqini seçməlidir. Oyunun qaydaları belədir: aparıcı Ulu öndər Heydər Əliyevdən danışır, onun tərcümeyi-halından faktlar gətirir, tarixi fəaliyyətini qeyd edir. Hekayə irəlilədikcə suallar verilir, onlardan yeddisinin cavabını öz rolunu oynayan oyunçular xidmət qeydlərində qeyd edirlər. Hər düzgün cavaba görə iştirakçıya ona verilmiş "əmək kitabçasına" möhür vurulur. Ən çox möhür toplayan qəhrə-

manın adını çəkmək hüququ qazanır. Qəhrəman haqqında bütün məlumatlar şagirdlərin özləri tərəfindən hazırlanmış təqdimat şəklində ekranda göstərilir. Bu hadisə, dövrə və ya məsələyə uyğun musiqidən istifadə edilir. Oyun çox maarifləndiricidir, şagirdlər üçün maraqlıdır, onları düşünməyə, müqayisə etməyə və biliklərini digər fənlərdə, xüsusən də ədəbiyyatda istifadə etməyə vadar edir. Bir mövzudan kənara çıxan dərslər və ya fəaliyyətlər şagirdlərin idrak fəallığını artırmaq üçün başqa bir təsirli üsuldur ki, bu da onların biliklərinin təcridini aradan qaldırmağa və tarixi materialın daha vahid qavrayışını formalaşdırmağa kömək edir.

Bu cür inteqrasiyanın üsulları müxtəlif ola bilər: bu, tarix dərslərində ədəbi materialdan istifadə, dövrün və ona aid sənət əsərlərinin paralel öyrənilməsidir. Tarix və ədəbiyyatın inteqrasiyası üçün imkanlar xüsusilə bu dövrün bədii əsərlərinin, demək olar ki, paralel şəkildə öyrənilməsinin aparıldığı orta məktəbdə geniş şəkildə təmin edilir. Bu, bir çox mövzular üzrə inteqrasiya olunmuş dərslərin keçirilməsi üçün böyük imkanlar açır.

**Tədqiqatın aparılması.** Əgər motivasiyanız uğurlu alındısa, deməli, tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin tapşırıqların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir. Adətən, sizdə belə fikir formalaşdırılıb ki, bütün qrupların və ya cütlərin tapşırıqlarının çəkisi eyni olmalıdır. Doğrudur, bu, keçərli haldır. Amma bir şeyi də qeyd edək ki, inklüzivliyin qorunmasını nəzərə alsaq, sinfin ən bacarıqlı və savadlı şagirdi və ya ən zəif, hətta sağlamlıq imkanları məhdud şagirdi bu zaman obyektiv qiymətləndirilmir. Onların təlimə marağı da itə bilər. Ona görə də müəllim qrup işi apararkən və ya cütlərə iş verərkən inklüzivliyi nəzərə almalıdır. Lakin sinifdə şagirdlərin bilik və bacarığı arasında kəskin fərq yoxdursa, o zaman hər kəsə ağırlıq dərəcəsi eyni olan tapşırıqlar verilə bilər. Tədqiqatı aparmaq üçün bütün kollektivlə iş formasından istifadə edilə bilər. Sinfə müəyyən vaxt verilir ki, məzmunla tanış olsun. Fasiləli oxu üsulundan istifadə etməklə oxu təşkil edilir. Oxu prosesi bitdikdən sonra sinif cütlərə ayrılır. Hər kəs parta yoldaşı ilə cütlərdə birləşir. Cütlərə aşağıdakı suallar verilə bilər, lakin vaxta qənaət etmək üçün bu əvvəlcədən hazırlanmış iş vərəqlərində verilsə, daha yaxşı olar.

**I cüt**

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik etdiyi dövrü təhlil edin.

**II cüt**

Yeni hakimiyyət böhranına aparan yolun nəticələrini dəyərləndirin.

**III cüt**

“Ümid körpüsü”nün tarixi əhəmiyyətini şərh edin.

**IV cüt**

Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini dövr baxımından qiymətləndirin.

**V cüt**

Heydər Əliyevin hakimiyyətə qayıdışını izah edin.

**VI cüt**

Gəncə qiyamının səbəblərini araşdırın.

**VII cüt**

Vətəndaş müharibəsi təhlükəsi və Heydər Əliyevin bu istiqamətdəki fəaliyyətini qiymətləndirin.

**VIII cüt**

15 iyun 1993-cü il Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini dəyərləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə cütlərin cavabları dinlənilir. Siniflə bərabər düzgün cavablar dəqiqləşdirilir, səhv cavablar düzəldilir. Mübadilə mərhələsi bitdikdən sonra şagirdlərlə bərabər aşağıdakı məsələ həll edilir. İdrak taksonomiyasının tələblərini nəzərə almaqla, şagirdlərə elə tapşırıqlar vermək lazımdır ki, onların təfəkkürünü inkişaf etdirsin. Bir dərsdə təfəkkürün hər üç növünü inkişaf etdirməyə imkan varsa, bu, çox uğurlu nəticə deməkdir. Mövzunun tədrisi üçün cütlərə qabaqlayıcı, yaxud dərslikdəki materiallarla tanış olmaq tapşırığı verilə bilər. Bəzən şagirdlərə tapşırıq verilərkən müəllimlər onlardan kitab və dəftərlərini bağlamağı tələb edirlər. Lakin bu, vacib deyil. Fəal interaktiv təlim mühiti və bacarıqların fomalaşdırılmasını əsas tələb kimi qoyan yeni islahat dəftər-kitabın bağlanıb işin icrasını həyata keçirməyi zəruri saymır. Əksinə, şagird kitablardan və digər mənbələrdən araşdırma apararaq təhliletmə, sintezetmə və s. bacarıqlar nəticəsində verilən tapşırığın icrasını sistemli şəkildə həyata keçirməyə cəhd göstərmiş olacaqdır.

Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olmaq lazımdır. Sinfin səviyyəsi nəzərə alınmalıdır. Tapşırıqlar verərkən inteqrasiya edilmiş standartların tələblərini unutmaq olmaz.

Cütlər iş vərəqlərini asaraq təqdimata başlayırlar. Təqdimatlar dinlənilir. Cütlərin işi müzakirə olunarkən sual doğuran məqamlara aydınlıq gətirilərsə, işin səmərəli alınmasına şərait yaranar. Müzakirənin sonunda nəticə çıxarılır. Cütlərə verilmiş tapşırıqlar sonda tədqiqat sualına cavab tapmaq üçün yardımçı olmalıdır. Hər bir cüt öz işini qısa və konkret şəkildə təqdim edərsə, vaxt problemi olmaz. Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Nəticələrin çıxarılmasında mövzu və müəllim yardımçı qüvvə olsa da, burada məqsəd şagirdin gəldiyi nəticədir. Şagirdlər Milli Qurtuluş Gününə dair araşdırmalar aparır, proqnozlar verir. Heydər Əliyevin siyasi xadim kimi fəaliyyətini araşdıraraq xalqımız üçün onun etdiklərini dəyərləndirir, Qurtuluş hərəkatı dövründə baş vermiş hadisələri zaman baxımından qiymətləndirir.

**Yaradıcı tətbiqetmə.** "Heydər Əliyev və Azərbaycanın qurtuluşu" adlı esse hazırlamaq tapşırılır.

**Ev tapşırığı.** Ev tapşırığı kimi "Azərbaycanın Milli Qurtuluş Günü" adlı təqdimat işi tapşırılır.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, dəyərləndirmə

Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi səviyyələr üzrə aparılmalıdır.

Şagirdləri qiymətləndirmək üçün aşağıdakı özünüqiymətləndirmə vərəqindən də istifadə edilə bilər.

Adı, soyadı, atasının adı ______________________________

| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Əməkdaşlıq etdim. | Sual-cavabda aktiv idim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

# MÖVZU 32. DÖVLƏT QURUCULUĞU TƏDBİRLƏRİ. SOSİAL-İQTİSADİ İSLAHATLAR

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

**Təlim məqsədləri:**

1. Azərbaycanda baş verən proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Dövlət quruculuğu tədbirlərinin keçirilməsi dövründə Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.
3. Dövlət quruculuğu zamanı inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

***Təlim formaları:*** kollektiv iş, qrup işi
***Təlim üsulları:*** beyin həmləsi, akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzu Ulu öndər Heydər Əliyevə həsr olunmuşdur. Öz dövrünün canlı tarixi və aynası olan Ulu öndərimizin bütün həyatı və ictimai-siyasi fəaliyyəti gələcək nəsil üçün əsl mənəvi tərbiyə məktəbidir. Ulu öndər Heydər Əliyevin həyat yolu mənəvi tərbiyə nümunəsidir. Belə məsələlərin Ulu öndərimiz Heydər Əliyev irsində sistemli araşdırılması bu sahədə mövcud problemlərin aradan qaldırılmasında, eləcə də gənc nəsli milli-mənəvi dəyərlərə sadiqlik, azərbaycançılığa və bəşəriliyə hörmət ruhunda tərbiyə etmək, onlarda yüksək ideyalılıq, ləyaqətlilik, inam və əqidə, vətənpərvərlik kimi mənəvi keyfiyyətlərin formalaşdırılmasında böyük önəm daşıyır.

Məlum olduğu kimi, şəxsiyyət haqqında danışarkən insanın üz quruluşu, boy-buxunu, gözünün, saçının rəngi kimi anadangəlmə fiziki keyfiyyətləri deyil, onun həyatda qazandığı əxlaqi, estetik və s. mənəvi keyfiyyətləri ön plana çəkilir. Şəxsiyyəti səciyyələndirən, digərlərindən fərqləndirən və üstün edən başlıca xüsusiyyəti də onun yüksək mənəvi keyfiyyətlərə sahib olmasıdır. Ulu öndərimiz Heydər Əliyev də öz mənəvi keyfiyyətləri ilə digərlərindən fərqlənən, ictimai prosesə və mənəvi inkişafa təsir göstərən şəxsiyyətlərdəndir. Məhz belə şəxsiyyətlər ictimai prosesə və mənəvi inkişafa təsir göstərə bilir, digərləri üçün nümunəyə çevrilirlər. Dərsin motivasiya mərhələsində bu kimi keyfiyyətlərdən söz açaraq şagirdləri fəaliyyətə sövq etmək mümkündür. Onların fərziyyələri mexanizmi işə salmağa kömək edir.

Məsələn, müəllim belə bir nitqlə dərsə başlaya bilər: “Heydər Əliyevin bir şəxsiyyət olaraq yüksək mənəvi keyfiyyətləri gənc nəslin mənəvi tərbiyəsinə nümunə olaraq təqdim edilməlidir. Eləcə də Heydər Əliyevin həyatda yüksək önəm verdiyi sədaqətlilik, iradəlilik, ədalətlilik, qeyrətlilik, paklıq, saflıq kimi mənəvi keyfiyyətlərə münasibəti şagirdlərə aşılanmalıdır. Ulu öndərimiz Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qoruyucusu kimi dilimizə, dinimizə, adət-ənənələrimizə, tariximizə olan münasibəti də diqqətdən yayınmamalıdır. İlk əvvəl onun doğma dilimizə qayğı və diqqəti nəzərə çatdırılmalı, xalqın həyatındakı rolu açıqlanmalıdır.

Heydər Əliyevin xalq, adət-ənənələrimizlə bağlı fikirləri böyük maraq kəsb edir. Heydər Əliyev ta qədimdən bu günə gəlib çatan milli və dini adət-ənənələrimizin məqsədini insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdə görür. Sonra şagirdlərə yönləndirici suallar vermək olar.

Hazırda müəllimlərin qarşısında yeni tələblər qoyulur. O, getdikcə yenilənən dərs prosesi İKT-dən istifadəni daha da zəruri edir. İKT-nin köməyi ilə multimediya vasitələrindən istifadə etmək olar.

Tarixin tədrisində multimediya vasitələrindən istifadənin əhəmiyyətli üstünlükləri aşağıdakılardır:

- Multimediya texnologiyaları davamlı olaraq tarixi bilikləri təqdim etməyə imkan verir. Multimediya tarixi faktları, hadisələri sənədləri ayrılıqda deyil, ardıcıl təqdim etməyə qadirdir.
- Biliklər müəyyən kontekstdə təqdim edilir. Yalnız şərhlər kontekst kimi xidmət etmir, həm də müxtəlif tərəflərdən predmeti açan çox saylı süjetlər (şəkillər, illüstrasiyalar) yerləşdirilmişdir. Burada zəngin informasiya mövcud olur.
- Biliklər müxtəlif kanallarla əldə edilir (vizual, fəal). Fəal təlimdə biliklər yaxşı mənimsənilir, daha uzun müddətə yadda qalır.
- Mənimsəmə, interpretasiya və multimediyalar yalnız fəal üsullarla reallaşmır.

Beləliklə, İKT-nin köməyi ilə informasiya-kommunikasiya predmet mühitinin subyektlərinin arasında informasiya qarşılıqlı əlaqəni intensivləşdirir. Təlimin daha səmərəli modelinin formalaşmasına motiv yaradır.

**Tədqiqat sualı: Dövlət quruculuğu tədbirlərinin həyata keçirilməsinin Azərbaycan üçün tarixi əhəmiyyəti nə oldu?**

Şagirdlər üçün maraqlı və öyrədici olan üsullardan biri də akvarium üsuludur. Müxtəlif fənlər üzrə biliklərini bu üsul vasitəsilə reallaşdıran şagirdlər diskussiya zamanı zəngin biliklərə dayanaraq problemlər haqqında fikirlər səsləndirə bilərlər. Mövzu üzrə müzakirə apararkən müxtəlif idarəetmə formaları haqqında da fikirlərini səsləndirə bilərlər. Burada həm Coğrafiya, həm Ümumi tarix, həm də Həyat bilgisi fənlərinə uğurlu şəkildə inteqrasiya apara bilmək olar. Akvarium üsulu zamanı aşağıdakı məsələləri şagirdlərə tapşırıq şəklində vermək olar:

1. Siz dövlət quruculuğu sahəsində hansı tədbirlərin görülməsini təklif edirsiniz?
2. Əsrin müqaviləsinin imzalanmasının əhəmiyyəti nədən ibarətdir?

3. Sosial-iqtisadi islahatların səmərəli tərəfləri hansılardır?

4. Dövlət quruculuğu zamanı inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edin və s. suallarla müraciət edib problemi müzakirəyə qoymaq olar.

Akvarium üsulunun tətbiqində sinif tam iki yerə bölündüyü üçün bu, kollektivin işi kimi dəyərləndirilir və şagirdlər müzakirə etməklə yanaşı, birlikdə yekun nəticəyə də gəlmiş olurlar.

**Məlumatın mübadiləsi və müzakirəsi**. Müəyyən etdiyiniz vaxtdan sonra qruplar öz işlərini nümayiş etdirirlər. Qrup işlərinə düzəlişlər edilir, qüsurlar göstərilir. Bundan sonra ümumiləşməni aparmaq üçün müzakirə suallarına keçilir. Məqsəd Azərbaycan Respublikasında quruculuq işlərinin önə çəkilməsi, dövlət quruculuğu tədbirlərinin keçirilməsini Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirməkdir. Buna görə də müzakirə sualları dəqiq və düşünülmüş şəkildə, məntiqi ardıcıllığa və sinxronluğa uyğun verilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər müəllimin köməyi ilə Azərbaycan Respublikasında həyata keçirilən quruculuq işlərini dəqiqləşdirməli, bu istiqamətdə aparılan sosial-iqtisadi fəaliyyətləri dəyərləndirməlidirlər. Onlar müəyyənləşdirirlər ki, Qarabağ məsələsi, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dövlətimizin beynəlxalq münasibətlərini müəyyənləşdirən əsas faktordur. Şagirdlər dövlət quruculuğu zamanı inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil etməklə ümumi nəticəyə gəlirlər.

**Yaradıcı tətbiqetmə.** Azərbaycanda baş verən proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** cədvəllər hazırlama, dəyərləndirmə

Unutmayın ki, dərs boyu tətbiq etdiyiniz bütün məsələlər qiymətləndirmə zamanı öz əksini tapmalıdır. Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olmaq lazımdır. Sinfin səviyyəsi nəzərə alınmalıdır. Tapşırıqlar verilərkən inteqrasiya edilmiş standartların tələbləri unudulmamalıdır. Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi səviyyələr üzrə aparılmalıdır.

# MÖVZU 33. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ

**Standart:**

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədi:**

Azərbaycan Respublikası xarici siyasətində dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

***Təlim formaları:*** qruplarla iş, kollektivlə iş

***Təlim üsulları:*** Beynəlxalq kafe (World Cafe), Xidmət Lövhəsi Layihəsinə Salam üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanı həyata keçirmək üçün xəritə nümayiş etdirilir. Burada Azərbaycanın geosiyasi mövqeyi soruşulur. Qloballaşma dövrünün xarakterik xüsusiyyətlərinin açılmasında inteqrasiya vasitəsilə dərslərin tədrisi zamanı qloballaşmanın nə olduğunu və məktəb dərsliyində necə əks olunduğunu diqqət mərkəzində saxlamaq lazımdır. Şagirdlər müxtəlif fikirlər söyləyəcəklər. Azərbaycanın tarixi keçmişinə müraciət edilir və işğal olunduğu zamanlara qayıdılır. Bunun səbəbləri şagirdlərdən soruşulur. İşğalçıların maraqları yenidən müəyyənləşdirilir. Şagirdlərdən bu problemlərin digər mümkün həlli yolları soruşulur, mülahizələr dinlənilir, təxminləri əsaslandırılır.

Azərbaycanın xarici siyasətini özündə əks etdirən videomaterial və ya slayd təqdim etməklə də motivasiya yaratmaq olar. Motivasiya uzun vaxt aparmamalı, söylənilən fərziyyələrin problemdən uzaqlaşmasına imkan verilməməlidir. Araşdırılacaq problemlə bağlı motivasiya baş tutduqdan sonra tədqiqat sualı lövhədə və ya flipçartda yazıla bilər.

**Tədqiqat sualı: Azərbaycanın beynəlxaq münasibətlərdə rolu və yeri nədən ibarətdir?**

**Tədqiqatın aparılması.**

Bu materialın araşdırılması üçün BEYNƏLXALQ KAFE (World Cafe) metodunu tətbiq etmək olar. Bu metod "çay evini" xatırladan rahat yaradıcı şəraitdə təşkil olunur, bilik və ideya mübadiləsi, yeni fikirlərin formalaşmasına təkan verir. Adətən, bu metod hər biri 20–30 dəqiqə davam edən 3 ardıcıl raundlardan ibarətdir. Hər masa ətrafında 4-6 iştirakçı əyləşir və qabaqcadan müəyyən olunmuş sual üzərində müzakirələr aparır.

Kiçik qruplarda müzakirələr effektiv olur, nəticələr isə sənədləşdirilir. 1-ci raunddan sonra hər bir masanın iştirakçıları (komanda liderindən başqa) digər masalara yaxınlaşır və fikirlərini bölüşürlər. Komanda liderləri isə əsas fikirləri cəmləyib yeni daxil olmuş iştirakçıların nəzərinə çatdırırlar. Bir neçə raunddan sonra nəticələr toplanılır, bütün qrupa təqdim olunur və plenar sessiya zamanı müzakirə olunur. "World café" metodu müəyyən sayda qruplarla

effektiv işləyir, buraya ən az 15 nəfərə yaxın iştirakçı cəlb olunur. Bu metod araşdırma tələb edir. Əgər qoyulmuş məsələnin həlli qabaqcadan bəlli olarsa, onda bu metoda müraciət olunmur. "World café" metodu həmçinin icra tələb edən detallı planlaşdırma zamanı da tətbiq edilmir.

Tədqiqatın aparılması üçün qruplara tapşırıq vermək olar. Tədqiqat işlərinin əksəriyyətinin qrup işi olmasının səbəbi fəal-interaktiv təlim mühiti yaratmaq, qısa müddətdə lazımi məqsədə nail olmaqdır. Bildiyiniz kimi, araşdırılan mövzunun məzmunu ilə bağlı şagirdlər aşağı sinifdən müəyyən biliklərə malikdirlər. Onlar üçün qrupda işləmək və öz arqumentlərini qoymaqla qrup işi hazırlamaq rahat və səmərəli olacaqdır. Qrupların fəaliyyətə cəlb olması taksonomik bilmə, anlama, tətbiq və s. idrak taksonomiyasına nail olmaq üçün imkan açmış olur. Qrupların fəaliyyəti üçün aşağıdakı tapşırığı vermək olar. Yaxud da aşağıda təqdim olunan iş kollektiv və ya fərdi həyata keçirilə bilər.

**I qrup**

Azərbaycan Respublikasının xarici siyasətinin əsas məqsədləri nədən ibarət idi? Təhlil edin.

______________________________

______________________________

**II qrup**

Azərbaycan Respublikası xarici siyasətində dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirin.

______________________________

______________________________

**III qrup**

Azərbaycan Respublikasının xarici siyasətində NATO ilə əməkdaşlığın əhəmiyyətini şərh edin.

______________________________

______________________________

**IV qrup**

Xarici-iqtisadi əlaqələrin əhəmiyyətini dəyərləndirin.

______________________________

______________________________

**V qrup**

Beynəlxalq təşkilatlar və dünyanın aparıcı ölkələri ilə əməkdaşlığın ölkəmiz üçün əhəmiyyətini qiymətləndirin.

______________________________

______________________________

**VI qrup**

Heydər Əliyevin I və II prezidentlik dövründəki beynəlxalq əlaqələr sistemində gördüyü tədbirləri dəyərləndirin.

---

---

**Məlumatın mübadiləsi və müzakirəsi**. Müəyyən etdiyiniz vaxtdan sonra qruplar öz işlərini nümayiş etdirirlər. Düzəlişlər edilir, qüsurlar göstərilir. Bundan sonra ümumləşməni aparmaq üçün müzakirə suallarına keçid edilir. Məqsəd Azərbaycan Respublikasının xarici siyasətini yüksək dəyərləndirərək, onun əsas istiqamətlərini müəyyənləşdirmək və dövlətimizin xarici siyasət hədəflərini əsaslandırmaqdır. Şagirdlər özləri bu nəticələri əldə etməlidirlər. Buna görə də müzakirə sualları dəqiq və düşünülmüş şəkildə, məntiqi ardıcıllığa və sinxronluğa uyğun verilməlidir. Aşağıdakı suallardan istifadə edilə bilər. Çalışmaq lazımdır ki, suallar açıq olsun, qapalı suallardan daha çox müəyyən məqamlarda düzəlişlər edərkən istifadə etmək tövsiyə olunur. Dünyada baş vermiş tarixi prosesləri Azərbaycan tarixi ilə inteqrasiya əsasında dəyərləndirmək üçün Azərbyacanın dünya ölkələrinə inteqrasiyasına dair materialları da təqdim etmək olar. Məsələn, neft strategiyası, iqtisadi və beynəlxalq əməkdaşlıqla bağlı müxtəlif mövzuları dünyada baş verən proseslərlə əlaqəli şəkildə dəyərləndirmək olar.

Mübadilə və müzakirənin nəticəsi olaraq şagirdlərin təqdim etdiyi işləri də qiymətləndirmək lazımdır.

| Qruplar<br>Meyarlar | I QRUP | II QRUP | III QRUP | IV QRUP | V QRUP | VI QRUP |
|---|---|---|---|---|---|---|
| Tapşırığı düzgün yerinə yetirmə | | | | | | |
| Tərtibat | | | | | | |
| Təqdimetmə | | | | | | |
| Əməkdaşlıq | | | | | | |
| Vaxta qənaət | | | | | | |

Xidmət lövhəsi layihəsinə salam üsulunu da bu dərs prosesində tətbiq etmək olar.

Xarici əlaqələrlə bağlı Azərbaycan tarixi öyrədilirsə, aşağıdakılar nəzərə alınmalıdır:

- Heydər Əliyevin rolu
- Azərbaycanın coğrafi-strateji və iqtisadi rolu
- Azərbaycan neftinin rolu

Bu qruplar üzrə uşaqlar hər bir qrup haqqında oxuyur və bu dövr haqqında fəxri lövhələr yaradırlar. Fəaliyyətə hər qrup üzrə 1 səhifəlik oxunuşlar və şagirdlərin əl ilə və ya rəqəmsal versiyalardan istifadə etməklə tamamlaya biləcəyi lövhə şablonları daxildir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər müəllimin köməyi ilə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərini dəqiqləşdirməli, bu istiqamətdə aparılan işlər dəyərləndirilməlidir. Şagirdlər müəyyənləşdirirlər ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dövlətimizn beynəlxalq münasibətlərini müəyyənləşdirən əsas faktordur. Belə ki Azəbraycan bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşdığı kimi, digər ölkələrdən də bunu tələb edir. Son zamanlar qlobal münasibətlərdə iqtisadi sahənin də rolu artmışdır. Bunu dövlətimizin başçısı çox gözəl görür və bu istiqamətdə də müəyyən işlər aparılır. Həmçinin şagirdlər dərsin sonunda standarta müvafiq məqsədə çatmaqla Azərbaycan Respublikasının xarici siyasətində geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

**Yaradıcı tətbiqetmə.** Müəllim planlaşdırdığı dərsdən asılı olaraq istənilən tapşırıqdan bu mərhələdə istifadə edə bilər.

**Ev tapşırığı.** "Heydər Əliyev və xarici siyasət" mövzusunda təqdimat hazırlamaq tapşırılır.

**QEYD:** Şagirdlərin istəyindən asılı olaraq Heydər Əliyevin hər hansı sahədə fəaliyyəti ilə bağlı təqdimat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə

Şagirdlərin qiymətləndirilməsi yuxarıda yazılmış meyarlar üzrə aparılmalıdır. Bu zaman hər bir meyar səviyyələr üzrə bölünməlidir.

# MÖVZU 34. AZƏRBAYCAN RESPUBLİKASI YENİ İNKİŞAF YOLUNDA

**Standartlar:**

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Ölkəmizdə yaşayış tərzindəki dəyişiklikləri respublikamızın yeni inkişaf xüsusiyyətləri ilə əlaqələndirir.
2. Azərbaycan Respublikasının yeni inkişaf mərhələsi dövrü ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.
3. Dövlətçiliyin inkişafında İlham Əliyevin rolunu dəyərləndirir.

***Təlim forması:*** qruplarla iş
***Təlim üsulları:*** fasiləli oxu, kublaşdırma

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı verilmiş açar sözlərdən istifadə etməklə motivasiya qurmaq olar. Yaxud şaxələndirmə üsulu ilə inkişaf layihələri ilə bağlı elementləri yazmaqla şagirdlərdən cavab almaq mümkündür. Dövrə dair müxtəlif faktları oxumaqla da motivasiyanı reallaşdırmaq olar. Motivasiya kimi digər vasitə dərslikdə verilmiş materiallar əsasında problem situasiya yaratmaq mümkündür. Müzakirəni bu istiqamətdə aparmaqla motivasiya mərhələsi həyata keçirilə bilər. Yaxud şagirdlərə “Böyük dövlətlər arasında rəqabət, böyük iqtisadi güc, eləcə də güc tarazlığı, ASAN xidmət, qeyri-neft sektoru, münaqişələr sizə nəyi xatırladır?” sualını da verib fərziyyələr almaq olar.

**Tədqiqat sualı: Azərbaycan Respublikası yeni inkişaf yolunda hansı tarixi proseslərdən keçdi?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün şagirdlər qruplara bölünür. Öncədən hazırlanmış iş vərəqləri onlara paylanılır. Ona görə də şagirdlər bu mövzu ilə ya mühazirə, ya da fasiləli oxu üsulu vasitəsilə tanış ola bilərlər. Tövsiyə olunan üsullardan hansı sinfin səviyyəsinə və bacarıqların formalaşdırılmasına görə münasibdirsə, o da tətbiq edilir.

Əgər hər hansı bir fənlə inteqrasiya imkanları tətbiq etmək nəzərdə tutulubsa, o mütləq tətbiq edilir. Müasir təlim prosesində inteqrasiyanın həyata keçirilməsi əsasdır.

Fasiləli oxu zamanı mövzuda verilmiş məlumatlar, şəkil və illüstrasiyalar şagirdlərin düşünməsi və fikir bildirməsi üçün vasitə ola bilər. Mövzu arası verilmiş aşağıdakı suallar taksonomiyaya uyğun olaraq bilmədən qiymətləndirmə və sintezə qədər bir mərhələni həyata keçirmək üçün uğurlu vasitədir.

Bu mövzunun tədrisi zamanı əgər şagirdlərdə material toplayıb təqdimetmə bacarığı formalaşdırmaq qarşıya məqsəd qoyulubsa, o zaman onlara müxtəlif mənbələrdən istifadəetmə bacarığını formalaşdırmağa şərait yaradan tapşırıqlar verilir.

**I qrup**

Ölkəmizdə yaşayış tərzindəki dəyişiklikləri respublikamızın yeni inkişaf xüsusiyyətləri ilə əlaqələndirin.

______________________________

______________________________

**II qrup**

Azərbaycan Respublikasının Yeni inkişaf mərhələsi dövrünə aid müxtəlif mənbələrdən topladığınız materialları təqdim edin.

______________________________

______________________________

**III qrup**

Dövlətçiliyin inkişafında İlham Əliyevin rolunu dəyərləndirin.

______________________________

______________________________

Yaxud da bu mövzunun tədrisində kublaşdırma üsulu istifadə etməklə dövlət başçısının ölkəmizin inkişafı yolunda apardığı işləri araşdırmaq olar.

Bu, şagirdləri təsvir, müqayisə, əlaqələndirmə, təhlil, tətbiq və mübahisəyə istiqamətləndirir.

**Məqsəd:**

- Mövzuya müxtəlif cəhətlərdən nəzər salmağın asanlaşdırılması;
- Məntiqi və tənqidi təfəkkürün inkişafı;
- Hadisəyə hərtərəfli baxışın formalaşdırılması;
- Qiymətləndirmə bacarığının formalaşdırılması;
- Təhlil prosesinin inkişaf etdirilməsi;
- Əməkdaşlıq vərdişlərinin formalaşdırılması.

Bu metoddan müəllim mövzunu, situasiyanı və s. tədqiq etmək istədikdə istifadə edir.

Bununla da mürəkkəb və inteqrativ yanaşmalar üçün tələb olunan bacarıqları inkişaf etdirmək imkanı əldə edilir.

**Alqoritm:**

1. Kub düzəltmək (kağızdan);
2. Kubun hər üzünə verilən bu göstərişlərdən birini yazmaq: *Təsvir et; Müqayisə et; Əlaqələndir; Təhlil et; Tətbiq et; Mübahisə et.*

| | | | |
|---|---|---|---|
| | **5. Tətbiq et** | | |
| **1. Təsvir et** | **2. Müqayisə et** | **3. Əlaqələndir** | **4. Təhlil et** |
| | **6. Mübahisə et** | | |

3. Müzakirə olunan hadisə müəyyənləşdirilir. Məsələn, neft və qaz sektorunun inkişafı. Sosialyönümlü layihələrin həyata keçirilməsi və s.
4. Sinif 6 qrupa bölünür. Hər qrup bir tapşırıq üzrə iş aparır.
5. Şagirdlər təlimatlandırılır.
6. Tapşırıqlar yerinə yetirilir:
   a) təsvir: rənglər, formalar, ölçülər və s.;
   b) müqayisə: oxşar və fərqli cəhətlər;
   c) Əlaqələndirmə (assosiasiya yaratmaq). Bu nəyi xatırladır?
   d) Təhlil;
   e) Tətbiq. Ondan necə istifadə edə bilərsən?
   f) Onun lehinə və əleyhinə çıxış et və arqumentlər göstər.
7. Təqdimat aparılır.
8. Nəticə çıxarılır, ümumiləşdirilir.
9. Yekun iş lövhədən asılır.

**Məlumatın mübadiləsi və müzakirəsi**. Müəyyən edilmiş zaman ərzində şagirdlər qrup işlərini hazırlayaraq mübadiləni həyata keçirir. Mübadilə mərhələsində şagirdlər materialları oxuyurlar. Əgər İKT imkanlarınız olarsa, o zaman təqdimatlar elektron qəbul edilə bilər. Müzakirə mərhələsində cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

Qrupları aşağıdakı meyarlarla da qiymətləndirmək olar.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Təqdimatlar ilə məlumatın mübadiləsi və müzakirəsi mərhələsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər.

- ✓ Sizcə, İlham Əliyev TANAP layihəsinə nə üçün xüsusi önəm vermişdi?
- ✓ Azərbaycan Respublikası dünyada öz mövqeyini möhkəmləndirmək üçün hansı addımlar atmışdır?
- ✓ Neft və qaz strategiyasının Azərbaycanın dünya dövlətləri ilə siyasi və mədəni əlaqələrinin inkişafına təsiri hansılardır? və s.

Müxtəlif suallara cavab verməklə şagirdlər məqsədə uyğun bilik və bacarıqlara, ölkəmizdə yaşayış tərzindəki dəyişiklikləri respublikamızın yeni inkişaf xüsusiyyətləri ilə əlaqələndirir, eləcə də Azərbaycan Respublikasının Yeni inkişaf mərhələsi dövrünə aid müxtəlif mənbələrdən topladığı materialları təqdim edir. Dövlətçiliyin inkişafında İlham Əliyevin rolunu dəyərləndirir.

**Yaradıcı tətbiqetmə.** “Dövlətçiliyin inkişafında İlham Əliyevin rolu” adlı esse yazmaq tapşırılır.

**Ev tapşırığı.** İlham Əliyev haqqında araşdırmalar aparıb, təqdimatlar hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, təqdimetmə, dəyərləndirmə

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarları nəzərə alaraq qiymətləndiriləcək şagirdlər dərs boyu diqqətdə saxlanmalı və onların fəaliyyətləri izlənməlidir. Dərsin sonunda şagirdləri yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmək olar. Qiymətləndirmə zamanı şagirdin fəaliyyəti ilə bağlı müəyyən şübhələr yaranarsa, əlavə suallar vermək məqbuldur. Sonuncu meyar üzrə şagirdləri dərs ərzində qiymətləndirməyin mümkün olmadığını nəzərə alaraq ancaq növbəti dərs qiymətləndirməni həyata keçirmək olar. Bunun üçün də onlara verilən ev tapşırığının müəyyənləşdirilən vaxtda yığılıb yoxlanılması vacibdir.

# MÖVZU 35. CƏBHƏ XƏTTİNDƏ TOQQUŞMALAR. DÖRD GÜNLÜK MÜHARİBƏ

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Qarabağ münaqişəsini zaman baxımından qiymətləndirir.
2. Dörd günlük müharibəyə dair təqdimat hazırlayır.

***Təlim forması:*** qruplarla iş

***Təlim üsulları:*** rollu oyun, qərarlar ağacı

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi üçün ilkin mərhələni – motivasiya mərhələsini həyata keçirmək məqsədilə müxtəlif vasitələrdən istifadə etmək olar. Elektron lövhədə və ya proyektorun köməyi ilə Mübariz İbrahimova aid sənədli filmdən epizod şagirdlərə göstərilir. Sonra internetdən və ya digər materiallar əsasında Qarabağ münaqişəsinə dair şəkillər nümayiş etdirilir. Əgər İKT-dən istifadə etmək imkanı yoxdursa, o zaman Fərid Əhmədovun qəhrəmanlığına aid hekayə danışmaq olar. Onun qəhrəmanlığına dair suallar verməklə şagirdlərdə mövzuya maraq oyadılır.

**Tədqiqat sualı: Cəbhə xəttində toqquşmalar və 4 günlük müharibə Azərbaycan tarixində hansı rolu oynadı?**

**Tədqiqatın aparılması.** Fəal öyrənmə müzakirələr, problem həlli, nümunələr, rollu oyunlar və digər üsullar vasitəsilə şagirdlərin kurs materialı ilə fəal şəkildə məşğul olmasını nəzərdə tutan təlimə yanaşmadır. Dərs prosesində şagirdlərin böyük maraqla həyata keçirdiyi rollu oyunlar onların materialı daha dərindən dərk etməsinə kömək edir. Rollu oyun problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmalardan ibarətdir. İştirakçılar müxtəlf rolları öz üzərlərinə götürür və müəyyən bir hadisəni bu mövqedən qiymətləndirirlər. Bu dərs üçün rollu oyun çox maraqlı ola bilər. Rollu oyun şagirdlərin oynadığı səhnə əsəridir. Onun məqsədi keçmişdə baş vermiş hadisəni canlandırmaqdır, həmin tarixi prosesi emosional surətdə yenidən yaşamaqdır. Belə dərslər hadisəyə, baş vermiş prosesə müxtəlif nöqteyi-nəzərdən baxmaq, onu qiymətləndirmək deməkdir. Oyunun məqsədlərini, mövzusunu və oyunda iştirak edəcək obrazları müəyyənləşdirmək lazımdır. Mübariz İbrahimovun, Fərid Əhmədovun və s. rollarını oynamaq münkündür ki, bu da şagirdlərin mənəvi tərbiyəsində xüsusi əhəmiyyət kəsb etmiş olur.

Şagirdlərdən kimin şərh edəcəyi, kimin müşahidə edəcəyi, qrupların necə fəaliyyət göstərəcəyi müəyyənləşdirilir. Rolları seçmək üçün şagirdlərə bir qədər vaxt ayırmaq və

utancaq şagirdlərə də rol vermək lazımdır. Bir rolu bir neçə nəfər oynamaq istəyərsə, bu rolu onun öhdəsindən daha yaxşı gələn şagirdə vermək məsləhətdir. Yaxud da məsələni püşkatma yolu ilə həll etmək olar.

**Tapşırıqların verilməsi (hər qrupda verilir).** Oyunun gedişi müəyyənləşdirilir:

- Müxtəlif obrazların rolunu təqdim edən şəxsin hekayəsi;
- Obrazların ünsiyyət saxladığı və oyun zamanı dialoqların aparıldığı səhnə;
- Rəsmi prosedurun riayət olunduğu proses.

Qrup rollara hazırlaşır. Qrupu məzmunla tanış etmək üçün asan bir situasiya yaradılır. Situasiyanı təhlil etmək və fəaliyyətə hazırlıq üçün bir neçə dəqiqə vaxt verilir.

**Məlumatın mübadiləsi rollu oyun vasitəsilə reallaşdırılır.**

**Məlumatın müzakirəsi:** Şagirdlər göstərilən səhnəni şərh edirlər. Tamaşa zamanı “aktyorları” dayandırıb, şagirdlərdən nə baş verdiyi soruşulmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə yönləndirici suallar verməklə ümumiləşdirmə aparmaq olar. Bu da öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, təqdimat hazırlama

Şagirdlərdən xahiş edilir ki, bu fəaliyyət barəsində düşünsünlər və ona təlim təcrübəsi kimi yanaşsınlar. Oyun “aktyor”larla və “tamaşaçı”larla birgə qiymətləndirilir.

Onlardan aşağıdakılar soruşulur:

- Rollarla bağlı hansı hissləri keçirdiniz?
- Məsələ necə həll edildi?
- Bu tamaşada fərqli nə ola bilərdi? Siz başqa necə sonluq düşünə bilərdiniz?

Əgər məqsədə çatılmadısa, bunun üçün şagirdlərdən təklif vermələrini xahiş edin.

Bu mövzunun tədrisi üçün digər tətbiq ediləcək uğurlu üsul **“Qərarlar ağacı”** üsuludur. Bu üsulun məqsədi çətin vəziyyətlərdə qərar qəbul etmək üçün problemlərin bir neçə həlli yollarını tapmaq, qərarların qəbulu zamanı əsas səbəblərin təhlilini və anlamını asanlaşdırmaqdır. Bununla yanaşı, mübahisəli baxışları və qərarları yaxınlaşdırmaq, şagirdlərin biliklərini ümumiləşdirmək və onları qiymətləndirməyə imkan yaratmaq vacib amildir. Şagirdlər mümkün qərarların bütün variantlarını ətraflı təhlil edirlər. Bununla qərarın qəbulu asanlaşır. Düşünülmüş qərar qəbul etmək bacarığı formalaşır. Şagirdlərin bilik səviyyəsini və materialın nə dərəcədə mənimsənildiyini müəyyən etmək də bu üsulun köməyi ilə həyata keçirilir.

**Alqoritm:**

1. Əvvəlcə müəllim problemi izah edir və şagirdlərlə onun həlli yollarının bir neçə variantını müəyyənləşdirir.

2. Müəllim şagirdləri 4-6 nəfərlik qruplara bölür. Qruplara iş vərəqləri və markerlər verilir. İşin icra müddəti müəyyən olunur: 10-20 dəq.
3. Qruplar aşağıdakı sxem üzrə cədvəli doldururlar.

| **PROBLEM:** | | |
|---|---|---|
| **1-ci variant** | **2-ci variant** | **3-cü variant** |
| +<br>- | +<br>- | +<br>- |
| **QƏRAR:** | | |

Qruplar cədvəlləri doldurur, problemin həlli yollarının hər variantının üstünlüklərini və qüsurlarını təhlil edir, müvafiq xanaları doldurur və problemin həlli üsulu haqqında qərar qəbul edirlər. Qrup liderləri işlərinin nəticələri barədə məlumat verirlər. Təqdimat zamanı qrup liderləri xanalardakı yazıları oxuyur, qərarı isə bildirmirlər. Müəllim başqa qruplara deyir ki, qrupun qeyd etdiyi müsbət və mənfi cəhətləri nəzərə alaraq, hansı variantı seçdiyini tapsınlar. Şagirdlər fikirlərini bildirdikdən sonra cədvəldəki qərar açılır. Bütün qruplar öz işlərini təqdim etdikdən sonra müəllim əldə olunmuş nəticələri müqayisə edir və qərarların hansının daha əsaslı olduğunu müzakirə edir, suallara cavab verir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Beləliklə, şagirdlər bilməlidirlər ki, dövlətimiz Qarabağ münaqişəsinin həlli yolunda əlindən gələni etmişdir. 2020-ci ilin sentyabrına qədər Qarabağ məsələsi bütün beynəlxalq danışıqların mərkəzində olmuşdur. Heydər Əliyevin başladığı bu siyasəti Prezident İlham Əliyev də davam etmiş, dövlətin probleminin dinc yolla həllinə çalışmışdır. Şagirdlər Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları dəyərləndirməklə yanaşı, Qarabağ münaqişəsini zaman baxımından qiymətləndirir, Dörd günlük müharibəyə dair təqdimat hazırlama bacarığına da malik olurlar. Şagirdlərin bu müharibə ilə bağlı təqdimatı rollu oyun vasitəsi ilə olduğu üçün dərs prosesi daha yadda qalan və öyrədici olacaqdır.

**Yaradıcı tətbiqetmə.** “4 günlük müharibənin qəhrəmanları” başlığına 4 açar sözü yazmaq tapşırılır.

**Ev tapşırığı.** Murad Mirzəyev haqqında araşdırma aparıb hesabat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** qiymətləndirimə, təqdimat hazırlama

# MÖVZU 36. XARİCİ SİYASƏTDƏ UĞURLAR

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.
3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Xarici siyasətdəki uğurlara dair xronoloji cədvəllər hazırlayır.
2. Xarici siyasətdə Azərbaycan Respublikasının mövqeyini dəyərləndirir.

***Təlim forması:*** cütlərlə iş
***Təlim üsulları:*** Reading & Writing, diskussiya

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi üçün ən uğurlu motivasiya beynəlxalq müqavilələr haqqında məlumat vermək, yaxud da Azərbaycanın dünyaya açdığı qapıları bədii obrazlı cümlələrin köməyi ilə reallaşdırmaq olar. Türk Dövlətləri Təşkilatları, eləcə də digər təşkilatların Azərbaycanla bağladığı müqavilələrə aid şəkillər, videogörüntülər, səs yazıları və s. sizin dərs üçün motivasiya mənbəyi ola bilər.

**Tədqiqat sualı: Xarici siyasətdə uğurların əldə edilməsinin Azərbaycan üçün əhəmiyyəti nə oldu?**

**Tədqiqatın aparılması.** Dərsin maraqlı edilməsində ən uğurlu startegiyalardan biri də Eşitmə strategiyasıdır. Dinləmə və danışmağı əhatə edən öyrənmə təcrübələrinin yaradılması bu starategiya ilə həyata keçirilir. Uğurlu müəllimlər öz siniflərində aşağıdakı təlim metodlarını tətbiq etməlidirlər:

- ✓ Yeni mövzuya hansı akademik konsepsiyaların gəldiyi fonu ilə başlayın;
- ✓ Müzakirə qrupları və ya beyin fırtınası kimi fəaliyyətlərdən istifadə edin;
- ✓ Şagirdlərdən sualı ucadan oxumağı xahiş edin;
- ✓ Öyrənənlərin əməkdaşlığın mümkün olduğu qruplarda olmasını təmin edin;
- ✓ Öyrənilənləri ümumiləşdirməklə yekunlaşdırın.

Reading & Writing – öz qeydlərini yenidən yazmaq, dərslikləri oxumaq və qeyd etmək kimi daha ənənəvi təlim metodlarından istifadədir. Onlar öz siniflərində aşağıdakıları tətbiq etməklə daha yaxşı öyrənməyə meyillidirlər:

- ✓ Onlar iş vərəqlərində və digər mətnli resurslarda yazılı məlumatlarla təmin edilməlidir;
- ✓ Şagirdlərdən qeydləri yenidən yazmağı xahiş edilməlidir;
- ✓ Diaqramlar sözlərə çevrilməlidir.
- ✓ Onlardan yazılı mətnə istinad etmələri xahiş edilməlidir.

Kinestetik öyrənmə (toxunma) bütün öyrənmə üslubları arasında ən fiziki olanıdır, çünki kinestetik və ya toxunma vasitəsilə öyrənənlər hərəkət, hərəkət və toxunmanın praktik strategiyasını əhatə edən təlimat strategiyası vasitəsilə məlumatları ən yaxşı şəkildə qavrayırlar. Kinestetik öyrənənlər sözü təhsilalanların təlim mühitində hərəkət və bədən mövqeyini hiss

etmək qabiliyyətini göstərir. Son illərdə təcəssüm olunmuş idrak sahəsinə böyük maraq yaranıb. Aşağıdakılar kinestetik öyrənmə üçün istifadə olunan strategiyaların seçimidir:

- ✓ Tədris metodlarına fiziki hərəkəti cəlb etmək;
- ✓ Şagirdlərə praktiki təcrübə təqdim etmək;
- ✓ Öyrənmək üçün kartlardan istifadə etmək;
- ✓ Şagirdləri fiziki materialları əhatə edən sinif fəaliyyətlərinə cəlb etmək;
- ✓ Şagirdlərdən formativ qiymətləndirmədə məlumatların şəkillərini çəkmələrini xahiş etmək.

Bu üsullardan istifadə edərək aşağıdakı tapşırıq üzrə şagirdləri cütlərdə birləşdirmək olar:

**I cüt**

"Şuşa Bəyannaməsi" Azərbaycanın növbəti uğurudur" adlı araşdırma aparın.

______________________________

______________________________

**II cüt**

Xarici siyasətdəki uğurlara dair xronoloji cədvəllər hazırlayın.

______________________________

______________________________

**III cüt**

Xarici siyasətdə Azərbaycan Respublikasının mövqeyini dəyərləndirin.

______________________________

______________________________

**IV cüt**

Azərbaycan-Türkiyə münasibətlərini özündə əks etdirən xronoloji cədvəl tərtib edin.

______________________________

______________________________

**V cüt**

İran-Azərbaycan və İran-Ermənistan münasibətlərini müqayisə edib dəyərləndirin.

______________________________

______________________________

**VI cüt**

"Beynəlxaq təşkilatlar və Azərbaycan" adlı cədvəl hazırlayın.

______________________________

______________________________

**VII cüt**

Azərbaycan-Rusiya münasibətlərini dəyərləndirin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Cütlərə verilmiş tapşırıqlar sonda tədqiqat sualına cavab tapmaq üçün yardımçı olmalıdır. Hər bir cüt öz işini qısa və konkret şəkildə təqdim edərsə, vaxt problemi olmaz. Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir. Cütlərin özünü qiymətləndirməsi üçün aşağıdakı meyarlardan istifadə etmək olar.

### CÜTLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**QEYD:** Fəaliyyətinizi 5 ballıq şkala ilə qiymətləndirin.

| Meyarlar | Şagirdlərin adı və soyadı | |
|---|---|---|
| | 1. | 2. |
| Fəallıq səviyyəsi | | |
| Əməkdaşlıq | | |
| Qaydalara əməl olunması | | |
| Tapşırığın icrası zamanı müzakirə etmə | | |
| Ümumi rəyə gəlmə | | |
| Təqdimat etmə | | |

Bu mövzunun tədrisi zamanı məlumatın müzakirəsini daha yaxşı həyata keçirmək üçün diskussiya təşkil etmək tövsiyə olunur. Diskussiya prosesində şagirdlər müzakirə olunan məsələ barədə fikirlərini söyləməklə onu əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli fikirlərə dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır. Müəllim şagirdlərə təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını özləri tərtib etsinlər. Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə lövhədən asa bilər. Onları dərs ilinin axırına qədər saxlamaq lazımdır ki, sonralar istinad yaxud əlavələr və düzəlişlər etmək mümkün olsun. Diskussiyanı həyata keçirdikdən sonra ümumiləşdirmə aparıb nəticə çıxarmaqda şagirdləri yönləndirmək olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər araşdırmalar nəticəsində Azərbaycanın xarici siyasətdəki addımlarını dəyərləndirir, faktlara əsasən sistemli şəkildə xronoloji cədvəllər hazırlayırlar. Cədvəllərin tərtibatında məqsəd tarixi prosesləri daha aydın şəkildə və praktik izləmək üçün imkanın açılmasıdır.

**Yaradıcı tətbiqetmə.** “Xarici siyasətdə uğurlar” adlı esse yazmaq tapşırılır.

**Ev tapşırığı.** Azərbaycanın son 4 ildə apardığı xarici siyasətdəki uğurları cədvəl əsasında sistemləşdirmək tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** xronoloji cədvəllər hazırlama, dəyərləndirmə

# MÖVZU 37. VƏTƏN MÜHARİBƏSİ
## (BİRİNCİ SAAT)

**QEYD:** Bu mövzunun tədrisinə 3 saat vaxt ayrılmışdır. Müəllimlər standart seçimində və motivasiya qoymaqda müstəqildirlər. Burada təqdim olunan məqsəd və motivasiya tövsiyə xarakteri daşıyır. Vətən müharibəsi bizim qəhrəmanlıq səhifəmiz, qürur mənbəyimiz, dövlət-xalq-ordu birliyinin təcəssümü, vətənpərvərliyimizin nümunəsi, şanlı tariximiz olduğunu nəzərə alaraq bu paraqrafın tədrisini təqdimat hazırlama əsasında təşkil edilməsini nəzərdə tutmuşuq. Tədrisin bu formada keçirilməsi şagirdlərin hadisələrə yaradıcı yanaşmasına şərait yaradar və onları tədqiqatçılığa sövq edər. Əvvəlki 2, 3 və ya 5 saatlıq mövzularda tədris saatına uyğun olaraq paraqraflarda müvafiq bölgü aparılsa da, bu mövzunun dərs icmallarını mərhələlərə bölməmişik. Belə addım atmaqla müəllimə bu bölgünü etməkdə tam sərbəstlik verilmişdir.

**Standart:**
1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

**Təlim məqsədi:**
Vətən müharibəsi haqqında təqdimatlar hazırlayır.

***Təlim forması:*** qrup işi
***Təlim üsulları:*** prezentasiya üsulu, layihə üsulu, tarixi etiketlər üsulu

**Dərsin gedişi**
**Motivasiya.** Birinci saat üçün dərsin təşkilində uğurlu motivasiya yolu İKT-nin köməyindən istifadə etməklə 44 günlük müharibədən videomateriallar təqdim etmək olar. Yaxud da müharibədə iştirak edən qəhrəmanlarımızın döyüş yollarından danışmaqla motivasiyanı reallaşdırmaq olar.

**Tədqiqat sualı: Vətən müharibəsinin Azərbaycan tarixindəki əhəmiyyəti nədən ibarətdir?**

**Tədqiqatın aparılması.** Birinci saatda prezentasiya üsulundan istifadə etməklə qruplara tapşırıq vermək olar. Prezentasiya fəal dərslərin mühüm elementlərindən biridir. Burada şagirdlər tədqiqatın nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollu və s. formalarda ola bilər.

**Məqsəd:**
- Şagirdlərə tədqiqat fəaliyyətinin nəticələrini müxtəlif yollarla təqdim etməyi öyrətmək;
- Öz fikirlərini dəqiq ifadə etməyi öyrətmək;
- Mükəmməl nəticə çıxarmağı öyrətmək.

Şagirdlər təqdimat zamanı hər hansı bir təqdimatın keçirilməsi qaydalarına riayət edirlər.

**Alqoritm:** Müəllim şagirdlərlə birlikdə təqdimatın növünü, keçirilmə şəraitini və şərtlərini müəyyən edir. Şagirdlər təqdimatın elə bir üsulunu seçə bilərlər ki, gördükləri iş barədə məlumat vermək və biliklərini bölüşdürmək üçün imkan olsun. Təqdimatlar müzakirə olunur və meyar cədvəli əsasında qiymətləndirilir.

**Təqdimatın şərtləri:**

1) problemin mahiyyəti üzərində fikri cəmləmək bacarığı;
2) faktik məlumata əsaslanan, başlıca ideya və nəticələrə dəstək verən nümunə və misalların olması.

Təqdimatın hər bir növünün özünəməxsus qaydaları vardır. Məsələn, şifahi təqdimatda səsdən, jestlərdən, foto, video və digər əlavə materiallardan bacarıqla istifadə, illüstrasiyaların, fotoşəkillərin seçimi və digər faktlar nəzərə alınır.

**I qrup**

Tovuz döyüşlərinə dair material toplayıb təqdim edin.

**II qrup**

“Dəmir yumruq” planına dair təqdimat hazırlayın.

**III qrup**

Ağdərə-Kəlbəcər istiqamətində döyüşlərə dair təqdimat hazırlayın.

**IV qrup**

Füzuli və Cəbrayıl uğrunda döyüşlərə dair təqdimat hazırlayın.

**V qrup**

“Əziz Şuşa, sən azadsan!” adlı təqdimat hazırlayın.

**VI qrup**
"Qisas əməliyyatı" adlı təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən olunmuş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Bu mərhələdə şagirdlər öz qrup işlərini təhvil verirlər. Onların liderləri qrup adından verilmiş tapşırığın təqdimatını edir. Lazım gələrsə, qrup üzvləri ona yardım göstərə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır. Şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri lövhədə də göstərilə bilər.

# MÖVZU 37. VƏTƏN MÜHARİBƏSİ
## (İKİNCİ SAAT)

Bu dərsin ikinci saatına isə layihələrin hazırlanması üsulunu tətbiq etməklə başlamaq olar. Şagirdlərə bir həftə öncədən Vətən müharibəsi ilə bağlı tapşırıq vermək olar.

Bu, müxtəlif mövzuların şagirdlər tərəfindən müstəqil şəkildə tədqiq edilməsidir.

**Məqsəd:**
- Ayrı-ayrı faktlar və hadisələrin təlim fənləri və xarici aləmlə əlaqəsini görməkdə şagirdlərə kömək etmək;
- Şagirdlərə müstəqil olaraq öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək etmək;
- Müəllimin rəhbərliyi ilə şagirdlərə təlim prosesini idarə etməyə imkan vermək;
- Şagirdlərin bir-biri ilə, həmçinin başqaları ilə qarşılıqlı əlaqəsi üçün imkan yaratmaq;
- Şagirdlərə hadisələri daha dərindən anlamağa şərait yaratmaq, əlavə ədəbiyyatdan istifadə etməyi öyrətmək;
- Şagirdlərə sosioloji tədqiqat və yaradıcı vərdişlər aşılamaq;
- Şagirdlərin öz tədqiqatlarının nəticələrini və rəylərini bildirmək və müdafiə etmək vərdişlərinə sahib olmalarına kömək etmək.

**Alqoritm:**
1. Mövzu və ya problemi müəllim müəyyən edir və sinfə seçmək imkanı verir. Bunlar şagirdlər tərəfindən də seçilə bilər.
2. Şagirdlərə layihə üzərində iş üçün hər hansı bir metod təklif oluna bilər.
3. Müəllim və şagirdlər müəyyən edirlər ki, layihə üzərində iş nə vaxt başlayacaq, nə qədər vaxt aparacaq, hansı vasitələrdən istifadə olunacaq, şagirdlər hansı formada məşğul olacaqlar və s. Bu mərhələdə layihənin necə başa çatdırılması məsələsinin müzakirəsi mühüm əhəmiyyət kəsb edir.
4. İş zamanı müəllim suallara cavab verə, şagirdlərə yol göstərə bilər. Lakin öz işlərinin icrasına görə əsas məsuliyyət şagirdlərin üzərinə düşür.
5. Tədqiqatın nəticəsi hesabat, müzakirə, təsviri vasitələr (xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər) formasında ola bilər.
6. Layihənin qiymətləndirilməsi.

Layihələrin qiymətləndirilməsi yalnız akademik meyarlar üzrə verilməməli, tətbiq edilmiş müxtəlif vərdiş və bacarıqlar da qiymətləndirilməlidir.

# MÖVZU 37. VƏTƏN MÜHARİBƏSİ
## (ÜÇÜNCÜ SAAT)

Dərsin 3-cü saatında isə sorğu vərəqləri və müsahibə üsulundan istifadə etmək olar. Vətən müharibəsi ilə bağlı sorğu vərəqi hazırlamaq bu dövrün araşdırılıb daha dərindən öyrənilməsi üçün mühüm vasitədir. Sorğu vərəqləri və müsahibə sosioloji tədqiqat metodunun ən maraqlı növlərindəndir.

Anket – soruşulanların müstəqil cavablandırıldığı sorğu vərəqidir. O, obyektin və təhlil predmetlərinin kəmiyyət-keyfiyyət xarakteristikalarının aşkar edilməsinə yönəldilən suallar sistemidir.

Müsahibə – hər hansı fakt, hadisə, münasibət və fikirlər haqqında məlumat almaq vasitəsidir.

**Məqsəd:**

Araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında hər hansı insanlar qrupunun ictimai rəyi barədə məlumat almaq:

- Şagirdlərlə tez bir zamanda əks-əlaqə yaratmaq;
- Məntiqi və tənqidi təfəkkürü inkişaf etdirmək;
- Elmi-tədqiqat vərdişlərini aşılamaq.

**Alqoritm:**

İstənilən sosioloji araşdırma özündə bir neçə mərhələni ehtiva etməlidir.

1. Tədqiqatın hazırlanması və təşkili;
2. Məlumatların toplanması:
   - Sorğunun keçirilməsi üçün şagirdlərə suallar yazılmış vərəqlər verilir;
   - Onlar bu suallara cavab verməlidirlər. Şagirdlərə öz fikirlərini və təkliflərini ifadə etmək imkanı verilir.
3. Əldə olunmuş məlumatların işlənməsi;
4. Təhlil və ümumiləşdirmə.

**Şərtlər:**

- Anketdə suallar dəqiq və konkret olmalı və bitərəf yöndə ifadə olunmalıdır.
- Suallar həm açıq, həm də qapalı ola bilər.
- Müsahibə üçün şagirdləri məqsədəuyğun suallar tərtib etməyə və müsahibənin nəticələrini təhlil etməyə yönəltmək lazımdır.

**Müsahibə yolu ilə aparılan sorğuya dair əsas tələblər:**

- Sualların tədqiqat mövzusuna uyğunluğu;
- Soruşulanların cavablarının və xüsusiyyətlərinin qeydə alınması.

Bu mövzunun tədrisində **“Tarixi etiketlər”** üsulundan da istifadə etmək olar. Lövhədə tarixlər yazılmış 16 xanalı kvadrat çəkilir. Şagirdlərə tarixləri artan xronoloji ardıcıllıqla yenidən qurmaq və sözügedən hadisəni adlandırmaq tapşırığı verilir.

**Yaradıcı tətbiqetmə.** “Vətən müharibəsində Dəmir yumruq əməliyyatı” adlı esse yazmaq tapşırılır.

**Ev tapşırığı.** 44 günlük müharibə qəhrəmanları haqqında araşdırma aparıb təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarı:** təqdimat hazırlama

# MÖVZU 38. QARABAĞDA QURUCULUQ. BÖYÜK QAYIDIŞIN İLK ADDIMLARI

**Standartlar:**

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.
1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Qarabağda quruculuq işlərini zaman baxımından qiymətləndirir.
2. Qarabağda yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

***Təlim forması:*** qrup işi
***Təlim üsulları:*** "Bilik ağacı", "Canlı şəkil"

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzu üçün motivasiya qurularkən müxtəlif şəkillərdən, yaxud da video-materiallardan istifadə etmək olar. İnteqrativliyi təmin etmək üçün Qarabağa həsr edilmiş şeir və nəğmələr də təqdim etmək olar ki, bu da şagirdlərdə fərziyyələrin yaradılması üçün şərait yaradacaqdır.

**Tədqiqat sualı: Qarbağda quruculuq işlərinin və böyük qayıdış prosesinin əhəmiyyəti nədən ibarətdir?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməklə sinif qruplara bölünür. Qrupların hər birinə müxtəlif tapşırıqlar verilir ki, buna nümunə olaraq aşağıdakıları göstərmək olar.

**I qrup**

Düşmənin törətdiyi dağıntıların səbəbini araşdırın, baş verən oxşar hadisələrlə müqayisə edin.

________________________________________

________________________________________

**II qrup**

UNESCO-nun xətti ilə Azərbaycanın dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi və maliyyələşdirdiyi layihələr haqqında araşdırma aparıb nəticələrini təqdim edin.

________________________________________

________________________________________

**III qrup**

Böyük Qayıdışın rəmzi günlərə təsadüf etməsinin hansı səbəbləri var? Fikrinizi əsaslandırın.

**IV qrup**

Qarabağda quruculuq işlərini zaman baxımından qiymətləndirin.

**V qrup**

Böyük Qayıdışla əlaqədar olaraq Qarabağda yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirin.

**Məlumatın mübadiləsi və müakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müəyyən edilmiş meyar əsasında qruplar qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Verilən tapşırıqlar və suallar nəticəsində şagirdlər Qarabağda quruculuq işlərinin yüksək əhəmiyyətliliyini qiymətləndirməklə uzun müddət yurd-yuvalarından didərgin düşmüş insanların bu yerlərə dönüşünü, onların yenidən öz yerlərinə daha yüksək səviyyəli yaşayış şərtlərinə əsasən qayıtmalarını dövrün xüsusiyyətləri ilə əlaqələndirirlər.

Bu mövzunun tədrisi zamanı **"Bilik ağacı"** üsulundan istifadə edilə bilər. "Bilik ağacı" üsulunda uşaqlar öyrəndikləri materiala sual verməyi öyrənirlər. Suallar mətni izah edərkən və ya mətnlə işləyərkən kağız parçalarına yazılır, daha sonra ən uğurlu suallar qiymətləndirilir və "Bilik ağacı"na yapışdırılır.

Digər bir üsul isə **"Canlı şəkil"**dir. Burada şagirdlər tədris təsvirindən istifadə edərək tarixi hadisəni "canlandırmalıdırlar". Bu, geyim problemini aradan qaldıran teatr tamaşalarının növlərindən biridir, çünki cizgi, rəsm özü teatr dekorasiyası kimi olur. XXI əsrin tələblərindən irəli gələn bacarıqları formalaşdırmaq üçün müxtəlif tip suallardan və tapşırıqlardan istifadə vacib və faydalıdır. Bu tapşırıqlar və sualların məqsədi təfəkkürü inkişaf etdirmək olmalıdır.

**Yaradıcı tətbiqetmə.** Qarabağda quruculuq işlərinə əlavə təkliflər vermək tapşırıla bilər.

**Ev tapşırığı.** Təsəvvür edin ki, "Böyük Qayıdış" adlı qısametrajlı film çəkirsiniz. Onun ssenarisini hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** qiymətləndirmə, əlaqələndirmə
Vaxt olarsa, şagirdlərə aşağıdakı formada qrup özünüqiymətləndirmə vərəqi verilə bilər.

Qrupun adı ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirmək olar.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparılır. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-biri ilə bölüşür. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |

***Şərhlər:***

____________________

____________________

# MÖVZU 39. MƏDƏNİYYƏT

**Standartlar:**

5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.

5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Təlim məqsədləri:**

1. Müasir dövr Azərbaycan mədəniyyətini dünya mədəniyyəti ilə müqayisə edir.
2. Müasir Azərbaycan mədəniyyətindəki uğurları araşdırmaqla nəticələrini təqdim edir.

***Təlim formaları:*** böyük və kiçik qruplarla iş
***Təlim üsulları:*** müzakirə, Venn diaqramı, fasiləli oxu

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı müxtəlif vasitələrdən istifadə etməklə motivasiya qurmaq olar. Bunun üçün Azərbaycan mədəniyyətini əks etdirən fotolar və ya mədəniyyət abidələrindən nümunələr təqdim etmək və bu istiqamətdə suallar vermək mümkündür. Yaxud Azərbaycan mədəniyyətini özündə əks etdirən videoçarx göstərmək olar. Digər bir forma isə slayd hazırlayıb şagirdlərə müxtəlif mədəniyyətlərə aid nümunələr təqdim etməkdir. Bu zaman əsas məqsəd mexanizmi işə salmaq, şagirdlərin öz fərziyyələrini irəli sürmələri üçün imkan yaratmaqdır. Müxtəlif sualların köməyi ilə də motivasiya yaratmaq mümkündür. Şagirdlərə olimpiya oyunları, elm və təhsil, mədəniyyət xadimlərinin şəkilləri nümayiş etdirilir. Azərbaycanın uğurlu layihələrdə iştirakını ifadə edən şəkil və ya videolar göstərilir. Şagirdlərə sual da verilə bilər: Mədəniyyətin inkişaf etməsinin əhəmiyyəti nədən ibarətdir? Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra tədqiqat işi təşkil edilir.

**Tədqiqat sualı: Mədəniyyətimizin inkişafının cəmiyyətə təsiri necədir?**

**Tədqiqatın aparılması.** Bu mövzunun tədrisi inteqrasiya şəklində daha da uğurlu ola bilər. Fənlərarası inteqrasiya zamanı şagirdlərin bilik və bacarıqlarının inkişafı üçün fənlərüstü inteqrasiyanın önəmi də vardır. Dərs prosesində şagirdlərin öyrənməsini daha yüksək şəkildə təmin etməklə həyati bacarıqları inkişaf etdirmək üçün maraqlı olan filmlərdən, əsərlərdən epizodlar göstərmək, müxtəlif rəsm əsərlərindən, incəsənət nümunələrindən örnəklər təqdim etməklə şagirdlərdə maraq yaratmaq olar. Şagirdlər Azərbycanın zəngin tarixini araşdırmaqla yanaşı, müxtəlif tədqiqat yönümlü fəaliyyətə də cəlb edilə bilər.

Tədqiqatın aparılması mərhələsində kollektiv iş formasından istifadə etmək olar. Əvvəlcə dərs haqqında şagirdlərə məlumat verilir. Daha sonra mətn şagirdlər tərəfindən fasilə ilə oxunur. Oxunan hissələrdən şagirdlərə suallar verilir. Müəllimlə yanaşı, həm də şagirdlər bir-birlərinə suallar verə bilərlər. Kollektiv işin həyata keçirilməsi üçün şagirdlərə o dövrlə

bağlı müxtəlif mənbələr verilir və bu mənbələri sistemləşdirməklə təqdimat hazırlamaq tapşırılır. Yaxud da mənbələrə əsasən Azərbaycanın müasir mədəniyyəti araşdırılır.

Təqdimat üçün şagirdlərə verilə biləcək mövzular aşağıdakı kimi ola bilər:

1. Müasir dövr Azərbaycan mədəniyyəti ilə dünya mədəniyyətini Venn diaqramında müqayisə edin.
2. Müasir Azərbaycan mədəniyyətindəki uğurları araşdırmaqla nəticələrini təqdim edin.
3. Azərbaycan təhsilinin inkişafını sistemləşdirib təqdim edin.
4. Azərbaycan elminin inkişafını dünyada baş verən elmi inkişafla müqayisə edin.
5. İncəsənətdəki uğurları cədvəl əsasında sistemləşdirərək təqdim edin.
6. Müasir memarlıqda yeniliklərə dair təqdimat hazırlayın.
7. “Şuşa ili və nailiyyətlər” adlı təqdimat hazırlayın.

Yuxarıda verilmiş tapşırıq nümunələri həm qruplarla, həm də cütlərlə uğurlu şəkildə icra edilə bilər. Dərslikdəki materaillarla tanış olan şagirdlər müxtəlif informasiya vasitələrindən öyrəndikləri bilikləri müqayisəli şəkildə müzakirə edə bilərlər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlər bu zaman bir-birləri ilə fikir mübadiləsi aparırlar, bir-birlərinə sual verir və cavablandırırlar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə tutuşdurmalıdır. Onların dərs zamanı əldə etdikləri biliklər ümumiləşdirilir. Müasir dövr Azərbaycan mədəniyyəti ilə dünya mədəniyyətini Venn diaqramında müqayisə edir, müasir Azərbaycan mədəniyyətindəki uğurları araşdırmaqla onun ölkəmiz üçün nəticələrini müxtəlif şəkildə, şifahi və yazılı təqdimatlarla təqdim edirlər.

**Yaradıcı tətbiqetmə.** Azərbaycan mədəniyyətini özündə əks etdirən simvollar hazırlamaq tapşırılır.

**Ev tapşırığı. “**Qarabağın müasir memarlığı” adlı plan-layihə tərtib etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** müqayisə etmə, təqdimetmə

# ŞIMALİ AZƏRBAYCAN XIX YÜZİLLİYİN İLK ONİLLİKLƏRİNDƏ



## ŞİMALİ AZƏRBAYCAN 1846–1859-CU İLLƏRDƏ



## AXC XARİCİ İŞLƏR NAZİRLİYİNİN 1919-CU İL PARİS SÜLH KONFRANSINDA TƏQDİM ETDİYİ RƏSMİ XƏRİTƏNİN RƏNGLİ VERSİYASI



AZƏRBAYCAN SSR 1920–30-CU İLLƏRDƏ



## Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 9**

*Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2024-060)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Elnur Hüseynov**
**Niyaməddin Quliyev**
**Pərviz Ağalarov**
**Sevil Bəhrəmova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Gülnar Səfərova**
Üz qabığının dizayneri **Ayaz Abdulzadə**
Redaktor **Gültəkin Cəfərova**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 20,8. Fiziki çap vərəqi 25. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 200.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Pulsuz. Bakı – 2024

Çap məhsulunu hazırlayan:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Pulsuz